# Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi Sənədi (2016-2020)

## 2017-ci il üzrə İcra Hesabatı



*20 noyabr 2017-ci ildə uşaqlar və yeniyetmələr qlobal Ümumdünya Uşaqlar Günü təşəbbüsü çərçivəsində keçirilən Üçüncü Milli Uşaq Forumunda iştirak edir.*

Foto: UNICEF/Novruzzadə/2017

# Mündəricat

ÖN SÖZ ..... 4

AZƏRBAYCANDA İNKİŞAF TRENDLƏRİ ..... 5

ÜMUMİ MƏLUMAT ..... 9

QISA XÜLASƏ ..... 12

1. ƏSAS NƏTİCƏLƏR ..... 14

DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN İCRASINDA İRƏLİLƏYİŞİ GÜCLƏNDİRMƏK ÜÇÜN HÖKUMƏTƏ DƏSTƏK ..... 14

1-Cİ STRATEJİ PRİORİTET SAHƏ: ARTAN ŞAXƏLƏNDİRİLMƏ VƏ LAYİQLİ ƏMƏYİ ÖZÜNDƏ EHTİVA EDƏN DAYANIQLI VƏ İNKLÜZİV İQTİSADİ İNKİŞAFIN TƏŞVİQİ ..... 15

2-Cİ STRATEJİ PRİORİTET SAHƏ: İNSTİTUSİONAL POTENSİALIN GÜCLƏNDİRİLMƏSİ VƏ SƏMƏRƏLİ DÖVLƏT XİDMƏTLƏRİ VƏ SOSİAL XİDMƏTLƏR ..... 18

3-CÜ STRATEJİ PRİORİTET SAHƏ: ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ RİSK VƏ TƏBİİ FƏLAKƏTLƏRƏ QARŞI DAYANIQLILIĞIN ARTIRILMASI ..... 27

2. ÖYRƏNİLMİŞ DƏRSLƏR: ..... 30

3. SONRAKI FƏALİYYƏTLƏR ..... 31

ƏLAVƏ A: TƏRƏFDAŞLARIN SİYAHISI ..... 32

QOŞMA A: 2017-Cİ İL ÜZRƏ MÜŞTƏRƏK İŞ PLANLARININ İCRASINDA İRƏLİLƏYİŞ ..... 33

QOŞMA B: MALİYYƏ İCMALI ..... 33

# ÖN SÖZ



BMT-nin Ölkə üzrə İdarə Heyətinin illik icra hesabatını sizinlə bölüşməkdən məmnunluq duyuram. Bu hesabat 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədinin icrasının ikinci ilinə həsr olunub. Hesabatda BMT-nın Hökumətlə və digər milli tərəfdaşlarla, o cümlədən, vətəndaş cəmiyyəti təşkilatları, elm ictimaiyyəti və özəl sektorla birgə əməkdaşlığımızın nəticələri öz əksini tapır.

Əməkdaşlığımızın əsas qəyəsi qeyri-neft sektorunda məşğulluq imkanlarının artırılması,peşəkar bacarıqların inkişaf etdirilməsi, qadınların, gənclərin və həssas icmaların səlahiyyət və imkanlarının artırılması olmuşdur. və Məqsədimiz daha mükəmməl siyasətlər sahəsində vətəndaşlara xidmət və yardım mexanizmlərinin çeşidlərinin artırılması vəsiləsiylə milli potensialın gücləndirilməsinə töhfə vermək olmuşdur.

Bununla yanaşı, 2017-ci ildə göstərdiyimiz birgə səylər Azərbaycanda insan hüquqları sahəsində beynəlxalq standartların tətbiqinə, gender bərabərliyinin təşviqinə, ictimai səhiyyə sisteminin gücləndirilməsinə, müasir və dayanıqlı kənd təsərrüfatının inkişafina, həmçinin, ətraf mühitin mühafizəsi və təbii fəlakət risklərinin azaldılmasına yönəlib.

Bundan əlavə, 2017-ci il BMT-nin Azərbaycanla tərəfdaşlığının iki əlamətdar hadisəsinin , Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzvlüyünün və BMT-nin ölkədə rəsmi fəaliyyətə başlamasının, 25-ci ildönümü. 25-illik əməkdaşlığı əks etdirən xatirə kitabının nəşr edilməsi və təqdim edilməsi ilə qeyd olunan bu iki əlamətdar hadisə, Hökumət və Azərbaycan xalqı ilə yaxından əməkdaşlığımızın nəticəsində əldə olunmuş nailiyyətlərə nəzər salmaq üçün fürsət yaratdı. Bu, həmçinin, Azərbaycanda BMT-nin dəyərləri, standartları və prinsiplərinin təbliği sahəsində uğurulu fəaliyyətimizi təsdiq etmək üçün bir imkan idi. 2016-2017-ci illər ərzində Azərbaycan Hökuməti inkişafla bağlı gələcəyə yönələn çoxsaylı strateji sənədlər, xüsusilə də, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2017-2030-cu illər)" və "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliy"in icrasına dair Könüllü Milli İcmal (2017-ci il) hazırlayıb.

Bu sənədlərdə və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında Hökumətin iqtisadi şaxələnmə, layiqli iş yerlərinin yaradılmasının sürətləndirilməsi və keyfiyyətli təhsil, səhiyyə, sosial xidmətlərə və dövlət xidmətlərinə, təmiz hava və suya çıxış imkanının yaxşılaşdırılması istiqamətindəki prioritetləri öz əksini tapıb. BMT-nin Azərbaycandakı Ölkə üzrə İdarə Heyəti ekspert məsləhətlərinin və digər resursların vasitəsilə bu strategiya və siyasətlərin hazırlanmasına töhfə verdiyi üçün qürur hissi duyur. BMT Azərbaycanın 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətindəki səylərini dəstəkləməyə davam edəcək.

Ümid edirəm ki, ictimaiyyətə təqdim olunan bu hesabat oxuculara birgə fəaliyyətimiz, onun nəticələri və təsirləri barədə müfəssəl məlumat verəcək.

Azərbaycan xalqının rifahı naminə müsbət nəticələrə nail olmaq üçün bizimlə çalışdıqlarına görə Azərbaycan Hökumətinə və inkişaf sahəsində fəaliyyət göstərən bütün digər tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Həmçinin, Azərbaycanın çiçəklənməsi üçün çalışan BMT-nin bütün heyətinə və ekspertlərinə, göstərdikləri əzm, fədakarlıq və gərgin əməyə görə minnətdarlığımı bildirirəm.

Qulam İshaqzai

BMT-nin Rezident Əlaqələndiricisi

# AZƏRBAYCANDA İNKİŞAF TRENDLƏRİ

**Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi**

Azərbaycanın milli iqtisadiyyatı aktiv makroiqtisadi siyasət və neft qiymətlərinin nisbətən yüksəlməsi sayəsində 2017-ci ildə sabitləşmişdir[1]. Azərbaycanda neft hasilatının və ixracının azalması ilə bağlı olaraq, neft gəlirlərinin ÜDM-də payı 6.5% azalsa da, qeyri-neft sektorunda xidmət və kənd təsərrüfatı sahələrinin dirçəlməsi sayəsində 2.5% artıb[234]. 2009-cu ildən bəri ilk dəfə olaraq, qeyri-neft sektoru üzrə daxilolmaların dövlət büdcəsində payı (52.6%) neft sektoru üzrə müvafiq göstəricini (47.4%) üstələmişdir[5]. Bununla belə, neft sektorunda baş verən müsbət proseslərdən biri Azəri-Çıraq Günəşli neft yatağının işlənilməsinə dair sazişin 2050-ci ilədək uzadılması olmuşdur.

Hökumət struktur islahatları, o cümlədən gömrük prosedurlarının və sahibkarlıq fəaliyyəti üçün tələb olunan lisenziyalaşdırma prosedurlarının sadələşdirilməsini sürətləndirib[6].

Sahibkarların kreditə çıxışını asanlaşdırmaq üçün Kredit Zəmanət Fondu yaradılıb. Regional nəqliyyat təşəbbüslərindən faydalanmaq və tranzit və ticarəti artırmaq üçün Azərbaycan 2017-ci ilin noyabr ayının əvvəlində Bakı-Tbilisi-Qars dəmir yolu xəttini istifadəyə vermişdir. 2017-ci ildə Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında 2006-cı illə müqayisədə 27 pillə irəliləyərək 137 ölkə arasında 35-ci olub[7].

**İnstitutsional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər**

*Azərbaycan “2017-2018-ci illər üzrə Qlobal Rəqabətlilik Hesabatı”nda*


Azerbaijan

35th / 137

The Global Competitiveness Index 2017-2018 edition

WORLD ECONOMIC FORUM

Key indicators, 2016

Source: International Monetary Fund; World Economic Outlook Database (April 2017)

| | | | |
|---|---|---|---|
| Population millions | 9.5 | GDP per capita US$ | 3,956.4 |
| GDP US$ billions | 37.6 | GDP (PPP) % world GDP | 0.14 |

Performance overview

| Index Component | Rank/137 | Score (1-7) |
|---|---|---|
| Global Competitiveness Index | 35 | 4.7 |
| Subindex A: Basic requirements | 47 | 4.9 |
| 1st pillar: Institutions | 33 | 4.6 |
| 2nd pillar: Infrastructure | 51 | 4.5 |
| 3rd pillar: Macroeconomic environment | 65 | 4.8 |
| 4th pillar: Health and primary education | 74 | 5.7 |
| Subindex B: Efficiency enhancers | 46 | 4.4 |
| 5th pillar: Higher education and training | 68 | 4.5 |
| 6th pillar: Goods market efficiency | 31 | 4.8 |
| 7th pillar: Labor market efficiency | 17 | 5.0 |
| 8th pillar: Financial market development | 79 | 3.8 |
| 9th pillar: Technological readiness | 56 | 4.6 |
| 10th pillar: Market size | 63 | 4.0 |
| Subindex C: Innovation and sophistication factors | 33 | 4.2 |
| 11th pillar: Business sophistication | 40 | 4.4 |
| 12th pillar: Innovation | 33 | 4.0 |

| Edition | 2012-13 | 2013-14 | 2014-15 | 2015-16 | 2016-17 | 2017-18 |
|---|---|---|---|---|---|---|
| Rank | 46 / 144 | 39 / 148 | 38 / 144 | 40 / 140 | 37 / 138 | 35 / 137 |
| Score | 4.4 | 4.5 | 4.5 | 4.5 | 4.6 | 4.7 |



---

1 Beynəlxalq Valyuta Fondu, “BVF heyəti Azərbaycan Respublikasına IV maddə üzrə 2017-ci il missiyasını başa vurub”, 15 dekabr 2017

2 Həmin mənbədə

3 İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM), “Azərbaycan iqtisadiyyatı 2017-ci ilin ilk 9 ayında. Qısa icmal”, 30 oktyabr 2017-ci il

4 İqtisadiyyat Nazirliyi, “2017-ci ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı”, 1 may 2018-ci il

5 Maliyyə Nazirliyi, “Azərbaycan Respublikasının 2018-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı”, Oktyabr 2017-ci il

6 “Dünya Bankı Azərbaycanda: Ölkə haqqında qısa icmal”, Aprel 2017-ci il

7 Dünya İqtisadi Forumunun “2017-2018-ci illər üzrə Qlobal Rəqabətlilik Hesabatı”, Cenevrə, 2017-ci il

Azərbaycanda "ASAN xidmət" mərkəzləri[8] vasitəsilə dövlət xidmətləri çox uğurlu şəkildə təqdim edilir. 2012-ci ildən yaradılmağa başlayan "ASAN xidmət" mərkəzlərində hazırda 10 dövlət orqanı və özəl müəssisə tərəfindən 250-dən artıq xidmət təqdim olunur və ölkədə belə mərkəzlərin sayı 12-ə çatıb. 2017-ci ildə "ASAN xidmət" mərkəzlərinə edilən müraciətlərin sayı 19 milyona çatıb və vətəndaşların məmnunluq səviyyəsi 80-100% arasında olub.[9] Bundan əlavə, "ASAN Viza", "ASAN Qatar", "ASAN Kommunal", "ASAN Pay" mobil tətbiqi, "ASAN Könüllülər" və "ASAN Radio" vasitəsilə ASAN Xidmət sisteminin əhatə dairəsi genişləndirilib. "ASAN Radio" dövlət xidmətləri sahəsində ixtisaslaşmış ilk və yeganə radiodur.

Hazırda 446 dövlət xidməti onlayn şəkildə təqdim olunur[10] . "Açıq Hökumət Məlumatları" portalında (https://data.e-gov.az/) məlumatların sayı 2017-ci ildə 650-ni ötüb. 2006-cı ildə bu göstərici 25 idi[11].

Azərbaycan Hökuməti əhalinin həssas qruplarının yaşayışını yaxşılaşdırmaq üçün nəzərəçarpan səylər göstərməyə davam edir, qaçqınların və məcburi köçkünlərin müdafiəsi və onlara yardım göstərilməsi öhdəliyini tam şəkildə üzərinə götürür. 2017-ci ildə "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası Proqramı" Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təsdiq olunub. Ümumilikdə uşaqlar da daxil olmaqla, 34671 nəfər əlilliyi olan şəxs reabilitasiya xidmətlərindən yararlanıb, 94 917 nəfər isə peşə hazırlığı ilə təmin olunub. Bununla bağlı olaraq, Hökumət tərəfindən 2017-ci ildə bir sıra tədbirlər görülmüş, o cümlədən İşsizlikdən Sığorta Fondu yaradılmış, pensiya islahatı aparılmış və passiv məşğulluq proqramlarından aktiv məşğulluq proqramlarına keçid edilmişdir[12].

Milli qanunvericilikdə məcburi köçkünlərin yalnız bərabərhüquqlu vətəndaşlar kimi statuslarının normallaşdırılmasını deyil, eyni zamanda, mülk və torpaqlarının itirilməsindən meydana gələn problemlərin azaldılmasına yönələn çoxlu sayda hüquqi müddəalar vardır. Təkcə 2017-ci ildə 935 məcburi köçkün ailəsi qəzalı vəziyyətdə olan evlərdən yeni mənzillərə köçürülmüşdür.

İnsan hüquqları sahəsində Azərbaycan 172 beynəlxalq müqavilə, protokol və digər sənədlərə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının insan hüquqlarına dair əsas müqavilələrinin əksəriyyətinə qoşulmuş və ya onları ratifikasiya etmişdir. Əlavə olaraq, Azərbaycan İnsan Hüquqlarına dair ikinci Milli Fəaliyyət Planını qəbul etmiş və bir sıra müvafiq məhkəmə və hüquq islahatlarını həyata keçirmişdir.

**Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması**

Azərbaycan Respublikasının Konstitusiyasının ətraf mühitlə bağlı müddəalarına uyğun olaraq, ətraf mühitin mühafizəsini, təbii sərvətlərdən istifadəni, insanların sağlamlığını, tullantıların idarə olunmasını və digər bu cür məsələləri tənzimləyən qanunlar və əlavə hüquqi-normativ aktlar qəbul edilib[13].

Azərbaycan ətraf mühitin mühafizəsi ilə bağlı bütün əsas BMT konvensiyalarına, o cümlədən iqlim dəyişmələri, biomüxtəliflik və torpaqların deqradasiyası haqqında üç ən vacib konvensiyaya qoşulub. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını 1995-ci ildə qəbul edib və 2015-ci ilin dekabrında Paris Konvensiyasına qoşulub. Azərbaycanın istixana effekti yaradan qazların emissiyasına qatqısı əhəmiyyətli dərəcədə az olsa da , ölkənin 2015-ci ilin dekabr ayında Paris şəhərində keçirilən İqlim Dəyişiklikləri Konfransında

---

[8] ASAN Xidmət dövlət orqanlarına öz xidmətlərini vahid və əlaqələndirilmiş şəkildə təqdim etmək üçün məkanlar təmin edir, vətəndaşların vaxt itkisini və əlavə xərclərini azaldır, elektron xidmətlərdən daha geniş istifadəni təmin edir, peşəkarlıq səviyyəsini yüksəldir, habelə şəffaflığı artırır və korrupsiyaya qarşı mübarizəni gücləndirir.

[9] "ASAN xidmət mərkəzləri biznesə başlamaq üçün 5 minə yaxın lisenziya verib", *"Azernews"* qəzeti (Azərbaycan), 20 dekabr 2017-ci il. Burada tanış ola bilərsiniz: https://www.azernews.az/business/124304.html.

[10] https://www.e-gov.az/az/news/read/631

[11] https://www.e-gov.az/en/news/read/607

[12] Beynəlxalq Valyuta Fondu, "BVF heyəti missiyasını başa vurub"

[13] Minamata İlkin Qiymətləndirmə Hesabatı

təqdim edilən, qlobal iqlim dəyişmələrinin yumşaldılması üzrə Planlaşdırılan Milli Töhfəsində istixana effekti yaradan qazların emissiyasının 2030-cu ilədək 35% azaldılması qarşıya məqsəd qoyulur (1990-cı ildəki səviyyəyə nisbətdə). Bu öhdəliyi yerinə yetirmək üçün, xüsusilə də əgər dekarbonizasiyanın daha sağlam iqtisadi artım trayektoriyasına qayıdışla müşayiət olunması planlaşdırılırsa və həmçinin, Azərbaycanın əhalisinin davamlı artımını nəzərə alaraq, milli iqtisadiyyatda enerji və karbon intensivliyində əhəmiyyətli azalma tələb olunur.

Bu gün, ölkədə "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017–2020-ci illər üçün Milli Strategiya" icra olunur. Ölkədə mühafizə olunan ərazilərin ölkənin ümumi ərazisində payının 2000-2014-cü illərdə iki dəfə artaraq 5%-dən 10.3%-ə çatdırılması ilə ölkənin biomüxtəliflik resurslarının qorunmasında irəliləyişə nail olunmuş və irimiqyaslı meşəbərpa işləri aparılmışdır. Qeyd olunan dövrdə icra olunmuş meşəsalma və meşəbərpa işləri ilə əlaqədar olaraq, meşə ərazilərinin sahəsi 1 milyon hektarı keçmiş və ölkənin ümumi ərazisində payı 11.4%-dən 11.8%-ə yüksəlmişdir. Hazırda 893 000 hektar torpağı əhatə edən xüsusi mühafizə olunan təbiət ərazilərində 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbii yasaqlığı mövcuddur.

Yeni texnologiyaların və modernizasiya işlərinin tətbiqinin genişləndirilməsi sayəsində iqlim dəyişmələrinin səbəb olduğu hidrometeoroloji hadisələrə nəzarət gücləndirilmiş və avtomatlaşdırılmış müasir meteoroloji stansiyaların sayı 68-ə çatmışdır. Bu isə, ölkədə hidrometeoroloji müşahidənin tam (100%) avtomatlaşdırılması deməkdir. Meteoroloji proqnozların dəqiqlik səviyyəsi isə 94-97%-ə çatdırılmışdır.

Bakıda atmosfer havasının çirklənməsinin fasiləsiz monitorinqini aparmaq üçün üçüncü nəsil avtomatlaşdırılmış stansiyalar kompleksi qurulub və bu şəbəkədə radiasiya, səs-küy, vibrasiya, toz və qazların miqdarının ölçülməsi üçün çoxsaylı avtomatlaşdırılmış qurğulardan istifadə olunur. Transsərhəd ərazilərdə radiasiya fonunun müşahidəsi üçün tam avtomatlaşdırılmış erkən radioloji xəbərdarlıq sistemi quraşdırılıb və burada qəbul edilən informasiya hər yarım saatdan bir müvafiq dövlət orqanlarına ötürülür.

**İnkişaf imkanları**

Azərbaycanın İnsan İnkişafı İndeksinin yüksəlməsi ölkənin Tükiyə və Qazaxıstan kimi ölkələrlə birgə yüksək insan inkişafı qrupuna daxil olmasına imkan vermişdir. Lakin bu göstəricidə bərabərsizlik nəzərə alındıqda, ölkənin sıralamadakı mövqeyi 13.2 faiz geriləyir. Ölkədə qadınların xüsusi zəifliklərini aradan qaldırmaq üçün bir sıra mühüm addımlar atılsa da, dəlillərə əsaslanan məlumatlar göstərir ki, qadınlar hələ də həm dövlət, həm də özəl sektorlarda fərdi, institusional və struktur xarakterli ayrı-seçkiliklə üzləşmə riski altındadır[14].

Azərbaycanın əmək bazarı hələ də tələb və təklif arasında uyğunsuzluq, məşğulluğun yetərli səviyyədə olmaması, gənclər arasında işsizliyin yüksək səviyyədə olması, kövrək və qeyri-formal məşğulluq kimi strukturla bağlı çətinliklər və əmək bazarında regional bərabərsizliklərin olması ilə səciyyələnir[15]. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2016-cı ildə ölkə əhalisinin təxminən yarısının (48%) yaşı 30-dan aşağı olmuşdur; onların dörddə birindən artığını (26%) təkcə 15-29 yaşlı əhali təşkil edib. 2015-ci ildə 15-29 yaşlı gənclər arasında qeydə alınan işsizlik səviyyəsi 9.6% olmaqla, ölkə üzrə orta göstəricidən (5.0%) təqribən 2 dəfə yüksək olmuşdur. Qadınlar arasında işsizlik səviyyəsi milli səviyyədə 5.9% , gənc qadınlar üzrə 11.6% olmaqla, ölkə üzrə orta göstəricilərdən yuxarı olmuşdur. Azərbaycanda əhalinin yaş tərkibində gənclərin üstünlük təşkil etməsi səbəbindən gənclər ölkənin bir çox yerlərində işsizlərin əksəriyyətini təşkil edir və gənclər mühacirətə meyllidir.

Sosial xidmətlərin, xüsusilə təhsil və səhiyyə xidmətlərinin ümumi keyfiyyəti yüksəldilə bilər. Məsələn, sağlamlıq imkanları məhdud uşaqlar üçün

---

[14] 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi Sənədi, s.19

[15] Ben Sley, "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün inteqrasiya, sürətləndirmə və siyasətə dəstək" (MAPS), Missiya Hesabatı, Azərbaycan, 2017

inklüziv təhsil yalnız məhdud sayda uşaqları əhatə edir. BMT-nin məlumatlarına əsasən, qızlar və oğlanlar arasında orta məktəbi yarımçıq tərk etmə səviyyəsi müvafiq olaraq 1.1 faiz və 2.4 faiz olub. Səhiyyə sahəsində, xüsusilə körpələrin və azyaşlı uşaqların sağlamlığı ilə bağlı çətinliklər qalır. Hökumətin məlumatlarına əsasən körpə ölümü göstəricisi hər 1000 diri doğuşa 32.4, 5 yaşadək ölüm səviyyəsi isə hər 1000 diri doğuşa 39.6-dır. Doğum çəkisi aşağı olan yenidoğulmuşlar bütün doğulanların 10.2 faizini təşkil edir. Qadınlar dəmir çatışmazlığı ilə əlaqəli qanazlığı və reproduktiv sağlamlıq xidmətləri ilə bağlı xüsusi çətinliklərlə üzləşir. Ölkədə ümumi tibb müəssisələri şəbəkəsi olsa da, uşaqların əlilliklərinin erkən aşkar edilməsi və qarşısının alınması üçün müasir yanaşmalardan istifadə edilməyib və əlilliyə tibbi yanaşmadan uzaqlaşmaq üçün davamlı səylər tələb olunur. Bundan əlavə, bir çox Avropa ölkələri kimi Azərbaycan da qeyri-infeksion xəstəliklərlə bağlı ortaya çıxan səhiyyə problemləri ilə üzləşir.

Ölkənin insan hüquqları ilə bağlı qoşulduğu beynəlxalq standartlara və hədəflərə tam əməletməni təmin etmək məqsədilə, qlobal öhdəliklərin icrasını, monitorinqini və hesabatını gücləndirmək üçün həm hökumət, həm də qeyri-hökumət orqanlarının texniki imkanlarına və strukturlarına davamlı yatırım tələb olunur.

Azərbaycan xüsusilə şirin su ehtiyatlarının məhdudluğu və Xəzər dənizinin sahilində yerləşməsi ilə əlaqədar olaraq, iqlim dəyişikliklərinə qarşı yüksək dərəcədə həssasdır. Ölkə ərazisinin təqribən 43%-i torpaq eroziyasının təsirinə, 20%-i isə şoranlaşmaya məruz qalır[16]. Torpaqların deqradasiyası Azərbaycanda ən kəskin ekoloji problemlərdən biri olaraq qalır. Həddən artıq otarma, ekstensiv deyil, intensiv kənd təsərrüfatına üstünlük verilməsi ölkədəki otlaq və meşələrə kəskin mənfi təsirlər göstərir.

İnkişaf üçün dəqiq məlumatların olmaması, habelə təsnifatlandırma və təhlillə mane olan məhdudiyyətlər bir çox sektorlarda problem kimi qalmaqdadır. Ümumi monitorinq və qiymətləndirmə potensiallarına dəstək göstərmək və Azərbaycanda daha çox inklusivliyə yönələn, uzunmüddətli planlaşdırma və dəlillərə əsaslanan strategiyalar tərtib etmək üçün keyfiyyətə nəzarət sisteminin qurulmasına və dövlət qulluğunun gücləndirilməsinə xüsusi diqqət tələb olunur.

[16] MAPS hesabatı

# ÜMUMİ MƏLUMAT

**2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi** Azərbaycan Respublikasının [17] iqtisadiyyat naziri Şahin Mustafayev və BMT-nin Rezident Nümayəndəsi Qulam İshaqzai tərəfindən 12 iyul 2016-cı il tarixində imzalanmışdır. Özəl sektorun, vətəndaş cəmiyyətinin və elm ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə Azərbaycan Hökuməti və BMT sistemi arasında yaxın əməkdaşlıq yolu ilə hazırlanmış UNAPF-ın məqsədi Azərbaycanda insanların inkişafı, sülh və bütün insanların rifahı üçün ardıcıl, əlaqələndirilmiş və birgə səylər vasitəsilə ölkənin milli inkişaf proqramını dəstəkləməkdir.

UNAPF milli inkişafa təsiri artırmaq məqsədilə BMT-nin Azərbaycanda fəaliyyət göstərən agentliklərinin mandatlarını, texniki səriştə və təcrübələrini və resurslarını səfərbər etmək üçün strateji platforma kimi çıxış edir. Bu çərçivə sənədi Azərbaycanın **"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında** vurğulanan milli hədəf və prioritetləri, habelə **"Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"** və onu müşayiət edən Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşır. UNAPF-ın icrası və Hökumətin milli inkişaf prioritetlərinə nail olmasına və beynəlxalq öhdəliklərini yerinə yetirməsinə BMT-nin agentliklərinin və Hökumətin müştərək dəstəyi **insan hüquqları və gender bərabərliyi** kimi təməl prinsiplərə əsaslanır.

BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) UNAPF-da əks olunan üç strateji prioritet sahə və beş Nəticə vasitəsilə Hökumətin milli prioritetlərinə müştərək və kompleks dəstək təmin edir. 2017-ci ildə **BMT-nin 12 agentliyi 16 480 777 ABŞ dolları** dəyərində **47 nəticə-məhsulu** əhatə edənməqsədlərə nail olmaq üçün **37-dən artıq hökumət və qeyri-hökumət təşkilatı** ilə əməkdaşlıq edib[18].

2017-ci ilin yanvar ayında Hökumətin yüksək səviyyəli nümayəndələrinin və BMT agentliklərinin rəhbərlərinin iştirakı ilə **UNAPF üzrə İdarəetmə Komitəsinin** ilk yüksək səviyyəli birgə iclası keçirildi. İdarəetmə Komitəsinin vəzifəsi işçi qruplara strateji istiqamət vermək, UNAPF-ın icrasını və strateji nəticələrinin əldə olunmasını izləmək və gözdən keçirməkdir. Bununla yanaşı, **UNAPF-ın hər bir strateji sahəsi üzrə üç Nəticə Qrupu** yaradılıb. Həmin Qruplara Nazirliklər və BMT-nin agentlikləri həmsədrlik edir. Nəticə Qruplarının DİM-lər üzrə dörd milli işçi qrupla birlikdə ilk məsləhətləşmələri 2017-ci ilin may ayında keçirilib. Bu məsləhətləşmələr hər strateji prioritet sahə üzrə illik üç **Müştərək İş Planı**nın hazırlanması ilə nəticələnib. Sözügedən iş planlarında UNAPF-ın strateji nəticələrinə nail olmaq üçün 2017-ci il üzrə tələb olunan məhsullar, konkret tədbirlər və resurslar öz əksini tapıb.

UNAPF-ın İdarəetmə Komitəsinə və üç Nəticə Qrupuna UNAPF-ın icrasının monitorinqi, qiymətləndirilməsi və müvafiq hesabatların verilməsində kömək etmək üçün 2017-ci ildə BMT agentliklərini və Hökumət qurumlarını bir araya gətirən müştərək **Monitorinq və Qiymətləndirmə üzrə İşçi Qrup** bərpa olunub. UNCT-nin planlaşdırma, inzibati idarəetmə və resursların idarə olunması ilə

*25-ci ildönümünə həsr olunmuş xatirə kitabının örtüyü*




[17] Bundan sonra "Azərbaycan" adlanacaq.

[18] Siyahı ilə Əlavə A-da tanış ola bilərsiniz.




*BMT-Azərbaycan tərəfdaşlığının 25 illiyinə həsr olunmuş marka*

bağlı birgə qərarlar vermək yolu ilə müştərək məqsədlərə nailolma istiqamətində səlahiyyətlərini genişləndirmək məqsədilə Rezident Əlaqələndiricinin Ofisinin potensialı nəzərəçarpacaq dərəcədə gücləndirilib.

UNAPF-ın icrasını qiymətləndirmək məqsədilə 2018-ci ilin mart ayında Hökumət və digər maraqlı tərəflərlə məsləhətləşmə çərçivəsində UNCT **Müştərək İllik İcmal** prosesini həyata keçirib. İcmal prosesinin həyata keçirillməsində məqsəd 2017-ci ildə əldə olunmuş nailiyyətləri müəyyən etmək, öyrənilmiş dərsləri təhlil etmək və 2018-ci il üçün prioritetləri müəyyən etmək idi. Hər strateji sahə üzrə üç ayrı iclas keçirilib. İcmalda əsas diqqət

*UNAPF-ın Stratej Prioritet Sahələrinin 2017-ci il ürə icmalı*

| Strateji prioritet sahələr | Nəticə sahələri | Məhsulların sayı | 2017-ci ildə xərclər (ABŞ dolları ilə) | Həmsədr qurumlar |
|---|---|---|---|---|
| **Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi** | **1.1-ci Nəticə:** 2020-ci ilədək Azərbaycan iqtisadiyyatının diversifikasiyası, dayanıqlı artımın və xüsusilə də, gənclər, qadınlar, əlilliyi olan insanlar və digər həssas qruplar üçün məşğulluq imkanlarının genişləndirilməsinə şəraitin yaradılması | 11 | 3 573 216 | BMTİP, İqtisadiyyat Nazirliyi |
| **İnstitusional potensialın gücləndirilməsi, səmərəli dövlət xidmətləri və sosial xidmətlər** | **2.1-ci Nəticə:** 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması | 9 | 4 224 936 | UNİCEF, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| | **2.2-ci Nəticə:** 2020-ci ilədək Azərbaycanın beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olması, beynəlxalq standartlara uyğun tətbiq, monitorinq və hesabat vermə üçün potensialının gücləndirilməsi. | 7 | 8 793 19 | |
| | **2.3-cü Nəticə**: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək edilməsi | 5 | 3 421 410 | |
| **Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması** | 3.1-ci Nəticə: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji | 15 | 4 381 896 | BMTİP, Ekologiya və Təbii Sərvətlər Nazirliui |
| **CƏMİ** | | 47 | 16 480 77 | |

məhsul səviyyəsində əldə olunan irəliləyişin qiymətləndirilməsinə, habelə nəticələrə verilən töhfələrin qiymətləndirilməsinə və 2018-ci il üçün iş planlarının təkmilləşdirilməsinə yetirilib. İcmalda aşkar olunan faktlar və verilən tövsiyələr təsdiq üçün UNAPF-ın İdarəetmə Komitəsinə təqdim olunub. **Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına qoşulmasının** (2 mart 1992) və BMT-nin Azərbaycanda rəsmi fəaliyyətə başlamasının (Noyabr, 1992) **25-ci ildönümü** kimi **iki əlamətdar hadisə**ni qeyd etmək məqsədilə BMT ingilis və azərbaycan dillərində **xatirə kitabı** nəşr etdi. Kitabda BMT-nin Rezident Əlaqələndiricisinin və Azərbaycan Respublikasının xarici işlər nazirinin ön sözləri yer alır. Kitabda ötən 25 ildə BMT-Azərbaycan tərəfdaşlığının müxtəlif aspektlərini əks etdirən 100-dən artıq fotoşəkil və BMT və Azərbaycan rəsmilərindən sitatlar yer alır. Kitabda, həmçinin, 1990-cı illərdə qaçqınlar və məcburi köçkünlərə humanitar yardımın göstərilməsində BMT-nin rolu, habelə Azərbaycanın BMT-nin qlobal və regional fəaliyyətlərində iştirakı, "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliy"in qəbul edilməsi öz əksini tapır. UNCT bu xatirə kitabını 23-27 oktyabr 2017-ci il tarixlərində baş tutan **"BMT həftəsi"**ndə təqdim edib.

2017-ci ilin dekabr ayında BMT tərəfindən qeyd olunan **İnsan Haqları Günü** və Universal İnsan Hüquqları Bəyannaməsinin 70 illiyini qeyd etmək üçün bir illik kampaniyaya start verildi. Kampaniyanın məqsədi Universal Bəyannamənin hər kəsin səlahiyyət və hüquqlarını necə genişləndirməsi ilə bağlı məlumatlılığı yaxşılaşdırmaq və hər bir vətəndaşı insan hüquqlarının müdafiəsinə töhfə verə biləcəyi yollar barədə düşünməyə səsləməkdir. BMT və AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu tərəfindən birgə təşkil edilən açılış tədbiri dövlət orqanlarının, parlamentin, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyətinin, elm ictimaiyyətinin və KİV-in 50-dən artıq nümayəndəsinin iştirakı ilə keçirildi.

Ölkədə kommunikasiya ilə bağlı fəaliyyətlərin səmərəliliyini artırmaq məqsədilə, BMT-nin Kommunikasiya Qrupunun fəaliyyəti canlandırılıb və İnformasiya Məsələləri üzrə Milli Müşavir təyin olunub. Əldə olunan önəmli nailiyyətlərə BMT-nin yerli sosial media kanallarında fəallığının artırılması və **"BMT Azərbaycanda" veb saytının** (https://unazerbaijan.org) yenidən qurulması daxil olub. Yeni veb sayt BMT-nin qlobal simasına uyğun şəkildə tamamilə yenidən dizayn edilmişdir və həm ingilis, həm də azərbaycan dillərində fəaliyyət göstərir. 2018-ci ilin əvvəlində UNCT tərəfindən **müştərək kommunikasiya strategiyası** hazırlanıb və təsdiq olunub. Kommunikasiya ilə bağlı digər fəaliyyətlərə UNCT üzvlərinin Bakı şəhərində və regionlarda yerləşən universitetlərin tələbələri və orta məktəblərin şagirdləri üçün keçirdikləri məlumat sessiyaları və mühazirələr, DİM-lərlə əlaqəli nəşrlərin yayılması və Rezident Əlaqələndiricinin və BMT-nin agentliklərinin rəhbərlərinin yerli telekanallara, informasiya agentliklərinə və onlayn portallara verdikləri müsahibələr daxil olub.

# QISA XÜLASƏ

Bu hesabatda BMT-nin Azərbaycanda fəaliyyət göstərən müxtəlif agentliklərinin 2017-ci il ərzində UNAPF-ın icrası istiqamətində həyata keçirdikləri fəaliyyətlərin nəticələri haqqında ümumiləşdirilmiş məlumat verilir. Hesabatda, həmçinin, əldə olunmuş əsas nailiyyətlər, öyrənilmiş dərslər və ortaya çıxan çətinliklər təsvir edilir.

BMT, qeyri-neft sektorunda **məşğulluq imkanlarının genişləndirilməsi, bacarıqların inkişaf etdirilməsi və işçi qüvvəsinin təhsilinin gücləndirilməsində** Hökumətə dəstək göstərmiş, bu zaman qadınların və həssas vəziyyətdə olan icmaların iqtisadi səlahiyyət və hüquqlarının artırılmasına xüsusi diqqət yetirmişdir. İnsan potensialının gücləndirilməsi sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər gənc və işsiz əhalinin, o cümlədən qadınların biznes bacarıqlarının inkişaf etdirilməsi, habelə əsas peşəkar və təşkilati bacarıqlarla təchiz etməyə kömək etmişdir. Nəticədə onların bir çoxu öz bizneslərini qurmağa və ya iş tapmağa nail olmuşdur.

**Miqrasiya və qaçqınlar** sahəsində, BMT əmək miqrasiyasını və onun daha geniş milli inkişaf siyasəti hədəflərinə daxil edilməsini təşviq edib. Hökumət, həmçinin, sığınacaqların verilməsi ilə bağlı qərarların qəbulunun, habelə qabaqcıl beynəlxalq təcrübələr əsasında qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üçün inteqrasiya prosedurlarının təkmilləşdirilməsi öhdəliyini üzərinə götürmüşdür.

**Kənd təsərrüfatı** sahəsində, BMT təşkilati və texniki potensialın gücləndirilməsi, toxumçuluq və bitkilərin mühafizəsinə dair qanun layihələrinin hazırlanması, torpaqların konsolidasiyası və mikrob əleyhinə mübarizəyə dair milli proqramların hazırlanması vasitəsilə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə töhfə vermişdir. Bitkilərin diaqnostikası, zərərvericilərin və karantin xəstəliklərinin qarşısının alınması, idxal və ixrac olunan bitki və bitki məhsullarına nəzarət prosedurlarına texniki dəstək göstərmişdir. Bundan əlavə, orqanik kənd təsərrüfatının mənimsənilməsi və təbliğinə dair milli strategiyanın hazırlanmasında, eləcə də sertifikatlaşdırma sisteminin hazırlanmasında Hökumətə BMT tərəfindən köməklik göstərilib.

**İnsan hüquqları** sahəsində beynəlxalq standartların yerinə yetirilməsini yaxşılaşdırmaq məqsədilə, Hökumətlə yaxın əməkdaşlıq çərçivəsində BMT, milli qurumların məlumatları toplamaq və təhlil etmək, habelə bu qurumların məlumatlara əsaslanan siyasətlərin hazırlanması potensialının gücləndirilməsində vacib rol oynayıb. Məlumatların toplanması ilə bağlı bir sıra fəaliyyətlər əhalinin həssas təbəqələrinin vəziyyəti barədə keyfiyyətli məlumatların ərsəyə gəlməsi ilə nəticələnib.

Paralel yanaşma vasitəsilə **gender bərabərliyinə** nail olmaq istiqamətində göstərilən səylər artırılmışdır. Gender məsələlərinə daha həssaslıqla yanaşılan proqramların və layihələrin planlaşdırılması və hazırlanmasını təmin etmək məqsədilə siyasət sənədlərində gender bərabərliyinin ön plana çəkilməsi ilə bağlı BMT-nin strategiyasına uyğun olaraq BMT agentliklərində gender məsələlərinin vəziyyətinin qiymətləndirilməsi üçün Birgə Gender Təftişi aparılıb. Ölkədə gender zəminində zorakılığın yayılma səviyyəsi, qadınlar özəl sektorda iqtisadi inkişafına maneələr, gender məsələlərini nəzərə alan proqramların səmərəli icrası, müasir ailə planlaşdırma metodlarının xərcləri və faydaları və s. üçün dəqiq məlumatlar yaratmaq məqsədilə bir sıra mühüm təşəbbüslər həyata keçirilib. Eyni zamanda, gender zəminində zorakılığın və gender əsaslı cinsiyyət seçiminin azaldılması istiqamətində siyasətlərin yaxşılaşdırılması üçün bir sıra təşviqat tədbirləri keçirilib.

BMT-nin agentlikləri Azərbaycanda milli **səhiyyə** sisteminin gücləndirilməsinə yönələn bir sıra layihələrə dəstək göstərib. Buraya immunizasiya sistemlərinin monitorinqi, ölkə miqyasında qeyri-yoluxucu xəstəliklərlə əlaqəli risk amilləri barədə “STEPS”[19] sorğusunun keçirilməsi, unun zənginləşdirilməsi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi, icbari tibbi sığorta sahəsində pilot layihələrin, ana və uşaq sağlamlığı ilə bağlı milli proqramın icrası, habelə reproduktiv sağlamlıqla

[19] Qeyri-yoluxucu xəstəliklərlə əlaqəli risk amilləri üzrə “STEPS” sorğusu - qeyri-yoluxucu xəstəliklərin monitorinqi və onlarla mübarizə məqsədilə öz nəzarət sistemini qurmağa başlayan ölkələrə kömək etmək məqsədi daşıyan sorğu metodologiyasıdır. Əlavə məlumatları buradan əldə edə bilərsiniz: http://www.who.int/ncds/surveillance/steps/en/

bağlı milli strategiyanın layihəsinin hazırlanması daxildir.

**Sosial xidmət**lər sahəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli tərəfdaş QHT-lərlə əməkdaşlıq yolu ilə uşaqlara yönələn və ədalətliliyi diqqət mərkəzində saxlayan Sosial Xidmətlər Strategiyası hazırlanıb. Qeyd olunan strategiya həssas təbəqədən olan və risk altında olan ailələrə rifah yardımı üzrə xidmətlərin və dəstək mexanizmlərinin çeşidliliyini genişləndirir. Dünya Bankının dəstəyilə "Yuvenal ədliyyə haqqında" milli strategiyanın layihəsi hazırlanmış və Ədliyyə Nazirliyinə təqdim edilmişdir. Uşaqların inkişafını ləngidən amillərin erkən aşkarlanması və qarşısının alınması üzrə əhatəli sistemin hazırlanması üzrə işlər görülmüş, poliklinikalarda çalışan pediatrlar üçün uşaq inkişafının monitorinqi sahəsində "Təlimçilərin təlimi" keçirilmişdir. Nəhayət, qərarların qəbulunda və davamlılığın gücləndirilməsində gənclərin fəal iştirakına təkan vermək üçün bir sıra tədbirlər həyata keçirilib.

**Təhsilin** bütün uşaqlar üçün daha inklüziv xarakter daşıması və məktəbəqədər yaşlı uşaqları daha effektli şəkildə cəlb etməsi üçün əhəmiyyətli işlər görülüb. İnklüziv təhsilə istiqamətlənən davamlı təşviqat işləri "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunması ilə nəticələnib.

**Ətraf mühitin** qorunması sahəsində BMT-nin agentlikləri əsas çoxtərəfli sazişlər üzrə hesabat vermə də daxil olmaqla, istixana effekti yaradan qazların emissiyası, karbon axınları və karbon saxlama imkanları üzərində daha yaxşı monitorinqin həyata keçirilməsi, müvafiq təhlillərin aparılması və hesabat vermə istiqamətində Hökumətə texniki dəstək göstərmişdir. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq şəraitində Azərbaycanda bərpaolunan enerjinin gələcəyi ilə bağlı ictimai müzakirələrə təkan verilmişdir. Ölkədə ilk dəfə bərpa olunan enerji mənbələri sektoru ilə bağlı müzakirələrə təkan vermək üçün dövlət siyasəti və qərarların qəbul edilməsi üzrə məsul şəxslər, enerji şirkətləri, QHT-lər, elm ictimaiyyəti və özəl sektor nümayəndələrinin iştirakı ilə dialoqa start verilmişdir.

**Regional səviyyədə** UNCT Azərbaycanın pensiya islahatlarının həyata keçirilməsi sahəsində təcrübəsinin Özbəkistanın Maliyyə Nazirliyi yanında Büdcədənkənar Pensiya Fondunun yüksək səviyyəli heyəti ilə bölüşülməsinə dəstək göstərib. Bununla yanaşı, BMT-nin Gürcüstandakı Ölkə üzrə İdarə Heyətindən (UNCT Gürcüstan) olan həmkarlarla birlikdə hər ilki ölkədən olan küçə uşaqlarının vəziyyətinə dair keyfiyyət yönümlü tədqiqat aparılıb.

# 1. ƏSAS NƏTİCƏLƏR

## Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında irəliləyişi gücləndirmək üçün Hökumətə dəstək




Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrasında irəliləyişi gücləndirmək üçün Hökumətə göstərilən dəstək əsasən texniki və strateji məsləhətlərin verilməsinə, habelə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının (DİMƏŞ) potensialının gücləndirilməsinə yönəlmişdir. 2016-cı ildə yaradılmış DİMƏŞ-in tərkibində iqtisadi, sosial, ekoloji məsələlər və monitorinq və qiymətləndirmə üzrə 4 işçi qrupu fəaliyyət göstərir.

BMTİP-in rəhbərliyi altında BMT sistemi DİMƏŞ-ə və Dövlət Statistika Komitəsinə DİM-lərin milliləşdirilməsi potensialının gücləndirilməsi və strateji məsləhətlərin verilməsi formasında dəstək vermişdir. BMT sistemi DİMƏŞ-ə ilk Könüllü Milli İcmalın hazırlanmasında kömək etmişdir. Bu hesabat BMT-nin 2017-ci ilin iyul ayında Nyu-York şəhərində keçirilən Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Siyasi Forumunda təqdim edilib. DİMƏŞ-in sədri, baş nazirin müavini Əli Əhmədov tərəfindən təmsil olunan Azərbaycan, DİM-in əldə olunması istiqamətində planları və irəliləyişi barədə hesabat verən 43 ölkədən biri oldu.

UNCT, həmçinin, Hökumətə DİM-lərlə bağlı strateji istiqamətləri formalaşdırmaq üçün "İnteqrasiya, Sürətləndirmə və Siyasət dəstəyi" (MAPS) missiyasının həyata keçirilməsində kömək etdi. BMTİP-in rəhbərliyi altında və UNCT-nin iştirakı ilə, ekspertlərdən ibarət qrup 2017-ci ilin may-iyun aylarında Azərbaycana MAPS üzrə missiya həyata keçirdi. Bu missiya UNCT-nin dəstəyi ilə DİMƏŞ tərəfindən 2016-cı ilin noyabr-dekabr aylarında keçirilən Sürətli Kompleks Qiymətləndirmənin nəticələrindən istifadə etdi. Hökumət, vətəndaş cəmiyyəti və özəl sektorla aparılan geniş məsləhətləşmələrdən sonra, missiya mümkün strateji istiqamətləri və tövsiyələri əks etdirən MAPS hesabatının ilkin variantını hazırladı. 2018-ci ilin fevral ayında Bakıda keçirilən MAPS-lə bağlı seminarda hesabat nəzərdən keçirildi.

Bundan əlavə, BMT agentlikləri DİMƏŞ-in fəaliyyətinin birinci ili ərzində onun katibliyinin potensialını gücləndirdi, vətəndaş cəmiyyəti, elm ictimaiyyəti, qadın təşkilatları və parlamentin iştirakı ilə DİM-lərə dair çoxtərəfli strateji məsləhətləşmələrin təşkilində köməklik göstərdi. BMT-nin dəstəyi ilə Hökumət tərəfindən DİM göstəriciləri, o cümlədən gender üzrə dezaqreqasiya olunmuş göstəricilər üzrə Milli İnformasiya Portalının konseptual çərçivəsi və forması hazırlanıb və 2018-ci ilin sonlarında təqdim olunacaq.

İctimai məlumatlılığın artırması və vətəndaş cəmiyyəti, özəl sektor və media qurumlarını cəlb edilməsi məqsədilə UNCT və DİMƏŞ həm də 2017 və 2018-ci illər üçün DİM-lər üzrə Müştərək Təbliğat Kampaniyası hazırlayıb. 2017-ci ildə bir sıra təşviqat və maarifləndirmə fəaliyyətləri üçün təməl işlər görülüb. Buraya "ASAN Radio"da DİM-lərlə bağlı həftəlik bülletenin yayımlanması, həmçinin, DİM-lərin təşviqat materiallatında asan dillə izah olunması, uyğun reklam materiallarının tərtibatı, və ictimai yerlərdə stendlərin və posterlərin yerləşdirilməsi daxildir.

Nəhayət, 30 sentyabr 2017-ci ildə BMT-nin Əhali Fondu tərəfindən Avronest Parlament Assambleyası, Sosial Məsələlər üzrə Komitə, Əhali və İnkişaf üzrə Avropa Parlament Forumu və BMT-nin Azərbaycandakı Nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisində "Səhiyyə və gender: 3-cü və 5-ci Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında Aİ -yə üzv dövlətlərin və "Şərq Tərəfdaşlığı" ölkələrinin Parlamentlərinin vəzifələri və Avropa Parlamentinin rolu" mövzusunda konfrans keçirilib. Konfransa parlamentlərin DİM-lərin icrasında roluna xüsusi nəzər salan sessiyalar daxil olmuş, digər ölkələrlə yanaşı "Şərq tərəfdaşlığı" ölkələrinin nümunələri nəzərdən keçirilmişdir.

## 1-ci strateji prioritet sahә: Artan şaxәlәndirilmә vә layiqli әmәyi özündә ehtiva edәn dayanıqlı vә inklüziv iqtisadi inkişafın tәşviqi

*"Azәrbaycan 2020: gәlәcәyә baxış" İnkişaf Konsepsiyasında müәyyәn olunan mәqsәdlәr: Yüksәk rәqabәtqabiliyyәtli iqtisadiyyata doğru; Bölgәlәrin tarazlı inkişafı; İnsan kapitalının inkişafı; informasiya cәmiyyәtinә keçidin tәmin olunması*

Nәticә 1: 2020-ci ilәdәk Azәrbaycan iqtisadiyyatında şaxәlәnmә dәrinlәşir, dayanıqlı artım sәviyyәsi yüksәlir vә xüsusilә gәnclәr, qadınlar, әlilliyi olan şәxslәr vә digәr hәssas qruplar üçün layiqli iş yerlәri yaradılır

Bu mәqsәdә nail olmaq üçün UNCT Hökumәtin hәm yoxsulları, hәm dә mәşğulluğu ön plana çәkәn inklüziv, bәrabәr vә dayanıqlı artıma manеәsiz keçid hәdәfini hәyata keçirmәkdә dәstәk göstәrib. Bu dәstәk şaxәlәndirilmiş, rәqabәt qabiliyyәtli vә biliklәrә әsaslanan iqtisadiyyat üçün zәruri ilkin şәrtlәrdәn biri kimi, insan kapitalının inkişafına tәkan verәn innovativ tәrәfdaşlıq yanaşmaları tәqdim olunub. UNCT hәm dә işçi qüvvәsinin әn hәssas tәbәqәlәrinin, o cümlәdәn qadınların, gәnclәrin, әlilliyi olan şәxslәrin, qaçqınların, miqrantların vә mәcburi köçkünlәrin bilik vә bacarıqların güclәndirilmәsi, onların resurslara vә maliyyә mexanizmlәrinә çıxışlarının tәmin edilmәsindә mühüm rol oynayıb.




**Qeyri-neft sektorunda bacarıqların inkişaf etdirilmәsi vә mәşğulluq imkanları**

Hökumәtin yüksәk texnologiyalar sektoruna investisiyaların stimullaşdırılması ilә bağlı sәylәrinә dәstәk göstәrmәk, rәqәmsal dövlәt xidmәtlәrinin әlçatanlığını vә onlardan istifadәni artırmaq mәqsәdilә, BMTİP 160 dövlәt qulluqçusuna (75%-i rayonlardan olmaqla) rәqәmsal dövlәt xidmәtlәrinin planlaşdırılması vә idarә edilmәsi, yüksәk texnologiyalar sektoru vә biliklәrә әsaslanan innovativ iqtisadiyyat üçün sәmәrәli investisiya şәraiti vә xüsusi investisiyası qaydaları ilә bağlı ekspert mәslәhәtlәri tәmin edib.

BMT agentliklәri qeyri-neft sektorunda qabaqcıl biliklәrin vә bacarıqların formalaşdırılmasına tәkan vermәk mәqsәdilә әyani tәdris vәsaitlәri vә interaktiv multimedia-nıntәtbiqini әks etdirәn müasir tәlim materiallarının hazırlanmasına kömәk edib. Mәsәlәn, "Pearson" şirkәti tәrәfindәn dәrc olunan turizm vә menecmentlә bağlı әn müasir dәrsliklәrlә tәlim keçmiş vә virtual ekskursiyalar yaratmağa imkan verәn İnterkativ Multimedia proqramını mәnimsәmişAzәrbaycan Turizm vә Menecment Universitetinin (ATMU) 1000-dәn artıq tәlәbәsi әmәk bazarında müqayisәli üstünlük qazanıblar. ATMU-ya hәmçinin turizm tәhsili üzrә beynәlxalq standart olan Dünya Turizm Tәşkilatının TedQual akkreditasiyasına hazırlıqla bağlı dәstәk göstәrilib.

Potensialın güclәndirilmәsi ilә bağlı digәr tәdbirlәr Masallı vә Gәncәdәki Tәhsil vә İnnovasiya Mәrkәzlәri vasitәsilә Azәrbaycanın regionlarını әhatә edib. Hesabat müddәti әrzindә bu regionlarda 132 nәfәr işsiz gәnc (55%-i qadın olmaqla) CV-lәrin hazırlanması, tәqdimat, iş axtarışı, ünsiyyәt, kompüter vә mühasibat bacarıqları ilә bağlı tәlimlәrdә iştirak edib. Onlardan 78-i (59%) artıq iş tapa biliblәr.

**Qadınların iqtisadi sәlahiyyәt vә hüquqlarının artırılması**

Azәrbaycanın regionlarında qadınların iqtisadi sәlahiyyәt vә hüquqlarının artırılmasına dәstәyi davam etdirmәk mәqsәdilә BMTİP tәrәfindәn Qadın Resurs Mәrkәzlәrinә (Masallı, Bilәsuvar, Sabirabad



*Yerli dərzi kimi fəaliyyət göstərən Gülşən Əfəndinin öz biznesini kifayət qədər genişləndirməsinə imkan verməyən əsas amil uzun illər müasir tikiş alətlərinin olmaması olub. Aİ-nin və BMTİP-in dəstəyilə Gülşən hazırda Sabirabadda özünün tam müasir pərdə və yataq ağlarının istehsalı biznesinə rəhbərlik edir.*

Foto: BMTİP-in Azərbaycan nümayəndəliyi



*Neftçalada "Coca Cola" şirkətinin və BMT-nin Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə biznes vərdişləri qazanmış vəöz biznesini qurmaq üçün yardım göstərilmiş beş qadından biri olan Səyyarə Sadıqova*

Foto: BMTİP-in Azərbaycan nümayəndəliyi

və Neftçaladakı Qadın Resurs Mərkəzləri) texniki və maliyyə səriştələrinin artırılması ilə bağlı dəstək göstərilmişdir. Qadın Resurs Mərkəzləri (QRM-lər) kənd yerlərində yaşayan qadınlar üçün müxtəlif təlimlər keçirir və təhsil imkanları yaradır. 2017-ci ildə QRM-lərin sayı Salyanda açılan yeni mərkəzlə birlikdə 5-ə çatmışdır. Bu mərkəzlərdən 4-ü QHT kimi qeydiyyatdan keçib ki, bu da qadınların səlahiyyət və hüquqlarının artırılmasına yerli dəstək göstərməyə imkan verir. QRM- lərin həyata keçirdikləri fəaliyyətlər nəticəsində 909 yerli qadın biznesin qurulması sahəsində təkmilləşib, və təşkilati və ilkin peşəkar bacarıqlarını artırıb. Onlardan 43-ü Neftçala, Salyan, Biləsuvar, Sabirabad və Masallı rayonlarında öz biznesini uğurlu şəkildə qurub. Bundan əlavə, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiya (CEDAW) ilə bağlı öhdəliklərin icrasının monitorinqi üçün vəsait hazırlanıb və mövzu üzrə müvafiq təlimlər keçirilib.

**Normativ-hüquqi bazanın və proqramların təkmilləşdirilməsi**

Məşğulluq xidmətlərinin əhatə dairəsini genişləndirmək məqsədilə, BƏT tərəfindən Hökumətə Milli Məşğulluq Strategiyasının layihəsinin hazırlanmasında dəstək göstərilib və "Əməyin təhlükəsizliyi və sağlamlışdırılması üzrə Milli Strategiya" hazırda Beynəlxalq Əmək Təşkilatının 155 və 187 saylı Konvensiyaları ilə tam uyğunluq təşkil edir. Bununla yanaşı, Dövlət Məşğulluq Xidmətinin gənc əhaliyə keyfiyyətli xidmətlər göstərməsi üçün potensialı gücləndirilib. Xidmətin 240 nəfər işçisi hazırda aktiv məşğulluq proqramlarını hazırlamaq və icra etmək üzrə zəruri bacarıqlarla təmin olunub.

Ərzaq təhlükəsizliyinə gəldikdə, BMT agentlikləri Hökumətə toxumların keyfiyyətinə nəzarət və onların sertifikatlaşdırılması sahəsində institusional və texniki potensialı gücləndirmək üçün dəstək göstərmişdir. "Toxumçuluq haqqında" və "Bitki sortlarının mühafizəsi" haqqında qanunlar yekunlaşdırılaraq Nazirlər Kabinetinə təqdim edilib. FAO Kənd Təsərrüfatı Nazirliyinə "Toxumların



keyfiyyətinə nəzarət və sertifikatlaşdırma haqqında” və “Sınaqların aparılması haqqında” qaydaların yekunlaşdırılmasında yaxından kömək edib.

Kənd Təsərrüfatı Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində “Orqanik kənd təsərrüfatının mənimsənilməsi və təbliğinə dair Milli Strategiya” hazırlanıb, 18 müfəttişə təlim keçirilib və bir sıra Hökumət nümayəndələri orqanik kənd təsərrüfatının mənimsənilməsi və təbliğinə dair qabaqcıl beynəlxalq təcrübəni öyrənib.

2017-ci ildə BMT “Torpaqların konsolidasiyasına dair Milli Strategiya”nın hazırlanmasında Hökumətə dəstək göstərməyə davam edib. Bu dəstək çərçivəsində 600-ə yaxın torpaq mülkiyyətçisi ilə aparılan sorğu əsasında “Torpaq üzərində mülkiyyət xəritəsi”nin və “İcmanın İnkişaf Planı” hazırlanıb.

ÜST Hökumətə 2018-ci ildə təsdiq olunması gözlənilən ilk “Mikrob əleyhinə mübarizə üzrə milli fəaliyyət planı”nın layihəsinin hazırlanmasında dəstək göstərib. 2017-ci ilin fevral ayında çoxtərəfli seminar keçirilib və birgə işçi qrup yaradıllıb.

**Həssas vəziyyətdə olan icmalara dəstək**

2017-ci ildə BMT diqqətdən kənarda qalmaq riski ilə üzləşən qruplara dəstək göstərməyə davam edib. 12 vətəndaş cəmiyyəti təşkilatlarına əhalinin həssas qruplarının cəmiyyətə inteqrasiyası, bərabərlik və sosial-iqtisadi hüquqların təmin olunmasına yönələn icma, rayon və milli səviyyəli layihələrin həyata keçirilməsində dəstək göstərilib. Bu layihələrin icrası nəticəsində 710 məhkuma psixoloji və hüquqi yardım göstərilib, 150-dən artıq məhbus biznesin qurulması və idarə edilməsinin əsaslarını öyrənibvə 90 məhbus cəzaçəkmə müəssisəsinin daxilində və xaricində gəlir əldə etmək üçün yeni bacarıqlar qazanıb. Bundan əlavə, Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzində yaradılmış Yeniyetmələr üçün Ailə Yardım Mərkəzi risk altında olan 153 uşağın ehtiyaclarının qarşılanmasına kömək etmiş və onların ailələrinə dəstək göstərmişdir. Bununla yanaşı, QHT-lərin layihələri çərçivəsində 260 nəfərə (sosial işçilər, hüquqşünaslar, məktəb müəllimləri, səhiyyə işçiləri) əlilliyi olan şəxslərə daha yaxşı xidmətlərin göstərilməsi sahəsində təlimlər keçirilib. BMT-nin həyata keçirdiyi tədbirlər həmçinin sığınacağın verilməsi ilə bağlı qərarların qəbulu prosedurlarının yaxşılaşdırılmasına, qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üzrə vahid inteqrasiya



strategiyasının hazırlanmasına yönəlib. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz tərəfindən, Dövlət Miqrasiya Xidmətinin (DMX) işçi heyətinin və nazirliklərarası işçi qrupun üzvlərinin qaçqınların sosial-iqtisadi və mədəni inteqrasiyası və sığınacaq axtaranlara dəstəyin göstərilməsi ilə bağlı qabaqcıl Aİ təcrübələri barədə maarifləndirilməsinə yönələn Yol Xəritəsi hazırlanıb. Danışıqlar nəticəsində DMX dövlət tərəfindən tanınan qaçqınların əmək bazarına çıxışına kömək etmək və onları VÖEN-lə təmin etmək öhdəliyini üzərinə götürüb. BMqT-nin rəhbərliyi altında vətəndaş cəmiyyəti və hökumətlə aparılan müzakirələrdə əmək miqrasiyasının idarə edilməsi, onun daha geniş strateji hədəflərə daxil edilməsi isə bağlı məsələlərə də diqqət yetirilib.

Azərbaycan Respublikasi Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) əhalinin həssas qruplarının təhlükəsiz yaşayışının təmin edilməsi məqsədilə 93 kvadrat kilometr çirkli ərazinin təmizlənməsində BMTİP-in dəstəyi davam edib. ANAMA-nın həmçinin Minalarla Mübarizə üzrə Beynəlxalq Mərkəz kimi tanınması istiqamətində zəruri sertifikatlaşdırma tədbirlərinin görülməsi üçün potensialı gücləndirilib. Bununla yanaşı, Dağlıq Qarabağ münaqişəsindən zərər çəkən 74 nəfər (22-i qadın olmaqla) öz bizneslərini qurmaq üçün BMqT-dən qrantlar alıb və müvafiq layihələrdən 300-dən artıq qaçqın və məcburi köçkün yararlanıb.

**Müasir və dayanıqlı kənd təsərrüfatı**

Kiçik təsərrüfatların məhsuldarlığını və gəlirlərini artırması məqsədilə, FAO arıçılığın təşviqi və bu sahədə müasir biliklərin və üsulların yayılması üçün Arıçılıq Mərkəzi və Arıçılar Birliyinin potensialını gücləndirib. Arıçılıq təsərrüfatlarının idarə edilməsində yeni üsulların və biliklərin tətbiqi artıq 46 arıçının öz gəlirlərini 5% artırmalarına kömək edib.

Heyvandarlıqda süni mayalandırmanın faydaları barədə maarifləndirmə, 37 yerli süni mayalanma mütəxəssisinin potensialının gücləndirilməsi, və bu sahədə təlim vəsaitinin dərc olunması sayəsində damazlıq sistemlərinin və süni mayalandırma xidmətlərinin keyfiyyəti yaxşılaşdırılıb.
Bundan əlavə, 57 nəfər toxumçuluq mütəxəssisi və texniki işçi bitki sortlarının qeydiyyatı və mühafizəsi barədə ixtisaslaşmış təlim keçmiş, 50 nəfər toxumçuluq mütəxəssisi isə toxumların sınaqdan keçirilməsi üzrə dünya təcrübəsi, həmçinin toxum keyfiyyətinin yaxşılaşdırılması və reproduksiyalı toxumların istehsalının artırılması qaydaları və prosedurları üzrə təlim keçmişdir.

## 2-ci strateji prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər

*“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında müəyyən olunan məqsədlər: Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması; Bölgələrin tarazlı inkişafı; Vətəndaş cəmiyyətinin inkişafı; İnformasiya cəmiyyətinə keçidin təmin edilməsi; Mədəni irsin qorunması və səmərəli idarə edilməsi*

Nəticə 2.1: 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması

Siyasətlərin və xidmətlərin təkmilləşdirilməsi məqsədilə məlumatların və biliklərin toplanması, təhlili və uyğunlaşdırılması sahəsində milli potensialının gücləndirilməsi BMT-nin Azərbaycanda fəaliyyət göstərən bir çox agentliklərinin 2017-ci ildə apardığı işin əsas istiqamətlərindən biri olub. Azərbaycan Hökumətinin tərkibində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması sosial inkişaf sektoru üzrə Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında əldə olunan irəliləyişin daha yaxşı ölçülməsi üçün etibarlı bilik və məlumatların toplanmasına diqqəti daha da artırıb.

**Dəlillərə əsaslanan qərarların qəbulunun təkmilləşdirilməsi**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF-in Gürcüstan nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində küçə uşaqlarının vəziyyəti ilə bağlı regional tədqiqat aparılıb. Dövlət Statistika Komitəsi ilə sıx əməkdaşlıq çərçivəsində UNİCEF tərəfindən Uşaqların Ehtiyaclarına dair Tədqiqatın ikincisihəyata keçirilib və aparılmış iki tədqiqatın nəticələrinin geniş müqayisəli təhlili aparılıb.Qlobal səviyyədə qəbul edilən Uşaqların Funksional Bacarıqlarının Ölçülməsi tədqiqatı yerli kontekstə uyğunlaşdırılıb və 2018-ci ilin əvvəlində icra olunması




gözlənilir. Uşaqlar üzrə Milli Mərkəzi Məlumat Bankına uşaqların daxil edilməsi və müvafiq maraqlı tərəflərdə olan məlumatların avtomatik sinxronlaşdırılması baxımından nəzərəçarpan irəliləyiş əldə olunub.
BMTİP-in İqtisadi İslahatların Təhlil və Kommunikasiya Mərkəzinə metodoloji dəstəyi sayəsində Azərbaycanda vətəndaşlar və media hazırda ildə iki dəfə Hökumət tərəfindən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin icrasının vəziyyəti barədə yenilənmiş məlumatlar əldə edə bilirlər.

Daxili hesabatlılıq, fəaliyyət göstəricilərinin monitorinqi üçün adekvat vasitə təmin etmək, gender zorakılığı sahəsində institusional müdaxilə potensialını yaxşılaşdırmaq üçün Hökumətə gender zorakılığı halları barədə qurumlararası onlayn məlumatlar bazasının hazırlanmasında UNFPA tərəfindən dəstək göstərilib. Məlumatlar bazası müntəzəm şəkildə ölkə boyunca baş verən gender zorakılığı hallarına dair məlumatları toplamaqla yanaşı, müvafiq sahə üzrə dəlillərə əsaslanan qərarların qəbuluna kömək edir.

2017-ci ildə BMTQAK-ın Nağd Yardım Tədbiri moduluna etdiyi dəyişiklik nəticəsində qaçqınların sosial-iqtisadi vəziyyəti ilə bağlı müfəssəl statistik hesabatvermə sistemi tərtib olundu. Bundan əlavə, Nağd Yardım Tədbiri çərçivəsində maliyyə yardımından yararlanan qaçqınların və sığınacaq axtaranların ev təsərrüfatlarına bu tədbirin təsirini ölçmək üçün yardımsonrası monitorinq mexanizmi təqdim olunub.

Geri alınmış Cocuq Mərcanlı kəndində BMTQAK tərəfindən Yaş, Gender və Müxtəlifliyin İnteqrasiyası üzrə Birgə Qiymətləndirmə aparılıb. Qiymətləndirmənin məqsədi boşluqları müəyyən etmək və ünvanlı yardım və müdafiə üçün bütün yaş qruplarından olan əhalinin iştirakını təmin etməkdir. Bu təcrübə eyni yanaşmanın Azərbaycandakı digər məcburi köçkünlərə şamil edilməsinin faydalı ola biləcəyini göstərdi.

Vətəndaşlığı olmayan şəxslərlə bağlı milli qanunvericilik və bu qanunvericiliyin tətbiqində mövcud boşluqların müəyyən edib aradan qaldırması sahəsində əlaqədar qurumların potensialının artırılması sahəsindənəzərəçarpacaq irəliləyişlər əldə olunmuşdur. Dövlət Miqrasiya Xidmətinin və digər dövlət orqanlarının qaçqın statusunun müəyyənləşdirilməsi (xüsusən əraziyə çıxış məsələləri, qaçqınların təqib olunduqları ölkələrə geri göndərilməsinin qarşısının alınması və beynəlxalq hüququn və sığınacağın verilməsi bağlı milli qanunvericiliyin tətbiqinin genişləndirilməsi məsələləri baxımından) üzrə potensialı gücləndirilib.

Azərbaycanda cinsi və reproduktiv insan hüquqları ilə bağlı siyasətlərin və proqramların hazırlanması zamanı ən çox unudulan məsələlərdən biri olan gender münasibətlərinin dinamikasını daha yaxşı təhlil etmək məqsədilə, Kişilər və Gender Bərabərliyi üzrə Beynəlxalq Sorğunun hazırlanması (İMAGES) BMT-nin Əhali Fondunun dəstəyi ilə yekunlaşdırılıb və 2018-ci ildə həyata keçiriləcək. Hökumətin ölkədə əhali yönümlü sosial-iqtisadi siyasət və proqramların düzgün planlaşdırılması, hazırlanması və həyata keçirilməsini təmin etmək səylərinə kömək etmək məqsədilə Azərbaycanın iqtisadi rayonları üzrə 2050-ci ilədək əsaslandırılmış demoqrafik proqnozlar hazırlanıb. Hökumətin milli DİM gündəliyi üzrə daha yaxşı monitorinq aparmaq və hesabat verməklə bağlı ümumi məqsədinə töhfə vermək üçün gender üzrə bölünmüş 15 yeni göstərici hazırlanıb və əhali üzrə milli məlumatlar bazasına inteqrasiya edilib. Genderlə əlaqəli 310 göstəricini əks etdirən Gender Statistikası İndeksinin 3-cü versiyası yaradılıb və Dövlət Statistika Komitəsinin veb saytında yerləşdirilib. Gender zorakılığının yayılma səviyyəsi və qadınlar üçün problemlərin həlli strategiyaları üzrə milli səviyyədə reprezentativ sorğu vasitəsilə Hökumətə həmçinin gender zorakılığı ilə bağlı daha çox dəlillərin yaradılmasında dəstək göstərilib. Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Statistika Komitəsinin analitik və statistik şöbələrinin əməkdaşlarına kənd təsərrüfatı sahəsində monitorinq, qiymətləndirmə

və modelləşdirmə üzrə təlimlər keçirilmiş, ən çox istifadə olunan modellər (CAPRI, PSE, AGMEMOD) təqdim olunmuşdur. FAO Hökumətə CountrySTAT (http://azerbaijan.countrystat.org) platformasının uğurla istifadəyə verilməsində dəstək göstərib. Ərzaq və kənd təsərrüfatına dair bu veb əsaslı məlumat sistemi tədqiqatçılar, dövlət siyasəti üzrə məsul şəxslər və inkişaf sahəsində fəaliyyət göstərən təşkilatlar üçün keyfiyyətli statistik məlumatlara asan çıxış imkanı təmin edir.

**Dövlət qurumlarının potensialının gücləndirilməsi**

Kompleks sərhəd idarəçiliyi ilə bağlı prooqramların icrası üçün institusional potensialın gücləndirilməsi məqsədilə, BMTİP kompleks sərhəd idarəçiliyinə dair strategiyanın hazırlanmasına, Gürcüstan və Azərbaycanın sərhəd orqanları arasında əlaqələndirmə mexanizminin və Sərhəd Nümayəndələri üzrə Sazişin təşviqinə dəstək göstərmişdir. Sərhəd və gömrük orqanlarının 170-ə yaxın əməkdaşı sərhəd mühafizəsi ilə bağlı məsələlər və sanitar, fitosanitar, baytarlıq və ərzaq təhlükəsizliyi üzrə nəzarət tədbirləri ilə bağlı təlim keçmişdir. Bundan əlavə, sərhədə nəzarəti və sənədlərin yoxlanmasını, işlənməsini təkmilləşdirmək üçün müvafiq qurumlara dəstək göstərilib.

İnsan alveri qurbanlarının, habelə miqrasiyaya cəlb olunmuş şəxslərin mühafizəsini təmin etmək üçün, BMqT Dövlət Miqrasiya Xidmətinə çoxillik miqrasiya idarəçiliyi strategiyasının hazırlanmasında texniki dəstək göstərib. Sənəd 2018-ci ildə yekunlaşdırılacaq. Hal-hazırda Miqrasiya İdarəçiliyi üzrə İşçi Qrup tərəfindən təhlil olunmaqda olan, miqrasiya, sərhəd idarəçiliyi və əmək miqrasiyası ilə bağlı 12 qiymətləndirmə hesabatında əks olunan tövsiyələrin konkret strateji fəaliyyətlərə çevriləcəyi gözlənilir. Hökumətə həmçinin Qlobal Miqrasiya Müqaviləsi barədə altı milli məsləhələşmənin aparılmasında və miqrasiya və sərhəd idarəçiliyi sahəsində potensialın gücləndirilməsində dəstək göstərilib. Miqrasiyanın Azərbaycanın iqtisadi inkişafına təsiri qiymətləndirilib və Hökumət hazırda hesabatda verilən tövsiyələri yerinə yetirmək üçün yol xəritəsi hazırlamağı nəzərdən keçirir. Miqrasiyanın idarə edilməsi ilə bağlı innovativ elektron xidmətlərin, o cümlədən elektron sənədləşmənin, elektron ödənişlərin, vahid biometrik və vətəndaşlıq üzrə məlumatlar bazasının tətbiqində nəzərəçarpan irəliləyiş əldə olunub.




Miqrasiya böhranları zamanı vətəndaşlara kömək göstərilməsində Azərbaycanın konsulluq işçilərinə yardım etmək üçün üç sənəd hazırlanıb və onların tətbiqi ilə bağlı təlim keçirilib. Bununla yanaşı, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi üçün xaricdə böhranların təsirinə məruz qalmış vətəndaşlara yardımın yaxşılaşdırılmasına dair onlayn kurs proqramı və DMX və digər qurumlar üçün Azərbaycanda böhranların təsirinə məruz qalmış xarici vətəndaşlara yardımın yaxşılaşdırılmasına dair onlayn kurs proqramı hazırlanıb.

İnsan alverinin qarşısının alınması və təhlükəsiz miqrasiya ilə bağlı "Məktəblərdə Maarilənd irmə Komplekti" nəşr olunub və bunun davamı olaraq, Qusar, Quba və Xaçmazda 500 şagirdi əhatə etməklə insan alverinə qarşı mübarizəyə dair maarifləndirmə tədbirləri keçirilib.

BMTİP-in dəstəyilə Dövlət İdarəçilik Akademiyasında Avropa standartları əsasında yaradılmış Təlim Mərkəzi 500 dövlət qulluqçusuna strateji idarəetmə, qərarların qəbulu, liderlik bacarıqları, monitorinq və qiymətləndirmə və DİM-lərlə bağlı mövzularda təlimlər keçirir.

**Cənub-Cənub Əməkdaşlığı**

Cənub-Cənub Əməkdaşlığı çərçivəsində Özbəkistanın Maliyyə Nazirliyinin Büdcədənkənar Pensiya Fondunun ekspertlərinin Azərbaycana təlim səfərinin həyata keçirilməsinə BMTİP dəstək göstərmişdir. Səfərin məqsədi Azərbaycanın pensiya sistemi, islahatları, Fondun gəlirlərinin və xərclərinin proqnozlaşdırılmasında müasir ekonometrik modelləşdirmə alətlərinin tətbiqi sahəsində

təcrübəsini öyrənmək idi. Səfərdə pensiya təminatı, xidmətlər, ödəniş və əlaqələndirmə mexanizmlərinin əhatə dairəsi və keyfiyyətinə xüsusi diqqət yetirilib.

Nəticə 2.2: 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi

**Həssas vəziyyətdə olan icmaların vəziyyətinin birgə monitorinqi**

İşlərin idarə edilməsi və göndərişlər üzrə milli elektron sistemin hazırlanması, qeyri-dövlət müəssisələrinin ölkədə uşaq hüquqları sahəsində vəziyyətin monitorinqi üçün əsas və köməkçi məlumatları təhlil etmək bacarıqlarının yaxşılaşdırılmasında əhəmiyyətli irəliləyişə nail olunub. UNİCEF-in dəstəyilə ilk dəfə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə və Uşaqlara Dəstək Mərkəzləri üçün İnkişafın Qiymətləndirilməsi Aləti (SİB-R) komponentinə malik olan İnformasiya İdarəetmə Sistemi (İİS) yaradılmışdır. Bu sistem mərkəzlərdə qeydiyyata alınmış hər uşaq üzrə real vaxt rejimində icra hesabatlarını qəbul etməyə, uşaqların işlərini idarə etməyə və izləməyə, eləcə də onların vəziyyəti barədə hesabatlar yaratmağa imkan verir. Hazırda sınaqdan keçirilməkdə olan sistemin ölkədəki bütün 11 mərkəzdə tətbiq olunması gözlənilir. Məlumatların toplanması, monitorinq səfərlərinin, qaynar xəttə edilən zənglərin və uşaqların şikayətlərinin təhlili və idarə edilməsi prosesinin yaxşılaşdırılması məqsədi ilə Ombudsmanın Milli Preventiv Qrup üçün İnformasiya İdarəetmə Sistemi (İİS) yaradılıb. Milli Preventiv Qrupu ilə birlikdə saxlanma yerlərinin və uşaq müəssisələrinin monitorinqi davam etdirilib.
Qaçqınların, məcburi köçkünlərin və vətəndaşlığı olmayan şəxslərin vəziyyətinin monitorinqini aparmaq üçün BMTQAK-ın dəstəyilə müstəqil milli monitorinq mexanizmləri yaradılıb. Eyni zamanda, Ekologiya və Təbii Sərvətlər Nazirliyi FAO-nun texniki yardımı ilə Meşə Resursları üzrə İnformasiya İdarəetmə Sisteminin yaradılması üzrə işlərə başlayıb.

**Gender bərabərliyi və reproduktiv hüquqların yaxşılaşdırılması**



*Əlilliyi olan şəxslərlə işləyən yerli vətəndaş cəmiyyəti təşkilatı ilə insan hüquqları sahəsində fokus qrupu müzakirəsi*

Foto: BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Azərbaycan Nümayəndəliyi

Gender bərabərliyinə dair Milli Fəaliyyət Planının hazırlanması, gender zorakılığı ilə bağlı milli qanunvericiliyin təhlili, gender zorakılığının qarşısının alınması və cavab tədbirlərinə dair Milli Fəaliyyət Planına yenidən baxılması və yekunlaşdırılması, gender zorakılığının qarşısının alınması və cavab tədbirlərinin qurumlararası əlaqələndirilməsi və monitorinq mexanizminə dair təlimatların hazırlanmasında BMT sistemi Hökumətə dəstək göstərib.

Bir sıra BMT agentlikləri və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşlığı çərçivəsində "Gender zorakılığına qarşı 16 günlük fəallıq" adlı uğurlu kampaniya təşkil olundu. Kampaniya çərçivəsində BMT agentliklərinin rəhbərləri, dövlət qurumlarının rəhbərləri, donor icmasının nümayəndələrinin 16 video müraciəti sosial media vasitəsilə yayılmış, 16 məşhur şəxsi (kişilər) əks etdirən bilbordlar Bakıda və regionlarda qurulmuş, gender zorakılığına etiraz etməyə səsləyən velosiped yürüşü, ictimai müzakirələr və qadın sığınacağına birgə səfər təşkil olunub. Ölkə boyunca 11 "ASAN xidmət" mərkəzinə gələnlərə gender zorakılığından müdafiə mexanizmləri və gender zorakılığının müxtəlif formaları barədə məlumatları əks etdirən 6 000 broşür paylanıb.

Normativ-hüquqi və stratehi bazanın yaxşılaşdırılması məqsədilə dəlillərə əsaslanan təşviqat üçün məlumatların yaradılması, gender zorakılığının qarşısının alınması və ondan müdafiə sahəsində milli institusional potensialın



*"Gender zorakılığına qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində UNFPA tərəfindən təşkil olunan velosiped yürüşü. 25 noyabr 2017*

Foto: BMT-nin Əhali Fondu

gücləndirilməsi və uşaqların gender əsasında seçilməsinin qısamüddətli və uzunmüddətli fəsadları barədə maarifləndirmə yolu ilə gender əsasında cinsiyyət seçimi məsələsinə diqqət yetirilmişdir. Bundan əlavə, dini liderlərin, yerli icma rəhbərlərinin, gənclərin, məşhurların və media təmsilçilərinin iştirakı ilə qızlardan daha çox oğlanlara üstünlük verilməsi ənənəsinə qarşı dair milli təbliğat kampaniyası keçirilmişdir.

Ailə planlaşdırma xidmətlərini təşviq etmək üçün aparılmış 12 maarifləndirmə kampaniyasının məqsədi ailə planlaşdırma xidmətləri üzrə yeni qəbul edilmiş protokollar üçün institutsional çərçivəni təkmilləşdirmək və ölkədə ailə planlaşdırma konsepsiyasının fəaliyyətə daxil edilməsini təmin etməkdir.

Beynəlxalq standartlara uyğunlaşdırılmış milli kompleks cinsi təhsil proqramını olmadığından, Təhsil Nazirliyi və İctimai Səhiyyə və İslahatlar Mərkəzinə Kompleks Cinsi Təhsil planının orta məktəblərin təhsil proqramlarına uyğunlaşdırılmasında UNFPA tərəfindən dəstək göstərilib. Yeni tədris proqramında 6-9-cu siniflər üçün "Sağlam həyat tərzi" qeyri-icbari fənn kimi təklif olunub. Hal-hazırda, Minimum İlkin XidmətPaketi [20] proqramı Azərbaycanın ərazisinin

[20] UNFPA "Minimum İlkin Xidmət Paketi nədir?", Aprel 2015, bax https://www.unfpa.org/resources/what-minimum-initial-service-package



*Atalar qızlarının saçını necə yığmağı öyrənir. Foto oğlan uşaqlarına üstünlük verilməsinin qarşısının alınması və fəal atalığı təşviq edən "Atalar və qızlar" festivalında çəkilib.*

Foto: BMT-nin Əhali Fondu

yarısını əhatə edib. Gender zorakılığı qurbanlarının daha yaxşı müəyyən edilməsi, müayinəsi və yardım, monitorinq və davamlı nəzarətin yaxşılaşdırılması üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində olan Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin potensialı gücləndirilib.

Yeni milli Reproduktiv Sağlamlıq Strategiyasının hazırlanmasına dəstək göstərilib. Bu məqsədlə milli məsləhətləşmələr və çoxtərəfli seminarlar keçirilib və nəticədə yeni strategiyanın yekun layihəsi ilin sonuna qədər baxılması üçün Hökumətə təqdim edilib.

**İnsan hüquqlarının müdafiəsi üzrə milli mexanizmlərin inkişaf etdirilməsi**

İnsan hüquqları ilə bağlı beynəlxalq standartlara uyğun olaraq, milli maraqlı tərəflər arasında xüsusilə həssas və əlverişsiz vəziyyətdə olan qruplar üçün milli hüquq müdafiə sistemlərindən istifadənin təşviqi və genişləndiirlməsi BMT-nin Azərbaycandakı fəaliyyətinin əsas istiqamətlərindən biridir. Əhalinin həssas qruplarının üzvlərinin ədalət mühakiməsinə çıxışının genişləndirilməsi həm həssas qrupların insan hüquqlarının, həm də beynəlxalq hüquq müdafiə mexanizmlərinə əsasən götürülən öhdəliklərin yerinə yetirilməsi üçün vacibdir. 121 ərizəçi, o cümlədən həssas təbəqədən olan 60 qadın və 61 kişi (əlilliyi olan şəxslər, aztəminatlı ailələr, qaçqın və məcburi köçkünlər, təqaüdçülər və işsizlər) 2017-ci ildə BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığı tərəfindən yaradılmış Resurs Mərkəzinin təqdim etdiyi pulsuz hüquqi xidmətlərdən istifadə etmişdir. Mərkəz həmçinin əhalini, xüsusilə həssas qrupları öz hüquqları barədə və hüquq pozuntularının səmərəli şəkildə aradan qaldırılması yolları barədə maarifləndirir. Azərbaycan Respublikasının Milli İnsan Hüquqları İnstitutunun (Ombudsman) regional idarələri ilə əməkdaşlıq çərçivəsində, Quba, Gəncə və Cəlilabad rayonlarında və ətraf rayonlarda yaşayan həssas təbəqədən olan insanlara həmin regionlarda pulsuz hüquqi xidmətlər təmin edilmişdir. Bu fəaliyyət əhalinin həssas qruplarının sosial müdafiə, əmək, mülkiyyət və mənzil təminatı, eləcə də istehlak hüquqları ilə bağlı üzləşdikləri maneələri aradan qaldırmağa kömək edib.

30 vətəndaş cəmiyyəti nümayəndəsi və hüquqşünas BMT-nin insan hüquqları ilə bağlı sənəd və mexanizmləri barədə məlumatlılığın artırılmasına yönələn fokus qrupu müzakirələrində iştirak edib. "İqtisadi, sosial və mədəni hüquqları haqqında" Beynəlxalq Pakt və "Əlilliyi olan insanların hüquqları haqqında" Konvensiya kimi BMT sazişlərinə xüsusi diqqət yetirilib. Fokus qrupu müzakirələrində iştirakçılar Azərbaycan tərəfindən ratifikasiya olunmuş sazişlərin icrasında əldə olunan irəliləyişlə bağlı milli məlumatların təqdim olunmasında onların iştirakı üçün zəruri olan praktiki məlumatlar və tövsiyələrlə təmin olunub.

Ədliyyə Akademiyasının məhkəmə sisteminin işçilərinə insan alveri ilə bağlı təlimlər keçməsi və Beynəlxalq Miqrasiya Hüququ Proqramının kurrikulumunu hazırlaması üçün potensialı gücləndirilib.

2017-ci ildə 10 rayonda 980 uşaq pulsuz hüquqi yardım xidmətləri proqramından faydalanıb. Əhalinin həssas qruplarına pulsuz hüquqi yardım təmin etmək məqsədilə Bakıda yaradılmış Hüquqi Yardım Mərkəzi 171 nəfərin sosial hüquqlar, şikayət prosedurları və müdafiə mexanizmləri barədə məlumatlılığını artırıb.

"Yuvenal ədliyyə haqqında Milli Strategiya"nın layihəsi yekunlaşdırılıb Ədliyyə Nazirliyinə təqdim edilmişdir. Bakı Ağır Cinayətlər Məhkəməsinin işi müşahidə edilib və yetkinlik yaşına çatmayanlara dair xidmətlər və prosedurların yaxşılaşdırılması ilə bağlı tövsiyələr verilib.

Qaçqınların, sığınacaq axtaranların, məcburi köçkünlərin və vətəndaşlığı olmayan şəxslərin sığınacaqların verilməsi ilə bağlı prosedurlara, öz

sosial və iqtisadi hüqularına çıxış imkanını təmin etmək, habelə onları öz hüquq və səlahiyyətləri barədə maarifləndirmək üçün onlara pulsuz hüquqi məsləhətlər verilib. Sığınacağın verilməsi ilə bağlı dövlət orqanı daxilində pulsuz hüquqi yardım mexanizmlərinin yaradılması da təşviq edilib.

### Nəticə 2.3. 2020-ci ilədək keyfiyyətli dövlət xidmətlərinin və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək edilməsi



*Uşaqlar Sumqayıtda keçirilən 3-cü Uşaq Paralimpiya İdman Oyunlarında "Boccia" oynayırlar*

Foto: UNICEF/Solhi/2017

2017-ci ildə BMT agentlikləri bərabər və əlçatan müdafiə, təhsil, səhiyyə və qidalanma xidmətlərinin ehtiyacı olanlara, o cümlədən analara, körpələrəuşaqlara, gənclərə və yeniyetmələrə, xüsusən də ən zəiflərə və insan alveri qurbanlarına çatdırılmasına kömək etmək istiqamətində fəaliyyət göstəriblər.

Milli immunizasiya sisteminə, habelə sıravi tibb işçiləri üçün peyvəndlərin təhlükəsizliyi və əks göstərişləri, peyvəndlərə nəzarət sahəsində qabaqcıl təcrübələrin institusionallaşdırılması üçün potensialın gücləndirilməsi tədbirlərinə dəstək göstərilmişdir. Eyni zamanda, BMT "Qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair" Strategiya və onun fəaliyyət planının icrasına dəstək göstərib. 2016-cı ildə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" yeni qanun qəbul edildikdən sonra, İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə birlikdə bir sıra birgə təlim və maarifləndirmə tədbirləri keçirilib.

Görmə və eşitmə problemləri olan şəxslərin həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədilə, seçilmiş şəhər və kənd icmalarında 2297 nəfər məcburi köçkün optometrist (görmənin müayinəsi) xidmətləri, 2736 eynək və 35 ədəd eşitmə cihazı ilə təmin olunub.

Ana və uşaq sağlamlığı üzrə milli proqramın icrasına texniki və ekspert dəstəyi göstərilib. Ölkə boyunca keçirilən seminar və təlimlər vasitəsilə ana ölümlərinin qarşısının alınması üçün Kritik Vəziyyətlərin (doğuş zamanı ananın kritik vəziyyətdə olması) Təhlilinin tətbiqinə başlanılıb. Bundan əlavə, Hökumətin Azərbaycanın iki regionunda icbari tibbi sığorta sistemini pilot qaydada həyata keçirməsi üçün texniki dəstək göstərilib.

Azərbaycanda ümumilikdə ibtidai təhsilə qəbul səviyyəsi yüksək olsa da, təhsili daha inklüziv etmək üçün səylər göstərilib. UNİCEF-in dəstəyilə Təhsil Nazirliyi tərəfindən Bakıda dörd məktəbdə sınaqdan keçirilən İnklüziv Təhsil modeli sağlamlıq imkanları məhdud olan 40 uşağa tədris mövsümü ərzində təhsil almaq imkanı verib. Sağlamlıq imkanları məhdud uşaqlara qarşı qınaq və ayrı-seçkiliyin azaldılması üçün maarifləndirmə strategiyasının hazırlanmasına və inklüziv təhsil üçün əlverişli mühitin yaradılmasına dəstək göstərmək məqsədilə "Sağlamlıq imkanları məhdud uşaqlara dair bilik və yanaşmalar" mövzusunda tədqiqat aparılıb.

Məktəbəqədər və ibtidai məktəb müəllimlərinin davamlı peşəkar inkişafına dəstək göstərmək məqsədilə, müəllim hazırlığı sistemlərinə daxil ediləcək altı təlim modulu və qiymətləndirmə aləti hazırlanıb. Məktəb rəhbərliyi üçün peşəkar standartlar və təlim modulları,idarəetmə, təşkilati bacarıqlar, ünsiyyət,, qiymətləndirmə, və məlumatların təhlili ilə bağlı inkişaf ehtiyaclarını əhatə etmək üçün yenilənmişdir. 167 məktəbdə Su, Sanitariya və Gigiyena (SSG) göstəriciləri ilə bağlı cari vəziyyəti qiymətləndirmək üçün SSG ilə bağlı tədqiqat aparılmışdır. Səhiyyə Nazirliyinin qidalanma ilə bağlı tədbirlər planı hazırlamasına dəstək göstərilib. Qadınlar arasında dəmir çatışmazlığı ilə əlaqəli qanazlığı səviyyəsini azaltmaq üçün görülən




UNİCEF-in Milli Paralimpiya Komitəsi ilə birlikdə " İdman hamı üçündür" şüarı altında 1 iyun Uşaqların Milli Müdafiəsi gününə həsr olunmuş tədbirində Komitənin uşaq üzvləri müxtəlif idman növlərini nümayiş etdirirlər

Foto: UNICEF / Holder / 2017

işlər çərçivəsində, "Unun zənginləşdirilməsi haqqında" qanun layihəsinin hazırlanmasında Səhiyyə Nazirliyinə dəstək göstərilmişdir. Qanun layihəsi hazırda nəzərdən keçirilir və 2018-ci ildə müzakirə üçün Milli Məclisə təqdim olunacaq. Müstəsna olaraq ana südü ilə qidalanmanın təşviqinə yönələn maarifləndirmə strategiyasına dəstək göstərilib. Ana südü ilə Qidalanma Həftəsi çərçivəsində Səhiyyə Nazirliyi ilə birlikdə təşkil olunmuş irimiqyaslı maarifləndirmə tədbirləri 550 000 nəfəri əhatə edib.

BMT sistemi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə "Uşaqların müdafiəsi sistemlərində uşaqlarla və ailələrlə sosial iş üzrə təlimatlar"ın layihəsinin və "Ədliyyə sistemində uşaqlarla və ailələrlə sosial iş üzrə təlimatlar"ın layihəsinin hazırlanmasında köməklik göstərib. Qanunla ziddiyyətli hallarda olan və ya bu risklə üzləşən uşaqlar arasında zəifliklərin aradan qaldırılmasını təmin etmək üçün sosial iş sektoru ilə ədliyyə sektoru arasında, o cümlədən Nazirliklər arasında əlaqələri gücləndirmək zəruri hesab edilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli tərəfdaş QHT-lərə uşaqlara yönələn və ədalətliliyi diqqət mərkəzində saxlayan Sosial Xidmətlər Strategiyasının layihəsinin hazırlanmasında dəstək göstərilib. Bu strategiya hazırkı sosial rifah yardımını həssas təbəqədən olan və risk altında olan ailələrə daha geniş çeşidli xidmət və dəstək mexanizmləri təmin etmək üçün genişləndirir.

Səhiyyə sahəsində, tibb işçiləri (əsasən pediatrlar) üçün körpə və azyaşlı uşaqların qidalanması üzrə təlim paketinin hazırlanmasına dəstək göstərilib. Bu təlim paketi Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun təhsil proqramına daxil edilmişdir. 177 pediatr (13%) körpə və azyaşlı uşaqların qidalanması ilə bağlı təlimlərdə iştirak etmişdir. Uşaqların sağlamlıq imkanlarının məhdudluğunun erkən aşkarlanması və qarşısının

alınması üzrə əhatəli sistemin hazırlanması istiqamətində işlər görülmüş, poliklinikalarda çalışan pediatrlar üçün uşaq inkişafının monitorinqi sahəsində "Təlimçilərin təlimi" keçirilmiş, bu təlimlərdə 210 pediatr iştirak etmişdir.
BMTİP-in yardımı ilə Şirvan və Göyçayda yerləşən 4 bələdiyyə üçün əlverişsiz vəziyyətdə olan uşaqlar və gənclərə göstərilən sosial xidmətləri yaxşılaşdırmaq üçün ikiillik strateji inkişaf planı hazırlanıb. Nəticədə, aztəminatlı ailələlərdən olan 3692 nəfər bu rayonlarda icra olunan sosial xidmət layihələrindən faydalanıb.

UNCT əlilliyi olan şəxslərin, qadınların qərarvermə proseslərində iştirakı, ayrı-seçkiliyin olmaması və bərabərliklə bağlı məsələlərin 2017-ci ildə milli televiziya proqramlarında müntəzəm şəkildə işıqlandırılmasını təmin edib.

2017-ci ildə 5 yaşlı uşaqlar üçün məktəbəhazırlıq proqramı genişlənməyə davam etmiş və nəticədə qəbul səviyyəsi 65%-ə çatmış, fəaliyyət göstərən 3244 ibtidai məktəb müəllimi üçün iş başında təlim keçirilmişdir. Ölkənin 11 rayonunda kifayət qədər xidmətlərlə təmin olunmayan 50 icmada ailə təhsili proqramının və 3-4 yaşlı uşaqlar üçün icma əsaslı erkən təhsil proqramının hazırlanması və pilot şəkildə sınaqdan keçirilməsində Təhsil Nazirliyinə UNİCEF tərəfindən dəstək göstərilib. 3-4 yaşlı 1000-ə yaxın uşaq icma əsaslı erkən təhsil proqramına yazılıb.

BMT əhalinin üçdə bir hissəsini təşkil edən gənc əhaliyə investisiyanı da diqqət mərkəzində saxlamışdır. Hökumətin idarə etdiyi mövcud Gənclər Evləri şəbəkəsi vasitəsilə gəncləri həyati bacarıqların inkişaf etdirilməsində dəstəkləmək məqsədilə uyğunlaşdırılmış proqram hazırlanmışdır. Pilot proqram gənclər üçün əlverişli ilkin və ixtisaslaşdırılmış xidmətlərdən ibarət kompleks paket təqdim edir. Pilot proqram Mingəçevirdə və Binəqədi rayonunda icra edilir və 2018-ci ildə digər ərazilərlə yayılması gözlənilir.

Dağlıq Qarabaq münaqişəsindən zərər çəkmiş üç rayonda davamlılığın gücləndirilməsi və qərarların qəbulunda yeniyetmələrin və gənclərin iştirakını təşviq etmək üçün Azərbaycan Gənclərinin Təşviqat Proqramı yenidən canlandırılmışdır. Bu proqram 60 nəfər gəncə yerli rayon dövlət orqanları ilə birlikdə icma əsaslı layihələrin hazırlanmasında iştirak etmək imkanı vermişdir.

Qeydiyyat prosesinə dəstək göstərməklə və davamiyyəti və irəliləyişi monitorinq etməklə, qaçqın ailələrindən olan uşaqların təhsil müəssisələrinə çıxışının təmin edilməsi istiqamətində səylər davam etdirilmişdir (2017-ci ildə qaçqın ailələrindən olan 13 uşaq məktəbəqədər müəssisələrdə yerləşdirilib). Qaçqınların sağlamlıq hüquqlarının təşviqi, xüsusilə ixtisaslaşmış səhiyyə xidmətlərinə çıxış imkanı ilə bağlı fəaliyyətlər davam etdirilmişdir. Dövlət tərəfindən tanınan 67 qaçqının və müvəqqəti yaşayış icazəsinə malik olan 159 qaçqın dövlət səhiyyə xidmətlərinə, sosial proqramlara çıxış imkanı ilə təmin olunub və işləmək hüququna malikdir. Hökumətin bu hüquqların icrasını daha geniş şəkildə təmin etməsi istiqamətində işlər davam etdirilir və BMTQAK proqramlarında iştirak edən insanların 80 faizi BMT QAK vəsaiti hesabına səhiyyə xidmətlərindən faydalanmışdır.

Benefisiarların ehtiyaclarına uyğun olaraq, BMTQAK-ın Qaçqın Qadınlar və Gənclər Mərkəzində qaçqınların və sığınacaq axtaranların inkişafına və inteqrasiyasına yönələn bir sıra kurslar təklif olunur.

## 3-cü strateji prioritet sahə: Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi və risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması

*"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən olunan məqsədlər: Ətraf mühitin qorunması və ekologiya məsələləri; Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; İnsan kapitalının inkişafı*

Nəticə 3.1: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi

**İstixana qazlarının emissiyasının monitorinqi, təhlili, hesabatvermə və siyasətin uyğunlaşdırılması**

BMTİP Hökumətə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) üzrə İkinci İkiillik Hesabat və Dördüncü Milli Məlumatın, o cümlədən 9 sektor üzrə istixana effekti yaradan qazların inventarlaşdırılmasında dəstək göstərib. Buraya iqlim dəyişmələrinin yumşaldılmasına yönələn siyasətlər və tədbirlərə dair senarilərin hazırlanması və ölkədaxili ölçmə, hesabatvermə və yoxlama sisteminin, strateji çərçivənin və texniki-iqtisadi əsaslandırma tədqiqatının hazırlanması daxildir. Bundan əlavə, ölkənin İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin 2006-cı il təlimatlarından istifadə etmək potensialınınaraşdırılması,, İkinci İkiillik Yenilənmə Hesabatı üçün 2013-cü il üzrə istixana effekti yaradan qazların emissiyasına dair məlumatların toplanması dəstək verilmişdir. istiqamətində. Bununla yanaşı, iqlim dəyişmələrinin yumşaldılmasına yönələn siyasət və tədbirlərə dair hesabatın yenilənməsi və yerli Ölçmə, Hesabatvermə və Yoxlama sisteminin yaradılmasına qarşılıqlı əməkdaşlıq nəticəsimdə baş tutmuşdur.



5 binada enerjidən səmərəli istifadə sisteminin qurulması 46% enerji qənaətinə və karbon emissiyasının illik 130 ton azalmasına imkan verib




Eko-sürücülük üzrə pilot təlimlər nətiəsində yanacaq sərfiyyatı 8-14% azalıb

BMT-nin Avropa İqtisadi Komissiyası Hökumətə enerji ilə əlaqəli dayanıqlı inkişaf məqsədlərinin icrası üçün məlumatların toplanması və monitorinqin aparılması üzrə milli potensialın gücləndirilməsi, habelə qabaqcıl beynəlxalq təcrübələr əsasında dayanıqlı enerji sahəsində milli fəaliyyət planlarının hazırlanması üçün dəstək göstərib. Spesifik olaraq, Strateji Ekoloji Qiymətləndirmənin (SEK) praktiki tətbiqi ilə bağlı milli təlimatlar və qanun layihəsinə dair tövsiyələr hazırlanıb. İnformativ İnventarlaşdırma Hesabatının hazırlanması və "Böyük məsafələrdə transsərhəd hava çirkləndirilməsi haqqında" Konvensiyanın tələblərinə uyğun olaraq atmosfer tullantılarının invetarlaşdırılmasının dəqiqliyinin və tamlığının təkmilləşdirilməsi sahəsində milli ekspertlərin potensialının gücləndirilməsinə dəstək göstərilmişdir. Eyni zamanda, Azərbaycanda bərpaolunan enerjinin gələcəyi ilə bağlı siyasətlərin və qərarların formalaşdırılmasına məsul olan orqanlar, enerji şirkətləri, QHT-lər, elm ictimaiyyəti və özəl sektordan olan nümayəndələr arasında müzakirələr təşkil olunmuşdur. Nəticədə bərpaolunan enerji sahəsinə sərmayələrin stimullaşdırılması və rentabelli layihələr üçün mühitin yaxşılaşdırılması üzrə konkret tövsiyələr hazırlanmışdır.

Paralel olaraq, Azərbaycanda Milli Enerji Günündə "Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafı üçün yeni imkanlar" mövzusunda dialoq ölkədə ilk belə tədbir olmuşdur. Siyasətlərin və qərarların formalaşdırılması üzrə məsul orqanların, investorların, texnoloji təchizatçıların və QHT-lərin, habelə beynəlxalq donorlar və maliyyə institutlarının

40-dan artıq nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə investisiyaları artırmağa, həmçinin layihələrin rentabelliyini, prosedurların sadələşdirilməsini və layihələrin hazırlanmasında xərclərin azaldılmasını yaxşılaşdırmağa imkan verən hüquqi, normativ, texniki və maliyyə xarakterli tövsiyələr müzakirə edilib.

SOCAR-a məxsus beş binada BMTİP-in dəstəyilə səmərəli enerji istifadəsi sistemi yaradılmışdır. Bu, 46% enerji qənaətinə və karbon emissiyasının illik 130 ton həcmində azalmasına səbəb olmuşdur. Analoji olaraq, eko-sürücülük üzrə pilot təlimlər nətiəsində yanacaq sərfi heç bir investisiya xərcləri olmadan 8-14% azalmışdır.

**Dayanıqlı ekoloji inkişaf üçün milli potensialın gücləndirilməsi**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə davam edən əməkdaşlıq çərçivəsində Qızılağac Milli Parkının yaradılması və ziyarətçi axınının idarə edilməsi, brokonyerlərə qarşı nəzarətin həyata keçirilməsi və torpaqların həddən artıq otarılma hallarından qorunması məqsədi ilə idarəetmə potensialının və infrastrukturunun gücləndirilməsi ilə bağlı tədbirlər həyhata keçirilib. Bu tədbirlər nəticəsində qanunsuz otarılma halları 2015-2017-ci illərdə 705-dən 400-ə düşmüşdür. Mühafizə olunan sahilyanı ərazilər və dəniz qoruq əraziləri üzrə maliyyə idarəetməsi planı hazırlanıb və planın icra edilmkəsi üçün potensial gücləndirilib. Nəhayət, ekosistemlərin sağlamlığı baxımından kritik normalara nəzarət etmək üçün monitorinq avadanlıqları alınıb.




Torpaqların deqradasiyası və iqlimin yarada biləcəyi təhlükələrin nəticələri ilə mübarizə apara bilmələri məqsədi ilə həssas vəziyyətdə olan icmaların dayanıqlılığı artırılmışdır. Bunun üçün meşələrin və təsərrüfat üçün istifadə edilən otlaqların idarə olunması üzrə planlar hazırlanmış, nəticədə iki rayonun ərazisində yerləşən 20000 ha meşə sahələrində və 7900 ha otlaq sahələrində meşələrin və torpaqların idarə edilməsində dayanıqlı təcrübələrin tətbiqinə başlanılıb. Kənd icmalarının heyvandarlıq təsərrüfatından asılılığını azaltmaq üçün təqribən yarısı qadın olmaqla 160 nəfəri əhatə edən alternativ gəlir mənbələri yaradılıb.



*Azərbaycanın kənd yerlərində kənd təsərrüfatı təyinatlı torpaqların heyvandarlıq üçün həddən artıq istifadəsini azaltmaq məqsədilə BMTİP yerli icmalara arıçılıq kimi alternativ gəlir mənbələri təklif edir.*

Foto: *BMTİP Azərbaycan, Andrea Eqan*

Daşqınların proqnozlaşdırılması və xəbərdarlıq tədbirlərinin dəstəklənməsi məqsədilə, BMTİP-in dəstəyilə hidroloji və hidravlik modellərin tətbiqi yolu ilə 10 ədəd meteoroloji stansiyanın quraşdırılması, daşqınlara qarşı icma əsaslı erkən xəbərdarlıq sisteminin yaradılması yolu ilə Su Ehtiyatları üzrə Dövlət Agentliyinin potensialı gücləndirilib. 48 000 nəfər əhalisi olan 10 icma artıq fövqəladə hallara qarşı cavab tədbirləri üçün vasitələrə və risk xəritələrinə malikdir.

UNİCEF Fəlakət Risklərinin Azaldılması (DRR) moduluna malik olan "Həyati bacarıqlar" proqramının qeyri-formal təhsil sisteminə daxil edilməsində Təhsil Nazirliyinə və Fövqəladə Hallar Nazirliyinə dəstək göstərib. Proqramın ilkin mərhələsində 1500 uşaq əhatə olunub. Təhsil Nazirliyi "Həyati bacarıqlar" proqramının gələcəkdə ölkədəki digər məktəbdənkənar müəssisələrə doğru genişləndirilməsini nəzərdən keçirir. Azərbaycan Dövlət Pedaqoji Universitetində Fəlakət Riskinin Azaldılması kursu üzrə yeni kurrikulum və fənn proqramı hazırlanaraq ilə Təhsil Nazirliyinə təqdim

olunub. Fəlakət Riskinin Qiymətləndirilməsi metodologiyası üzrə konkret bir halın təhlili aparılmış və bu metodologiyanın milli səviyyədə istifadəsi ilə bağlı tövsiyələr verilmişdir.

## 2. ÖYRƏNİLMİŞ DƏRSLƏR:

**1-ci strateji prioritet sahə: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi**

Mövcud qanunvericiliyinin təkmilləşdirilməsi üçün BMT agentliklərinin daha uzunmüddətli əməkdaşlığı, mütəşəkkilmaarifləndirmə işlərininaparması, həmçinin yerli tərəfdaşların marağı, qətiyyəti və fəal iştirakı tələb olunur.

Kənd təsərrüfatı sektorunda həyata keçirilən dəstək tədbirlərinin nəticələrinin əldə olunmasına bir çox amillər, əsasən, mövsümi faktorlar və hava şəraiti təsir edir. Fermerlərin ənənəvi düşüncə tərzi və etimadın olmaması səbəbindən kənd təssərüfatına müasir üsulların tətbiqində müqavimətə rast gəlinir.

Sosial sektora daha çox diqqət yetirilməsini və resursların ayrılmasını təmin etmək üçün qeyri-neft sektoruna daxil olan 11 prioritet sahədə iqtisadi islahatlara dair yeni strateji yol xəritəsi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" və DİM-lərlə uzlaşdırılmalıdır.

**2-ci strateji prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər**

Biliklər və məlumatlar sahəsində mövcud əsas məhdudiyyətlərdən biri BMT-nin bu sahədə çalışan bir sıra qurumları tərəfindən təsdiq edilmişdir. Ötən onillik ərzində Azərbaycan siyahıyaalma sorğuları, demoqrafik və tematik sorğular və inzibati reyestrlər (məsələn, ölüm və doğuşun qeydiyyatı sistemləri) vasitəsilə etibarlı məlumatların əldə olunmasında nəzərəçarpan irəliləyişə nail olmuşdur. Bununla belə, əsaslandırılmış, dəlillərə əsaslanan siyasətlərin hazırlanmasına kömək etmək üçün, toplanmış məlumatların təhlili və istifadəsi ilə bağlı hələ çox iş görülməlidir. Digər sahələrdə olduğu kimi, kadr və institusional potensialda boşluqlar bir çox sahələrdə irəliləyişi məhdudlaşdırmağa davam edib. İl ərzində müəyyən olunmuş narahatlıq doğuran önəmli məsələlərdən biri reproduktiv sağlamlığın və gender zorakılığının insan hüquqları ilə bağlı aspektlərinin başa düşülməsi və dəyərləndirilməsinin stimullaşdırılması ilə bağlı olub. Ailə planlaşdırması və reproduktiv sağlamlıq proqramlarının tətbiqi maneələrlə müşayiət olunub. Bu maneələr əhalinin sayının azalacağı ilə bağlı miflər, səhiyyə sistemində abortların həyata keçirilməsində maliyyə maraqlarının olması və cəmiyyətdə gender zəminində zorakılıq və reproduktiv sağlamlıq məsələlərinə münasibətlə bağlı olmuşdur. Reproduktiv sağlamlıq və gender hüquqları sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları və icma səviyyəli tərəfdaşların davamlı çatışmazlığı bu problemi daha da kəskinləşdirir.

Keyfiyyətli dövlət və sosial xidmətlərin göstərilməsi sahəsində il ərzində müəyyən edilən maneələr yenə də əsasən texniki potensiala və siyasətlə bağlı məhdudiyyətlərə aid olmuş, həmçinin, bəzi təbəqələr üçün səhiyyə və təhsil sektorlarında ixtisaslaşdırılmış xidmətlərin əlçatmazlığı olmuşdur.

**3-cü strateji prioritet sahə: Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi və risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması**

Milli inkişaf strategiyasında ətraf mühit bölmələr şəklində yerləşdirilməyə davam edir. Ekoloji dayanıqlıq məsələsinə vahid yanaşmanın tətbiqi məqsədi ilə geniş maarifləndirmə tədbirlərinin görülməsi və müxtəlif əlaqədar nazirliklərin cəlb olunması mühüm əhəmiyyət daşıyır.

Həm daxili, həm də xarici səviyyədə məhdud maliyyələşmə imkanları bu sahə üzrə proqramların genişləndirilməsinə əngəl yaradır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası "yaşıl inkişaf"ı təşviq etsə də, Azərbaycanın siyasət sənədlərində dayanıqlı inkişafın ətraf mühit/yaşıl iqtisadiyyatla bağlı elementləri kifayət qədər əks olunmur, bu xüsusilə son nəticə səviyyəsində nəzərə çarpır. Müvafiq sektorlararası asılılıqlar fonunda enerji subsidiyaları, su üzrə qiymətqoyma və sudan səmərəli istifadə, eləcə də karbon vergiləri xüsusi əhəmiyyətə malik ola bilər [21].

[21] MAPS missiyasının hesabatı, səh.14

# 3. SONRAKI FƏALİYYƏTLƏR

2018-ci ilin mart ayında aparılan Müştərək İllik İcmalda gəlinən nəticələr və verilən tövsiyələr, həmçinin 2018-ci il üzrə Müştərək İş Planları 2018-ci ilin iyun ayında UNAPF üzrə İdarəetmə Komitəsi tərəfindən təsdiqləndi. Planlar müvafiq BMT və Hökumət qurumlarının nümayəndələri tərəfindən imzalandı.

2016-2020-ci illər üzrə hazırkı UNAPF sənədinin icra müddətinin yarısının geridə qalması UNCT-ə gələcək fəaliyyətlər üçün yeni istiqamət təmin etmək və UNAPF-ı cari milli inkişaf prioritetləri və DİM-lərlə daha yaxından uzlaşdırmaq üçün aralıq icmal prosesini həyata keçirmək imkanı verir. UNCT həmçinin BMT İnkişaf Sistemində aparılan islahat barədə Hökuməti və inkişaf sahəsində tərəfdaşları müntəzəm məlumatlandırmaqla, öz fəaliyyətlərini BMT-nin Baş Katibinin BMT İslahat Gündəliyinə uyğunlaşdırmağa çalışacaq.

Qarşıdakı ildə resursların müştərək şəkildə səfərbər edilməsinə dair strategiyanın hazırlanması UNCT üçün yüksək prioritet daşıyır. Buraya birgə proqramlar üçün yerli fondun yaradılmasının mümkünlüyünün tədqiqi də daxildir. Bu, BMT-nin məhdud resurslarının təsirini maksimuma çatdırmaq və UNAPF-ın strateji prioritet sahələrində müəyyən edilmiş nəticələrin əldə olunmasını təmin etmək üçün vacibdir. Bu baxımdan, BMT və hökumət DİM-lərin maliyyələşdirilməsini prioritetləşdirməlidir. Buraya rəsmi inkişafa yardım və özəl kapital axınlarının cəlb edilməsi daxildir.

Bununla yanaşı, BMT-nin Gənclər üzrə Məşvərət Şurası ilə daha yaxın əməkdaşlıq və BMT-Hökumət Müştərək Gənclər Evləri Təşəbbüsünün genişləndirilməsi vasitəsilə gənclərlə işin aparılmasına xüsusi diqqət yetirilməyə davam ediləcək.

2030-cu il Gündəliyinin milliləşdirilməsi istiqamətində nəzərəçarpan irəliləyişin əldə olunduğunu nəzərə alaraq, 2018-ci il Azərbaycan üçün Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında irəliləyiş baxımından növbəti vacib bir il olacaq. “DİM-lərin milli səviyyədə inteqrasiyası və onların icrasının sürətləndirilməsinə dair Bakı Prinsipləri” əsasında Azərbaycanda DİM-lərin milli səviyyədə icrasına dəstək göstərən konkret tədbirlər planlarının irəli sürülməsi gözlənilir. Bu, həmçinin, Azərbaycanın 2018-ci ilin sonlarında Bakıda BMT-nn dəstəyilə keçiriləcək hökumətlərarası Regional DİM Forumuna töhfələrindən biri olacaq. Bundan əlavə, UNCT 2030-cu il Gündəliyi barədə ictimai məlumatlılığı artırmaq üçün birgə təşviqat səylərini davam etdirəcək və “heç kəsi kənarda qoymamaq” prinsipini yerinə yetirmək istiqamətində səyləri artıracaq.

Nəhayət, Universal İnsan Hüquqları Bəyannaməsinin 70-ci ildönümü insan hüquqlarının və digər BMT sistemi dəyərlərinin, standartlarının və prinsiplərinin təşviqinin UNCT-nin gündəliyində üst sıralarda olmasını təmin etmək üçün ideal fürsətdir.

## Əlavə A: Tərəfdaşların siyahısı

### Milli icraçı tərəfdaşlar

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik
Azərbaycan Qızıl Aypara Cəmiyyəti
Azərbaycan Turizm və Menecment Universiteti
Qara Dəniz Komissiyası
Nazirlər Kabineti
Ədliyyə Akademiyası
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
Kənd Təsərrüfatı Nazirliyi
Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
Mədəniyyət və Turizm Nazirliyi
Ekologiya və Təbii Sərvətlər Nazirliyi
İqtisadiyyat Nazirliyi
Təhsil Nazirliyi
Fövqəladə Hallar Nazirliyi
Energetika Nazirliyi
Maliyyə Nazirliyi
Xarici İşlər Nazirliyi
Səhiyyə Nazirliyi

Daxili İşlər Nazirliyi
Ədliyyə Nazirliyi
Ədliyyə Nazirliyi
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
Nəqliyyat Nazirliyi
Gənclər və İdman Nazirliyi
Qeyri-hökumət təşkilatları
Ombudsman Aparatı
Parlament
“Bioloji müxtəliflik haqqında” Konvensiyanın katibliyi
Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
Dövlət Sərhəd Xidməti
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi
Dövlət Miqrasiya Xidməti
Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
Dövlət Statistika Komitəsi

### İştirak edən BMT təşkilatları, fondları və proqramları

| | |
|---|---|
| FAO | BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| BMqT | Beynəlxalq Miqrasiya Təşkilatı |
| BMT İHAK | BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı |
| BMTİP | BMT-nin İnkişaf Proqramı |
| UNECE | BMT-nin Avropa İqtisadi Komissiyası |
| UNEP | BMT-nin Ətraf Mühit Proqramı |
| UNFPA | BMT-nin Əhali Fondu |
| BMTQAK | BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı |
| UNİCEF | BMT-nin Uşaq Fondu |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |

## Qoşma A: 2017-ci il üzrə müştərək iş planlarının icrasında irəliləyiş

BMT agentlikləri 2017-ci il üzrə Müştərək İş Planlarında əks olunan məhsul göstəricilərinə əsasən hesabat vermişdir. Bunun üçün rəngli kombinasiyalardan istifadə edərək göstəricilər üzrə əldə etdikləri cari irəliləyişi onlar cədvəl şəklində əks etdiriblər: Yaşıl rəng - "Nail olunub", sarı rəng - "Qismən nail olunub", narıncı rəng - "Məhdud" və qırmızı rəng - "Nail olunmayıb". Uzlaşmanı təmin etmək üçün agentliklər bəzi agentliklərin ilkin Müştərək İş Planlarında çoxillik hədəflər təyin etdiklərini nəzərə alaraq, 2017-ci il üzrə göstəricilərini uyğunlaşdırıblar.
BMT agentlikləri həmçinin göstəricilərin vəziyyəti barədə mənzərəni tam əks etdirmək üçün əldə olunan əsas nəticələrin, öyrənilmiş dərslərin, ortaya çıxan maneələrin qısa təsvirini nəqli formada təmin ediblər.

## Qoşma B: Maliyyə icmalı

İllik Vahid Büdcə Çərçivəsinə planlaşdırılan büdcəyə nəzərən xərclərlə bağlı ən son büdcə məlumatları daxil edilib. İmzalanmış Müştərək İş Planlarında göstərilən büdcə məlumatları ilə agentliklərin faktiki illik büdcələri arasında fərqlər olduğu hallarda, artıq/az xərclənən vəsaitlə bağlı agentliklər tərəfindən izahat qeydləri əlavə olunub.

**Qoşma A 2017-ci ilin Müştərək İş Planları üzrə nəticələr**

| BMT institutu | Göstəricilər | Baza göstəricisi | Hədəf | Yoxlama vasitələri | Nəticənin qiymətləndirilməsi (tam, qismən, irəliləyiş yoxdur,çox az irəliləyiş müşahidə olunmuşdur) | Göstəricinin dəyəri | Dəlil mənbəyi | Əsas nailiyyətlər | Dəyişikliklər/öyrənilmiş dərslər |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Strateji Prioritet Sahə 1. Şaxələndirilmənin artırılmasını və layiqli iş yerlərini özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi** | | | | | | | | | |
| **Nəticə 1.1 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmnə dərinləşir, dayanıqlı artım şəviyyəsi yüksəlir və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerləri yaradılır** | | | | | | | | | |
| BMTİP, BMTƏF, UNICEF, BƏT, OHCHR, ƏKT, IFAD, UNIDO, UNCTAD, UNECE, UNEP, YUNESKO, DB | 1) ÜDM-in qeyri-neft sektorunda orta illik artım səviyyəsi.<br>2) Qlobal Rəqabətlilik İndeksi Balı.<br>3)Cinsə və yaşa görə qruplaşdırılmış işsizlik səviyyəsi. | 1)7%<br>2) 4.53 (2014)<br>3) Əhali: 4.9%<br>Kişilər: 4.0%<br>Qadınlar: 5.8%<br>Gənclər (15-29): 9.7% | 1) 7% (2020) (14)<br>2) 4.7 (2020)<br>3) Əhali: 4.9%<br>Kişilər: 4.0%<br>Qadınlar: 5.7%<br>Gənclər (15-29): 9.5% | 1)İqtisadiyyat Nazirliyi<br>2)Dünya İqtisadi Forumu<br>3)Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | | 1) 2.5 % (2017)<br>2)4.7(2017)<br>3)Əhali:5<br>Kişilər: 4.2%<br>Qadınlar: 6%<br>Gənclər (15-29): 9.4 % (2016) | 1)İqtisadiyyat Nazirliyi<br>2)Dünya İqtisadi Forumu<br>3)Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | | |
| **Məhsul 1.1.1 Qaçqınlar/vətəndaşlığı olmayan şəxslər üçün məşğulluq və ləyaqətli işin əlçatan olması.** | | | | | | | | | |
| BMTQAK | Dövlət Məşğulluq mərkəzləri tərəfindən qeydiyyata alınmış qaçqınların/vətəndaşlığı olmayan şəxslərin sayı.<br><br>Müntəzəm şəkildə işlə təmin olunan qaçqınların/vətəndaşlığı olmayan şəxslərin sayı. | 0 | Hədəf: 20 (2018)<br>Hədəf: 10 (2018) | Hökumət və BMT mənbələrinin hesabatları, ayrı-ayrı benefisiarların rəyləri | **çox az irəliləyiş müşahidə olunmuşdur** | 1. 1 BMTQAK tərəfindən qeydiyyata alınmış qaçqın uşaq Dövlət Məşğulluq Mərkəzi tərəfindən dövlət sertifikatlaşdırılmış peşə təlimi kursuna cəlb edilmək məqsədilə qeydiyyata alınmışdır<br><br>2. Müntəzəm şəkildə işə götürülən qaçqınlara/vətəndaşlığı olmayan şəxslərə dair etibarlı məlumatların olmaması<br><br>Dövlət Miqrasiya Xidməti dövlət tərəfindən tanınan qaçqınlar üçün əmək bazarına çıxışı asanlaşdırmağa və VÖEN almağa dair öhdəlik götürmüşdür. Bir nəfər qaçqın uşaq peşə təlimində iştirak etmək üçün BMTQAK-ın Məşğulluq ofisi tərəfindən qeydiyyata alınmışdır. | İclas protokolları; tədbirlərin hesabatları | 1. BMTQAK Azərbaycanın ICMPD-nin MOBİLAZE layihəsi ilə birgə 29-30 may 2017-ci il tarixlərində Azərbaycanın Bakı şəhərində Qaçqınların inteqrasiyası mövzusunda seminar təşkil etmişdir. Seminar həmçinin MOBILAZE layihəsinin sığınacaq verilməsinə dair qərar qəbuletmə prosedurunun təkmilləşdirilməsi ilə bağlı olan 4-cü komponenti ilə əlaqələndirilmişdir. Seminara milli təcrübəni paylaşmaq, həmçinin Polşa və Slovakiya Respublikası kimi inkişaf etmiş ölkələrin təcrübəsindən öyrənmək məqsədilə, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın Statusunun Müəyyənləşdirilməsi Departamentinin heyəti və Qaçqınların sosial-iqtisadi və mədəni inteqrasiyası üzrə Nazirliklərarası işçi qrupun üzvləri dəvət olunmuşlar. Bu iki ölkədən dəvət edilmiş beynəlxalq ekspertlər Aİ üzvü olan dövlətlərin qaçqınların inteqrasiyası, mövcud prosedur və qaydalar, proqram və siyasətlərə dair bilik və təcrübəsini bölüşmüşlər. Seminar zamanı razılaşdırılmışdır ki, DMS tələb olunduğu halda, dövlət tərəfindən tanınmış qaçqınların problemləri ilə hər bir iş üzrə ayrı-ayrılıqda məşğul olsun. Həmçinin bu nəticəyə gəlinmişdir ki, qaçqınların ölkəyə maneəsiz inteqrasiyası üçün milli inteqrasiya strategiyasının hazırlanması sahəsində əlavə işlərin görülməsinə ehtiyac vardır.<br>2. İnteqrasiyaya dair Seminardan sonra BMTQAK və ICMPD inteqrasiya sahəsində mövcud milli praktikanın təhlilinin aparılması və Qaçqınların Azərbaycana intqrasiyasına dair yol xəritəsi hazırlanması təşəbbüsü ilə çıxış etmişlər. Bu məqsədlə dəvət edilmiş beynəlxalq ekspertlər bütün müvafiq dövlət orqanları ilə görüşməyə nail olmuşlar və Yol xəritəsinin ikin layihəsini hazırlamışlar. Layihə hazırda BMTQAK və ICMPS tərəfindən baxılmaqdadır və tədbirlərin 2018-ci ildə davam etdirilməsi məqsədilə, hökumətlə müzakirə ediləcək.<br>3. QHT-lərə Dəstək Dövlət Şurasının maliyyələşdirdiyi "Qaçqınların və vətəndaşlığı olmayan şəxslərin inteqrasiyası" layihəsi çərçivəsində Hayat beynəlxalq QHT-si tərəfindən silsilə toplantılar təşkil edilmiş və bir sıra nəşrlər dərc edilmişdir. BMTQAK-ın heyəti bütün müzakirələrdə iştirak etmişdir. Toplantılar əmək bazarına çıxış, sosial hüquqlardan istifadə imkanı, ölkədəki qaçqınların hüquqi statusu kimi mövzulara həsr olunmuşdur. Dövlət və qeyri-dövlət təşkilatlarının, eləcə də biznes sektorunun nümayəndələrinin iştirak etdiyi ictimai müzakirələr zamanı həmçinin qaçqınlarla bağlı digər müdafiə məsələlərinə toxunulmuşdur. Layihənin Koordinatoru Dövlət Miqrasiya Xidmətindəki İctimai Şuranın sədridir ki, bu da onun qaçqınların inteqrasiyası ilə bağlı məsələləri dövlət strukturları ilə fəal şəkildə dəstəkləməsinə daha çox imkan yaradır. BMT QAK-ın məqsədi inteqrasiya ilə əlaqədar bütün məsələləri koordinasiya etmək və müxtəlif qurumların bir-birinin işinin tamamlayacağı vahid inteqrasiya strategiyasının hazırlanmasına kömək etməkdir. | |
| **Məhsul 1.1.2. İqtisadiyyatın qeyri-neft sektorları üçün bacarıqlı işçi qüvvəsi hazırlamaq məqsədilə, dövlət qurumlarının təlim potensialının gücləndirilməsi** | | | | | | | | | |
| BMTİP | Göstərici 1.1.1: Hazırlanmış yeni təlim modullarının sayı<br><br>Göstərici 1.1.2<br>Təlim proqramlarından faydalanan insanların (gənclər, qadınlar, əlilliyi olan şəxslər) sayı | Baza göstəricisi: 0<br>Baza göstəricisi: 0 | Hədəf: 5<br>Hədəf: 250, cinslərin nisbəti 40/60; ən azı 80%-i 30 yaşından aşağı, ən azı 5%-i əlilliyi olan şəxs | Layihənin gedişatına dair hesabatlar | | 5<br><br>132 gənc (55% qadın)<br>909 qadın | SAHİBKARLIQ VƏ MƏŞĞULLUQ MƏQSƏDİLƏ İQTİSADİ GÜCLƏNDİRMƏ (E4) LAYİHƏNİN_Gedişatına dair Rüblük hesabat _İyul – sentyabr 2017<br><br>RÜBLÜK TƏSVİRİ HESABAT-Vətəndaş cəmiyyətinin gender bərabərliyi və qadın hüquqlarının inkişaf etdirilməsi sahəsində daha geniş rol oynamasının mümkünləşdirilməsi_July-September 2017 | Gəncə Syslab Mərkəzi 5 işsiz gənclər qrupu (cəmi 73 gənc) üçün təlim keçmişdir. Onlardan 68%-i qadınlar olmuşdur.<br>Masallı Syslab Mərkəzi 5 işsiz gənclər qrupu (cəmi 59 gənc) üçün təlim keçmişdir. Onlardan 39%-i qadınlar olmuşdur.<br>• Salyanda Yeni Qadın Resurs Mərkəzi yaradılmışdır<br>• Neftçala rayonunda 6 icma layihəsi həyata keçirilmişdir<br>• Biləsuvar, Neftçala, Sabirabad və Masallıda tərcümeyi-hal hazırlanması, təqdimat, iş axtarma və ünsiyyət bacarıqları, kompyuter bacarıqları və mühasibat bacarıqlarına dair təlim keçilmişdir. 909 nəfəri əhatə etmişdir<br>• Masallı və Biləsuvarda 100-dən artıq qadın əmək yarmarkasında iştirak etmişdir və təqribən 20 şəxs (5 kişi) işlə təmin olunmuşdur<br>• WRC koordinatorlarının və (və ya) fəal WRC üzvlərinin icma əsaslı qadın ...dair təcrübələri öyrənməsi məqsədilə, tədqiqat turu<br>• 2 Buklet: Azərbaycanda qadınların iqtisadi və sosial hüquqları və İqtisadi gücləndirmənin 10 yolu adlı bukletlər dərc olunmuşdur.<br>• CEDAW Konvensiyası çərçivəsində götürülmüş öhdəliklərin yerinə yetirilməsinin monitorinqinə dair vasitələr və alternativ CEDAW hesabatının hazırlanmasına dair qaydalar hazırlanmışdır<br>• Müasir dərs kitabları və təlimatlar satın alınmış və ATMU-ya verilmişdir<br>• Hazırlanmış qaydalar üçün interaktiv multimedia ayarı (laboratoriya yaradılması məqsədilə)<br>• UNWTO Themis Fondunun məsləhətçisi tərəfindən ATMU-nun ilkin auditi. Hesabat ATMU-ya təqdim edilmişdir. | • Nazirlik tərəfindən vəsaitlərin köçürülməsində gecikmə səbəbindən, ATMU heyəti üçün tədqiqat turu və təlimlər 2018-ci ildə keçiriləcək |
| **Məhsul 1.1.3 Kiçik və orta biznesi dəstəkləyən dövlət orqanlarının idarəetmə bacarıqları artırılmışdır** | | | | | | | | | |
| BMTİP | Göstərici 1.2.1: Biznesə başlamasına dəstək göstərilmiş gənclərin sayı, cinslərə görə qruplaşdırılmış | Baza göstəricisi: 25 (onlardan 12%-i gənc qadınlardır) | Hədəf: 40, ən azı 25%-i qadınlar olmaqla (2020) | Layihənin gedişatına dair hesabatlar | **tam** | 78 gənc (təqribən 51% qadın) yeni iş yerləri tapmışdır;<br>48 qadın yeni biznesə başlamışdır; | SAHİBKARLIQ VƏ MƏŞĞULLUQ MƏQSƏDİLƏ İQTİSADİ GÜCLƏNDİRMƏ (E4) LAYİHƏNİN_Gedişatına dair Rüblük hesabat _İyul – sentyabr 2017<br><br>RÜBLÜK TƏSVİRİ HESABAT-Vətəndaş cəmiyyətinin gender bərabərliyi və qadın hüquqlarının inkişaf etdirilməsi sahəsində daha geniş rol oynamasının mümkünləşdirilməsi_July-September 2017 | Gəncədə 47 gənc (64%), Masallıda isə 31 gənc (53%) Syslab təlimləri zamanı və ya təlimlərdən dərhal sonra iş tapmışdır. Beləliklə, 59% (132 məzundan 78-i) Syslab metodologiyasında iştirakın nəticəsi olaraq iş tapmışdır.<br>Neftçalada 5 qadına, Salyanda 9 qadına, Biləsuvarda 7 qadına, Sabirabadda 8 qadına natural formada dəstək göstərilmişdir. Masallıda isə 16 qadın öz biznesinə başlamışdır. | |
| **Məhsul 1.1.4. İKT infrastrukturu daha da təkmilləşdirilmiş və ucqar, iqtisadi baxımdan yoxsul ərazilərə doğru genişləndirilmişdir** | | | | | | | | | |
| BMTİP | Göstərici 1.3.1: Təkmilləşdirilmiş geniş zolaqlı internetə çıxışı olan şəxslərin sayı | Baza göstəricisi: 0 | Hədəf: 6 180 000 (2020) | Layihənin gedişatına dair hesabatlar | **çox az irəliləyiş müşahidə olunmuşdur** | Bu komponent, maliyyə məhdudiyyətləri səbəbindən İstiqamətləndirici Komitəsinin qərarı ilə layihədən çıxarılıb. Buna baxmayaraq BMTİP elektron hökumət sahəsində digər fəaliyyətlərini davam etdirir | | BMTİP hökumətə rəqəmli dövlət xidmətlərinin planlaşdırılması və idarə edilməsi, effektiv investisiya şəraiti və yüksək texnologiyalar sektoru üçün xüsusi müəssisələrə investisiya yatırılması qaydaları, biliklərə əsaslanan və innovativ iqtisadiyyat sahəsində ekspertiza dəstəyi göstərmişdir. Hazırda 160 dövlət qulluqçusu (rayonlardan 3 rüb) e-idarəetmə və e-iştirak barədə məlumatlıdır. | |
| **Məhsul 1.1.5. Azərbaycanın münaqişələrə məruz qalmış ərazilərində iqtisadi fəaliyyəti genişləndirmək məqsədilə, minalardan təmizlənmə və minalardan zərərçəkmiş şəxslərə yardım proqramı davam etdirilir** | | | | | | | | | |
| BMTİP | Göstərici 1.4.1: Həyat şəraiti yaxşılaşdırılmış minadan zərərçəkmiş şəxslərin sayı | Baza göstəricisi: 0 | Hədəf: 100(2020) | Layihənin gedişatına dair hesabatlar | **çox az irəliləyiş müşahidə olunmuşdur** | məlumat mövcud deyil | | 92 843 672 m2 çirklənmiş ərazi təmizlənmişdir (35 117 UXO, 204 tankəleyhinə və 35 heyət əleyhinə mina tapılmış və məhv edilmişdir). Bu il minasızlaşdırma əməliyyatları və UXO-ların təmizlənməsinin davam etdirilməsi və həyata keçirilməsi üçün avadanlıq qismən artırılmışdır. BMTİP ANAMA-ya Beynəlxalq Mina Tədbirləri Mərkəzi qismində dəstək göstərmək məqsədilə şəbəkələşmə və sertifikatlaşdırma dəstəyi təmin etməklə, ANAMA-nın yeni mərhələyə keçid prosesində bacarıqlarının artırılmasına dəstək göstərir. | Yerli QHT-lərə vəsaitlərin köçürülməsi və maliyyələşmənin olmaması ilə bağlı mina qurbanlarına yardım üzrə komponentlər dayandırılıb. |
| **Məhsul 1.1.6 Ləyaqətli işləri və inklüziv inkişafı dəstəkləyən hazırlanmış və həyata keçirilmiş Milli Məşğulluq Strategiyası (MMS), gənc qadın və kişiləri hədəfləyən fəal Əmək Bazarı Proqramları mövcuddur və Dövlət Məşğulluq Xidməti və BƏT üçlüyünün nümayəndələri tərəfindən həyata keçirilir ;** | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| BƏT | 1) BƏT metodologiyasını və ən yaxşı beynəlxalq təcrübələri nümunə götürməklə yenidən nəzərdən keçirilmiş və düzəliş edilmiş gənclərin məşğulluğuna dair milli siyasət, proqramlar və təşəbbüslərin sayı<br>2) İctimai Məşğulluq Mərkəzinin təlim keçmiş işçilərinin sayı<br>3) BƏT-in dəstəyi ilə təqdim olunan gəncləri hədəf alan yeni proqramlar (fəaliyyət n 1.1.6.3 - pilot yeni proqram həyata keçirildiyi təqdirdə)<br>4) BƏT-in dəstəyi ilə həyata keçirilmiş tədbirlər nəticəsində müsbət nəticələr (yeni iş, təhsil/təlim) əldə edən gənclərin sayı (cinsə görə dezaqraqasiya) (1.1.6.4)<br><br>5) Dövlət Əmək Müfəttişliyi Xidmətinin təlim keçmiş işçilərinin sayı (fəaliyyət n 1.1.6.5)<br><br>6) 2017-ci ildə iqtisadiyyatın formalaşdırılması üçün milli mexanizmlərin daha da inkişaf etdirilməsi üçün müvafiq əməkdaşların potensialını gücləndirmək üçün bir milli tədbir həyata keçirmək (fəaliyyət n 1.1.6.6) | 1)<br>2)İlkin vəziyyət: 2016-cə ildə bütün rayonlarda təxminən 80 nəfər<br>3)İlkin vəziyyət: 2016-cı ildə 1 proqram (sahibkarlıq )<br>4)İlkin vəziyyət:<br>5) İlkin vəziyyət:<br>6)İlkin vəziyyət: | 1) Hədəf: Milli Məşğulluq Siyasətinin qəbul edilməsi<br>2) Hədəf:160 nəfər (bütün ölkədə)<br>3) Hədəf: institusionallaşdırılmış daha 1 proqram;<br>4) Hədəf: pilot proqramda iştirak edənlərin 80% -i (monitorinq nəticələrinə əsasən);<br>5) Hədəf:<br>6) Hədəf: bir | Layihənin gedişatına dair hesabatlar | **qismən** | 1)Milli PTS Strategiyası BƏT-in 155 və 187 saylı Konvensiyalarına tam uyğundur; Milli Məşğulluq Strategiyasının bütün maraqlı tərəflərlə tam şəkildə razılaşdırılması: 27 məsləhətləşmə keçirilmişdir<br><br>2)240 heyət üzvü Fəal Əmək Bazarı Proqramları (FƏBP) hazırlama və həyata keçirmə bacarıqları ilə tam təmin olunmuşlar<br><br>3)<br>4)<br>5)<br>6) | Məsləhətləşmələrin protokolları; Təlimlərə dair hesabatlar | Milli Məşğulluq Strategiyasının yekun layihə variantı Nazirlər Kabinetinə təqdim edilmişdir;<br>Dövlət Məşğulluq Xidməti Fəal Əmək Bazarı Proqramları həyata keçirir<br>Sosial tərəfdaşların Milli PTS Siyasətinin hazırlanması və həyata keçirilməsində rolunu artırmaq məqsədilə onlar üçün əmək normalarına əməl edilməsinə dair təlim keçilmişdir | |
| **Məhsul 1.1.7 Yerli Qafqaz bal arılarının məhsuldarlığının artması və arıçılıqla məşğul olanların hər bir arı pətəyindən bal əldə etmə potensialının genişlənməsi** | | | | | | | | | |
| ƏKT | Arıçılıqla məşğul olan şəxslərin gəlirləri onların şəxsi arıçılıq təsərrüfatlarının idarəçiliyində etdikləri dəyişikliklər hesabına ən azı 10%-dək artmışdır | 0% | 10% (2017) | Missiya və təlim hesabatları; statistika | **qismən** | 5% | Missiya və təlim hesabatları, statistika | Gəncə Arıçılıq Mərkəzinin və Arıçılar Birliyinin 46 arı saxlayan üzvü üçün Arıların süni mayalandırılması və arı xəstəliklərinə dair təlim keçilmişdir<br><br>"Yeni başlayanlar üçün arıçılıq" və "Ana arıların yetişdirilməsi" təlimatları dərc olunmuş və arıçılıqla məşğul olan şəxslərə, Kənd Təsərrüfatı Nazirliyinə və Arıçılar Birliyinə paylanmışdır<br>Arıçılıqla məşğul olan şəxslərin gəlirlərində artım 2018-ci ilin avqust ayında qiymətləndiriləcək. Bununla belə, bu artım 2015-ci ilin göstəriciləri ilə müqayisədə, 2016-cı ildə 3,5% daha yüksək olmuşdur. | Arıların həyat tərzinin mövsümi olması və müəyyən fəaliyyətlərin həyata keçirilməsində gecikmələr uzun dövr üçün imkanları əldən çıxarır<br><br>Qeyd*: <u>bu göstəricinin layihənin uğurlarına əsaslanan nəticələri növbəti illərdə ölçülməlidir.</u>* |
| **Məhsul 1.1.8 Hüquqi baza və üzvi (orqanik) kənd təsərrüfatı idarəçiliyi təkmilləşdirildikdən sonra təlimlər, müasir və ənənəvi yanaşmaların ötürülməsi və şəbəkələşmə vasitəsilə ərzaq təhlükəsizliyi, kənd yerlərinin inkişafı, dayanıqlı gəlirlər və ekoloji bütövlük artırılmışdır** | | | | | | | | | |
| ƏKT | Üzvi (orqanik) kənd təsərrüfatının qəbul edilməsi və dəstəklənməsinə dair milli strategiya sənədi hazırlanmışdır<br><br>İnstitusional çərçivə və sertifikatlaşdırma sistemi mövcuddur və layihənin əhatə etdiyi rayonlarda tətbiq olunur<br><br>Üzvi (orqanik) kənd təsərrüfatına dair təlimlərin sayı | 0<br><br><br>0%<br><br><br>0 | 1 (2017-2018)<br><br><br>100% (2017-2018)<br><br><br>5(2017-2018) | TÜH-lər, layihənin gedişatına dair hesabatlar | **qismən** | 0.7 (davam edir)<br><br><br>80% (davam edir)<br><br><br>4 | Təşkilat üçün hesabatlar (TÜH-lər), təlim/tədqiqat turu-hesabatları, yoxlama və sertifikatlaşdırma sənədləri | Milli Strategiya sənədinin 2018-ci ilin əvvəlində yekunlaşdırılması planlaşdırılır<br><br>Sertifikatlaşdırma sistemi hazırlanmış və Kənd Təsərrüfatı Nazirliyinə, müvafiq maraqlı tərəflərə təqdim edilmişdir<br><br>4 bacarıqların artırılması çalışması:<br>- məsləhətləşmə xarakterli iclaslar<br>- üzvi (orqanik) kənd təsərrüfatı müfəttişləri üçün təlim (18)<br>- Hökumətin 3 heyət üzvünün Türkiyəyə 1 tədqiqat turu - Türkiyənin üzvi (orqanik) kənd təsərrüfatı sahəsində təcrübəsi paylaşılmışdır;<br>- Göyçayda üzvi (orqanik) narçılığa dair konfrans | - Üzvi (orqanik) kənd təsərrüfatına dair qanunvericilik Nazirlər Kabinetinə göndəriləcək. Bu nəticəyə tam nail olunması yeni Qanunun təsdiq edilməsi və qəbul edilməsindən, eləcə də müvafiq qurumun təyin edilməsindən asılıdır.<br><br>- Kənd Təsərrüfatı Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında bu sahədə vəzifə və öhdəliklərin bölüşdürülməsində təkrarlanmalar çətinliklər doğurmuşdur<br><br>- Geniş ictimaiyyətin daha çox maarifləndirilməsinə ehtiyac var<br><br>Qeyd*: Fəaliyyətləri həyata keçirmək üçün layihənin xərclərinin artırılmaması üsulu tətbiq olunur - layihənin gözlənilən yeni NTE-si: 30 aprel 2018.* |
| **Məhsul 1.1.9 Qanunvericiliyin təkmilləşdirilməsi, milli tərəf müqabillərinin bitki çeşidlərinin sınaqdan çıxarılması, qeydiyyatı və mühafizəsi, eləcə də toxumların keyfiyyətinin yoxlanılması və sertifikatlaşdırılması sahəsində institusional və texniki potensialının gücləndirilməsi** | | | | | | | | | |
| ƏKT | Qanunvericiliyin hamılıqla qəbul edilmiş prosedur və standartlara uyğun olması, toxumçuluq sahəsinin gücləndirilməsi<br><br>Sertifikatlaşdırılmış toxum istehsalının 20-30%-dək artması | 0%<br><br>0% | 100%; (2017)<br><br>20% (2017) | Toxumlara dair qanunvericilik Toxum istehsalına dair məlumatlar<br>Toxum çeşidlərinin kataloqu | **tam** | 100%<br><br>20% | TÜH-lər, "Toxumçuluq sahəsinin vəziyyətinə dair" hesabat, əlavə və dəyişikliklər edilmiş qanunvericilik, hazırlanmış qaydalar | - "Toxumçuluq haqqında" Qanun və "Bitki çeşidlərinin mühafizəsi haqqında" Qanun hazırlanmış və əlavə prosedurlar üçün Nazirlər Kabinetinə təqdim edilmişdir;<br>- Toxumların keyfiyyətinin yoxlanılmasına dair Qaydalar və Toxumların sınaqdan keçirilməsinə dair Qaydalar hazırlanmış və Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmışdır;<br>- 57 toxumçuluq mütəxəssisi üçün bitki çeşidlərinin sınaqdan keçirilməsi, qeydiyyatı və mühafizəsinə dair təlim keçilmişdir<br>- 50 nəfər toxumçuluq mütəxəssisi üçün toxumların yoxlanılması və sertifikatlaşdırılması sahəsində hamılıqla qəbul edilmiş prosedur və qaydalara dair təlim keçilmişdir<br><br>- Sertifikatlaşdırılmış toxum istehsalına bu sistem növbəti illərdə, tam şəkildə funksional olduqdan sonra nail olunacaq. | Bu nəticəyə nail olunması zamanı heç bir ciddi problem ortaya çıxmamışdır. Yeni qanunvericilik sisteminin həyata keçirilməsi zamanı çətinliklər ortaya çıxa bilər. Buna görə də Kənd Təsərrüfatı Nazirliyi tələb olunduğu hallarda işlərin yoluna qoyulmasını yenə də davam etdirməlidir. |
| **Məhsul 1.1.10 Milli tərəf müqabillərinin heyvan yetişdirmənin inkişaf etdirilməsi və müasir təsərrüfatçılıq metodları sahəsində bacarıqlarının artırılması vasitəsilə ərzaq təhlükəsizliyi, kənd yerlərinin inkişafı, dayanıqlı gəlirlər və ekoloji bütövlüyün yaxşılaşması** | | | | | | | | | |
| FAO | SM Mərkəzi qənaətbəxş fəaliyyət göstərir<br><br>Mayalandırma ilə məşğul olan şəxslər üçün lazımi təlimlər keçilir və fermerlər süni mayalandırmadan istifadəyə əminlik duyurlar və ya heyvan yetişdirmənin inkişaf etdirilməsinə olan ehtiyac barədə daha məlumatlıdırlar | 0%<br><br>0 | 100% (2017)<br><br>40 (2017) | Monitorinq hesabatları və məlumatların qeydə alınması | **tam** | 100%<br><br>37 | Qeydiyyat formaları, şəhadətnamələr, gedişata dair hesabatlar | - SM Mərkəzi fəaliyyət göstərir:Mayalandırma ilə məşğul olan şəxslər üçün lazımi təlimlər keçilir, fermerlər heyvan yetişdirmənin faydası barədə daha çox məlumatlıdırlar və onların süni mayalandırmadan istifadəyə əminliyi artıb.<br><br>- 35 nəfər süni mayalandırma ilə məşğul olan şəxs üçün Süni mayalandırmaya dair 7 təlim sessiyası (hər biri 5 tam gün olmaqla) keçilmişdir. Təlimçilərə kursların keçirilməsində kömək etmək məqsədilə, Təlim Rəhbərliyi hazırlanmış və çap edilmişdir. Bundan başqa, SM Mərkəzinin 2 heyət üzvü SM təcrübələrinə dair 2 həftəlik tədqiqat turu üçün İzmir şəhərinə səyahət etmişdir. | Göygöl rayonundakı SM Mərkəzi qənaətbəxş şəkildə fəaliyyət göstərsə də, burada Laboratoriya daxil olmaqla bütün Mərkəzin idarəçilik sisteminin yaradılmasına, həmçinin heyət və SM Mərkəzinin mayalandırıcıları üçün texnik ibacarıqların artırılmasının davam etdirilməsinə böyük ehtiyac var. Mərkəzin, o cümlədən toxum istehsalı və rüşeym transferinin daha da gücləndirilməsi məqsədilə, ƏKT-Azərbaycan Tərəfdaşlıq Proqramı tərəfindən maliyyələşdiriləcək davam layihəsi olacaq.<br><br>SM Texnikləri Assosiasiyasının vaxtında yaradılması maraqlı tərəflərə hətta daha çox fayda gətirəcək. |
| **Məhsul 1.1.11 Torpaqların konsolidasiyasına dair milli strategiyanın hazırlanması və müasir torpaq konsolidasiyası layihələrinin hazırlanması və həyata keçirilməsi bacarıqlarının artırılması** | | | | | | | | | |
| FAO | Hazırda torpaqların konsolidasiyasına dair heç bir proqram mövcud deyil (0) | (0) | Pilot sahədə torpaqların konsolidasiyası həyata keçirilmişdir (1) | TÜH-lər, gedişata və missiyalara dair hesabatlar | **irəliləyiş yoxdur** | 0 | TÜH-lər, gedişata və missiyalara dair hesabatlar, torpağa mülkiyyət xəritələri və təkrar bölüşdürmə planları, yaradılmış məlumat bazası | Bu hədəfə nail olunması aşağıdakıların başa çatdırılmasından və icma inkişafı planının həyata keçirilməsindən asılıdır.<br><br>Torpaqların Konsolidasiyasına dair Milli Strategiyanın hazırlanması sahəsində hazırlıq işləri davam edir:<br>- ehtiyac, çatışmazlıq və təklifləri müəyyənləşdirmək məqsədilə 600 torpaq sahibi ilə sorğular;<br>- torpaq mülkiyyəti xəritəsinin hazırlanması;<br>- İcma İnkişafı Planının hazırlanması və torpaqların təkrar bölüşdürülməsinin planlaşdırılması ilə daha sıx əlaqələndirilməsi<br><br>Təlim seminarı vasitəsilə maraqlı tərəflərin məlumatlılığı artırılmışdır;<br>60 torpaq sahibi İcma İnkişafı Seminarı vasitəsilə torpaqların konsolidasiyasına dair biliklər əldə etmişlər<br>15 torpaq sahibi təcrübə əldə etmək və fəal dəstək məqsədilə, Türkiyəyə Mübadilə Səfərində iştirak etmişdir | Məlumatların azlığı və əhalinin torpaqların konsolidasiyasına etibarının olmaması səbəbindən fermerlərdə inam yaradılması çətin olmuşdur .<br>Bu gözlənilirdi. Layihənin əsas vəzifəsi beyinlərdə və torpaqdan istifadə sistemlərində bu əsaslı dəyişiklikləri etmək idi. |
| | Torpaqların konsolidasiyasına dair heç bir Milli Strategiya mövcud deyil (0) | 0 | Torpaqların konsolidasiyasına dair milli strategiya hazırlanmışdır (1) | | **irəliləyiş yoxdur** | 0 | | | |
| | TK-na dair müasir proqram hazırlamaq və həyata keçirmək üçün müvafiq bacarıqların olmaması (0 bacarıqların artırılması fəaliyyəti) | (0 bacarıqların artırılması fəaliyyəti) | Milli səviyyədə bacarıqlar artırılmışdır (9 bacarıqların artırılması fəaliyyəti) | | **qsmən** | 3 | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2-ci strateji prioritet sahə: İnstitutsional potensialın gücləndirilməsi və effektiv** | | | | | | | | | |
| **Nəticə 2.1: 2020-ci ilədək Azərbaycanda şəffaf, faktlara əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşan siyasət hazırlanması və həyata keçirilməsi üçün institutsional potensialın artırılması** | | | | | | | | | |
| BMTİP, UNİCEF, UNFPA, BMTQAK, İnsan Hüquqları üzrə Ali Komissarlıq, ÜST, BƏT, BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi, UNECE, Dünya Bankı, BMqT | 1) Düşünülmüş siyasətlərin işlənib hazırlanmasına kömək məqsədilə cins üzrə dezaqreqasiya olunmuş yeni göstəricilərin milli statistik məlumatlar bankına daxil edilməsi<br>2) İnsan İnkişafı İndeksi<br>3) Gender Bərabərsizliyi İndeksi<br>4) Hökumətin effektivlik göstəricisi<br>5) Şəbəkə hazırlığı indeksi | 1) 257 (2013);<br>2) 0.747 (2013);<br>3)0.340 (2013);<br>4) -0.78 (2012);<br>5) 4.31 (2014); | 1) 280<br>2) 0.750<br>3) 0.325 (2020)<br>4) -0.5 (2020)<br>5) 4.7 | 1) Dövlət Statistika Komitəsi<br>2) BMTİP<br>3) BMTİP<br>4) Dünya Bankı<br>5) BMTİP | | 1)310 (2017)<br>2) 0.759 (2016)<br>3) 0.326 (2016)<br>4)-0.16 (2016)<br>5)4.3 (2016) | 1) Dövlət Statistika Komitəsi<br>2) BMTİP<br>3) BMTİP<br>4) Dünya Bankı<br>5) Dünya İqtisadi Forumu | | |
| **Məhsul 2.1.1: Hökumət və digər iştirakçılar tərəfindən dəlillərə əsaslanan ədalətli dövlət siyasətlərinin, proqramlarının və büdcələrinin işlənib hazırlanması və həyata keçirilməsi** | | | | | | | | | |
| UNİCEF | Yaş qrupu, cins və əlillik vəziyyətinə görə dezaqreqasiya olunmaqla, bütün rayonlar üzrə məlumatları daxil etmək üçün TİİS-in (Təhsil İdarəçiliyi üzrə İnformasiya Sistemi) yenilənməsi. | TİİS-də bu cür məlumatlar yoxdur. | TİİS-ə dezaqreqasiya olunmuş məlumatlar daxildir (2020) | | **irəliləyiş yoxdur** | | | | Icrası 208-ci ilədək təxirə salınıb. |
| UNİCEF | DSK, Təhsil Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış, uşaqların genderi, yaş qrupu, yeri və əlillik vəziyyətinə görə dezaqreqasiya olunmuş məlumatları əks etdirən və dəlillərə əsaslanan hesabatların sayı | 0 (2015) | 5 (2020)<br>Hədəf: 2017-ci ilin sonunadək 2 | Hazırlanmış hesabatlar | **tam** | 2 | DSK, Təhsil Nazirliyi, AQUPDK | UNİCEF-in Azərbaycan və Gürcüstan nümayəndəlikləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə küçə uşaqları ilə bağlı keyfiyyət yönümlü araşdırma aparıb. Dövlət Statistika Komitəsi ilə birlikdə məhrumiyyətlərlə üzləşən uşaqlar üzrə sorğunun ikinci mərhələsi həyata keçirilib və bundan sonra həm birinci, həm də ikinci sorğunun əhatəli müqayisəli təhlili aparılacaq.<br>Uşaqların sağlamlıq imkanlarının ölçülməsi yerli kontekstə uyğunlaşdırılmışdır və gələn ilin əvvəlində tətbiq olunacaq. | 2017-ci ildə məlumatların toplanması ilə bağlı çoxlu işlərin aparılması bəzi tədqiqatların sahə işinin yubanmasına və nəticə etibarilə tədqiqatların ümumi vaxtının uzanmasına səbəb oldu. |
| UNİCEF | Bütün uşaqlar üzrə əhatəli mərkəzi məlumatlar bazasının mövcud olması | Məlumatlar bazası yoxdur (2015) | Mövcuddur [2018]: | Uşaqlar üzrə Mərkəzi Məlumat Bankı | **qsmən** | Məlumatlar bankında olan məlumatlar cəmi 1.7 milyon uşağı əhatə edir. Hazırda komitə ilə birlikdə xidmətləri inkişaf etdirməyə çalışırıq. | AQUPDK | Uşaqlar üzrə Milli Mərkəzi Məlumat Bankına daxil edilmiş uşaq qeydlərinin sayı 1.7 milyona çatıb və hazırda UNİCEF müvafiq tərəflərə məlumatların avtomatik şəkildə Uşaqlar üzrə Məlumat Bankı ilə sinxronlaşdırılması üçün texniki dəstək göstərir. | AQUPDK fiziki serverlərə texniki xidmət üçün əlavə kadr və maliyyə resurslarına, həmçinin məlumatlar bazasının işlək vəziyyətdə qalması üçün müvafiq işçi heyətə ehtiyac duyur. |
| BMTQAK | Qaçqınların və vətəndaşlığı olmayan şəxslərin iqtisadi və sosial vəziyyətinə dair müfəssəl statistik hesabatlar mövcuddur. | İlkin vəziyyət: yoxdur; | Hədəf: 2017-ci ilin sonunda mövcud olması | | **qsmən** | 1. Qaçqınlar üzrə mövcuddur | BMTQAK-ın məlumatlar bazası | 1. 2017-ci ildə BMTQAK Nağd Yardım Tədbiri moduluna dəyişiklik etdikdən sonra, ona əsasən Azərbaycanda qaçqın ailələrinin sosial-iqtisadi vəziyyətinə dair dəqiq məlumatlar əlçatan olmuşdur. Sosial işçilər texniki alətlərə yüklənilmiş hazır sorğulardan istifadə edərək qaçqınların sosial-iqtisadi vəziyyətinə dair müntəzəm olaraq məlumatlar toplayır. Daha sonra məlumatlar qaçqın ailələrinin həssaslıq səviyyəsini müəyyən etmək üçün avtomatlaşdırılmış sistem vasitəsilə təhlil olunur.<br>Azərbaycanda Vətədaşlığın Olmayan Şəxslərlə bağlı Məsələlərdə Hüquqi və Praktiki Boşluqların Təhlili statistik məlumatlar olmadan, əhalinin bu qrupunun hüquqlarının təmin olunması baxımından onların vəziyyəti barədə mənzərəni ortaya çıxarır. | |
| | İlk növbədə həssas qrupları və ehtiyacları nəzərə alaraq, yoxlanıla bilən, təfsilatlı və şəffaf meyarlar vasitəsilə məcburi köçkünlərə yardım proqramlarının həyata keçirilməsi. | İlkin vəziyyət: yoxdur; | Hədəf: 2017-ci ilin sonunda mövcud olması | | **qsmən** | 2. Cocuq Mərcanlı kəndi üzrə mövcuddur. | Yaş, Gender və Müxtəlifliyin İnteqrasiyası üzrə İştirak Qiymətləndirməsi | 2. Nümayəndəlik mühafizə və yardımla bağlı boşluqları müəyyən edib aradan qaldırmaq, yaş, gender və etnik mənsubiyyətindən asılı olmayaraq bütün məcburi köçkünlərin səsinin eşidilməsini təmin etmək və yardımın təmin edilməsində hüquqlara daha çox əsaslanan və ünvanlı yanaşmanın tətbiqini təşviq etmək məqsədilə Cocuq Mərcanlıda Yaş, Gender, Müxtəlifliyin İnteqrasiyası üzrə İştirak Qiymətləndirməsi aparmışdır. Bu prinsip Cinsi və Gender əsaslı Zorakılıqla bağlı maarifləndirmə sessiyaları keçirərkən, eləcə də "Fuji Optical" şirkətinin "Görməyə Yardım" missiyası zamanı eynəklərin paylanması üçün tətbiq edilmişdir. | |
| | Qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üçün inteqrasiya planının mövcud olması. İlkin vəziyyət: yoxdur; Hədəf: 2017-ci ilin sonunda mövcud olması | İlkin vəziyyət: yoxdur; | Hədəf: 2017-ci ilin sonunda mövcud olması | | **irəliləyiş yoxdur** | 3. Yoxdur | Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura | 3. İnteqrasiya üzrə təşkilatlararası işçi qrup tərəfindən inteqrasiya planının layihəsi işlənilmişdir. 2017-ci ilin sonunda bu sənəd hələ yekunlaşdırılmamış və təqdim olunmamışdı. | |
| **Məhsul 2.1.2: İnsan alveri ilə mübarizə aparmaq və insan alveri qurbanlarının, habelə miqrasiyaya cəlb olunmuş şəxslərin mühafizəsini təmin etmək üçün milli, regional və beynəlxalq miqrasiya və sərhəd idarəçiliyi potensiallarının artırılması.** | | | | | | | | | |
| BMqT | 1) Miqrasiyanın idarə olunması üzrə yeni və innovativ elektron xidmətlərin mövcud olması 2) "İnsan alveri ilə mübarizə: Diplomatlar nəyi bilməli və nəyi etməlidir" adlı əyani vəsait<br>3) Müvafiq dövlət orqanlarının təlim proqramlarında institutsionallaşdırılmış təlim proqramları vasitəsilə, qanunsuz miqrasiya ilə mübarizədə, ayrıca olaraq insan alveri ilə mübarizədə potensialı inkişaf etdirmə üzrə mövcud olan imkanların coğrafi əhatə dairəsi. | 1) Yoxdur<br>2) Yoxdur<br>3) məhduddur | 1)Mövcuddur (2018)<br>2)Mövcuddur (2018)<br>3) Bütün ölkə(2018) | Layihə hesabatları | **qsmən** | ümumi işin 75% -başa çatdırılmışdır, buna baxmayaraq 25% qalan texniki işlərdir ki maliyyə yükünün daha çox hissəsini daşıyır. | Layihə hesabatı, təlim vəsaiti, görüşlərin protokolları, layihə tədbiri icmalı | İnsan alverinə qarşı mübarizəyə dair əyani vəsait çərçivəsinin Hökumət tərəfindən təsdiqi Təlimlərdə iştirak edən dövlət orqanlarının müəyyənləşdirilməsi. Məktəblərdə insan alveri ilə mübarizəyə dair maarifləndirmə seminarları başlanılıb Naxçıvan Muxtar Respublikasının polis orqanları üçün insan alveri ilə mübarizəyə dair əyani vəsaitə 5 günlük əhatəli baxış keçirilmişdir.<br>**Tədbirlər barədə yenilənmiş məlumat:**<br>Konsulluq işçiləri üçün əyani vəsait çərçivəsi hazırlanmışdır - hazırda vəsait tərtib olunur. 13 səfirlik nümayəndəsinin iştirakı ilə konsullar üçün seminar keçirilib. Buraya ABŞ, İsveçrə, Niderland, Almaniya, Belarus, Meksika, Koreya, Gürcüstan, Səudiyyə Ərəbistanı, Küveyt, Əfqanıstan, İraq və Fələstin səfirlikləri daxildir.<br>27-30 iyul tarixlərində Gəncə şəhərində 100-dən artıq şəxsin iştirakı ilə Azərbaycan hökuməti və ABŞ hökuməti ilə birlikdə Ümumdünya İnsan Alverinə Qarşı Mübarizə Günü (ÜİAMG) tədbiri təşkil olunub. ÜİAMG-ni qeyd etmək üçün Bakı və Gəncə şəhərlərində ictimai tədbir keçirilib.<br>Oktyabrın 18-də Aİ İnsan Alveri ilə Mübarizə Günü təşkil olunub. Tədbirdə bir çox sahələrdən olan maraqlı tərəflər bir araya gəlib və bu cinayətlə mübarizəyə dair tədbirlər müzakirə olunmuş, eləcə də qurbanların qorunması və yardımla təmin olunmasına dair adekvat məlumatlar təmin olunmuşdur. Tədbirdə müxtəlif əlaqəli nazirliklərin, diplomatik missiyaların, vətəndaş cəmiyyəti təşkilatlarının və elmi müəssisələrin 100-ə yaxın nümayəndəsi iştirak edib.<br>İnsan alverinə qarşı mübarizə üzrə beynəlxalq donorların əlaqələndirmə qrupunun fəaliyyətini canlandırmaq üçün görüşlər keçirilib.<br>Beynəlxalq Miqrasiya Təşkilatı Azərbaycanın Qızıl Aypara Cəmiyyəti və Təhsil Nazirliyi ilə tərəfdaşlıq etməklə 18 dekabrdan etibarən maarifləndirmə tədbirlərinə start verəcək. Tədris ili ərzində 470 məktəbdə insan alverinə qarşı mübarizəyə dair 1880-ə yaxın seminar keçiriləcək.<br>Dövlət Miqrasiya Xidməti hazırda Beynəlxalq Miqrasiya Təşkilatının texniki dəstəyi ilə miqrasiyanın idarə olunması üzrə çoxillik strategiya hazırlamaqdadır. Bu sənəd 2018-ci ildə yekunlaşdırılacaq<br>Azərbaycanda miqrasiya və sərhədlərin idarə olunması, eləcə də əmək miqrasiyasının yaxşılaşdırılmasına dair 12 qiymətləndirmə hesabatı təqdim edilib. Miqrasiya İdarəçiliyi üzrə İşçi Qrup bu hesabatlarda siyasət sənədlərinin tərtibatı və əməliyyat təcrübələrinə dair tövsiyələrin necə icra olunacağını müzakirə edəcək. Beynəlxalq Miqrasiya Təşkilatı da müvafiq əlaqəli nazirliklər və təsisatlarla ikitərəfli görüşlər yolu ilə tədbirləri davam etdirəcək.<br>Azərbaycan Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq etməklə Qlobal Miqrasiya Müqaviləsi barədə altı milli məsləhələşmə aparıb. 2. Hökumət qurumları Aİ-Azərbyacan əməkdaşlıq çərçivələrinə dəstək vermək və özlərinin miqrasiya və sərhəd idarəçiliyi üzrə potensiallarını artırmaq üçün təlim və seminarda iştirak etmişdir<br>Təcrübi işçilər üçün masaüstü kitabçanın hazırlanması və milli təsisatlar üçün təlimin təşkil edilməsi vasitəsilə beynəlxalq standartlara və insan hüquqları sahəsində qanunvericiliyə uyğun olaraq miqrantları yerləşdirmə mərkəzlərinin idarə olunması üzrə milli potensial gücləndirilib.<br>DMX tərəfindən təyin olunan cərimə və rüsumların ASANPAY ödəniş sistemi vasitəsilə ödənilməsinə imkan verən bir xidmət hazırlanmış, e-sənəd dövriyyəsi, DMX-in e-xidmətlərinin yaxşılaşdırılması, vahid məlumatlar bazası, biometrik identifikasiya və vətəndaşlıq məsələləri ilə bağlı dörd xidmətin hazırlanması prosesi davam edir<br>Hökumət, vətəndaş cəmiyyəti və özəl sektoru bir araya gətirən iki seminar keçirilib. Bundan əlavə Logistik İdarəçilik İnformasiya Sistemi üzrə qiymətləndirmə aparılmış, qanunsuz məşğulluğun qarşısının alınması və monitorinqi üçün birgə təftişlərlə bağlı standart əməliyyat proseduru hazırlanmışdır<br>Miqrasiyanın Azərbaycanın iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi başa çatdırılmış və hökumətə təqdim olunmuşdur. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara uyğun olaraq prioritetləşdirilmiş tədbirlər hökumət tərəfindən BMqT-ə təqdim olunmuşdur. Prioritet məsələ kimi, 2017-ci ilin dekabr ayında əmək idarəçiliyi üzrə seminar təşkil olunacaq. BMqT müvafiq milli təşkilatlarla əlaqələndirilmiş şəkildə, hesabatda verilən tövsiyələrin | calibri |
| **Məhsul 2.1.3: Kənd təsərrüfatı siyasətlərinin və proqramlarının hazırlanması, yerinə yetirilməsi, monitorinqi və qiymətləndirilməsi üçün institutsional quruluş və potensialın inkişaf etdirilməsi** | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| FAO | Kənd təsərrüfatı siyasətləri və proqramları üçün monitorinq və qiymətləndirmə sisteminin mövcud olması. | Bütövlükdə kənd təsərrüfatı siyasətlərini planlaşdırmaq, onların monitorinqini və qiymətləndirilməsini aparmaq üçün heç bir analitik vasitələr yoxdur. Natamam vasitələr ya şaquli ya da üfüqi əlaqələri yaxud onların hər ikisini nəzərə almır. (0%) | Məlumatları toplamaq və yaymaq işini fəaliyyətə daxil etmək üçün CountrySTAT platformasının təsis olunması (100%) (2017) | Layihə hesabatları<br>Seminar hesabatları<br>Veb əsaslı İT sistemi (CountryStat) | tam | 100% | CountrySTAT Azərbaycan platforması üçün veb sayt<br>Qeydiyyat forması, missiya hesabatları | CountrySTAT- Azərbaycan platforması (http://azerbaijan.countrystat.org/) rəsmi şəkildə işə salınmış və dövlət orqanlarına, regional və beynəlxalq təşkilatlara, inkişaf sahəsində tərəfdaşlara və milli institutlara təqdim olunmşdur.<br><br>Kənd Təsərrüfatı Nazirliyinin Analitik və Statistik Şöbələrinin, Dövlət Statistika Komitəsinin və müvafiq qurumların 30 əməkdaşına kənd təsərrüfatı sahəsində monitorinq, qiymətləndirmə və modelləşdirmə üzrə təlim keçirilmiş, ən çox istifadə olunan modellər təqdim olunmuşdur (CAPRI, PSE, AGMEMOD)<br><br>Qeyd: Potensialın inkişaf etdirilməsinin ikinci mərhələsinin 2018-ci ilin əvvəllərində təşkil olunması planlaşdırılır | Çoxsaylı maraqlı tərəflərin əlaqələndirilməsi çətinliklərlə müşayiət olunub. CountrySTAT platformasının utilizasiyasına daha yüksək səviyyədə həvəsin olması sistemdən daha effektiv və dayanıqlı istifadəni təmin edə bilər. |
| | Kənd təsərrüfatı siyasətlərinin və proqramlarının monitorinqi və qiymətləndirilməsi üçün milli potensialın artırılması | Kənd təsərrüfatı siyasətlərinin və proqramlarının monitorinqi və qiymətləndirilməsi üçün milli potensialın artırılması 0% | Kənd təsərrüfatı siyasətlərinin və proqramlarının monitorinqi və qiymətləndirilməsi üçün milli potensialın artırılması (100%) | | qsmən | 50% | | | |
| **Məhsul 2.1.4: Əhalinin dinamikası üzrə dəlilləri və onun cinsi və reproduktiv sağlamlıq və hüquqlarla qarşılıqlı əlaqələrini inteqrə edən şəffaf və hüquqlara əsaslanan siyasətlərin formalaşdırılması və həyata keçirilməsi üçün milli institusional potensialın gücləndirilməsi.** | | | | | | | | | |
| UNFPA | Əhalinin həssas qruplarına xüsusi diqqət yetirilməklə, UNFPA-nın təşviqat/texniki dəstəyi ilə, keyfiyyət və kəmiyyətlə bağlı bir sıra hesabatların və əhalinin dinamikasına və onun cinsi və reproduktiv sağlamlıq və hüquqlarla qarşılıqlı əlaqələrinə dair sorğuların işlənib hazırlanması. | İlkin vəziyyət: 17 | Hədəf: 27 (+10 yeni 2016-2020)<br>+2 yeni ( 2017) | UNFPA-nın Proqram hesabatları | tam | 2 | Əlaqəli müqavilə sənədləri, tədqiqat anketləri | Azərbaycanda gender münasibətlərinin dinamikasının uzun müddət cinsi və reproduktiv sağlamlıq və hüquqlarla bağlı siyasət və proqramların hazırlanması zamanı diqqətdən kənarda qalan məsələlərdən biri olduğunu nəzərə alaraq, UNFPA-nın Azərbaycan nümayəndəliyi cinsi və reproduktiv hüquqların və gender bərabərliyinin yaxşılaşdırılmasına yönələn təşviqat işini əsaslandırmaq və dəstəkləmək, genderdən asılı cins seçimi ilə bağlı zərərli təcrübələrlə mübarizə apparmaq üçün, bu hesabatda başqa bir hissədə qeyd edildiyi kimi, kəmiyyət və keyfiyyət yönümlü tədqiqat həyata keçirməyə başlayıb. İMAGES (Kişi və Gender Bərabərliyi üzrə Beynəlxalq Sorğu) hesabatı 2017-ci ildə yekunlaşdırılıb Azərbaycan dilinə tərcümə olunmuşdur. Hesabatın nəşri və təqdimatının 2018-ci ildə keçirilməsi planlaşdırılır; UNFPA-nın ölkə nümayəndəliyi 2050-ci ilə qədər Azərbaycanın iqtisadi zonaları üzrə əsaslı əhali proqnozlarının hazıranmasında Hökumətə dəstək göstərmişdir. Burada əsas məqsəd hökumətin ölkədə əhali yönümlü sosial və iqtisadi siyasət və proqramların düzgün planlaşdırılması, hazırlanması və həyata keçirilməsini təmin etmək səylərinə kömək etməkdir. | Azərbaycan hökuməti əhali ilə bağlı məsələlərə getdikcə daha çox diqqət yetirsə də, dövlət məmurlarının, qərar qəbul edən qurumların və əhalinin dinamikasına və onun gender bərabərliyi, cinsi və reproduktiv sağlamlıqla bağlı qarşılıqlı əlaqələrinə təsir göstərən tərəflərin diqqətini çəkməyə və məlumatlılığını artırmağa yönələn tədbirlərlə bağlı daha çox səylər göstərilməlidir. Əhali ilə bağlı məsələlərin inkişaf gündəliklərinə salınması da qaçılmazdır. |
| UNFPA | Əhalinin dinamikası ilə bağlı siyasətlərin hazırlanmasında istiqamətləndirmə üçün yaş qrupu və cins üzrə dezaqreqasiya olunmuş bir sıra göstəricilərin ictimai şəkildə açıq olan milli statistik məlumat bankına daxil edilməsi. | İlkin vəziyyət: 257 | Hədəf: 307 (+50 yeni 2016-2020)<br>+10 yeni(2017) | UNFPA-nın Proqram hesabatları | tam | 19 | "Azərbaycanda kişi və qadınlar, 2017", DSK-nın veb saytı | Ölkələr və təşkilatların Dayanıqlı İnkişaf sahəsində 2030-cu il Gündəliyinin icrasına başladıqları bir vaxtda, etibarlı və vaxtında təqdim olunan statistik məlumatların və göstəricilərin mövcudluğu hər zamankından daha önəmlidir. 2017-ci ildə UNFPA dezaqreqasiya olunmuş məlumatların mövcudluğunu yaxşılaşdırmaqla, əhali və inkişaf göstəricilərinin genişləndirilməsinə kömək etməklə əhalinin məlumatlar bankının genişləndirilməsində Hökumətə dəstək vermişdir. Cins üzrə dezaqreqasiya olunmuş 19 yeni göstərici hazırlanmış və sonra əhali üzrə milli məlumat bankına inteqrasiya olunmuşdur. | UNFPA-nın bu sahədə həyata keçirdiyi tədbirləri asanlaşdıran amillərdən biri Hökumətin milli inkişaf planlamasında məlumatların önəmini başa düşərək onların əhatə dairəsini və keyfiyyətini yaxşılaşdırmaq üçün nəzərəçarpan sayda təşəbbüslərin həyata keçirilməsinə başlamasıdır. Lakin Hökumət məlumatların toplanması, emalı, təhlili və yayılmasının bütün aspektlərini idarə etmək üçün milli potensialı gücləndirməkdən ötrü inkişaf sahəsində əməkdaşlıq etdiyi təşkilatların dəstəyinə ehtiyac duyur. |
| UNFPA | Milli statistika sisteminin dezaqreqasiya olunmuş əhali məlumatlarını yaratmaq, təhlil etmək və istifadə etmək potensialını gücləndirmək üçün təşviqat tədbirlərinin sayı. | İlkin vəziyyət: 100 | Hədəf: 200 (+100 yeni 2016-2020<br>+20 yeni 2017) | UNFPA-nın Proqram hesabatları | qsmən | 10 | İclasların protokolları | UNFPA hesabat dövrü ərzində cins, yaş qrupu və regionlar üzrə dezaqreqasiyao lunmuş əhali məlumatlarının mövcudluğunu və etibarlılığını yaxşılaşdırmaq üçün ölkənin potensialının gücləndirilməsinə yönələn təşviqat işlərinin aparılması, eləcə də dəlillərə əsaslanan təşviqat və siyasət tərtibatı üçün biliklərin formalaşdırılması ilə bağlı səylərini davam etdirib. Dəlillərə əsaslanan siyasət, təşviqat və qərarların qəbulunu daha da yaxşılaşdırmaq üçün, UNFPA Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və bu sahədəki digər milli tərəfdaşlarla əməkdaşlığı və tərəfdaşlığı davamlı olaraq genişləndirir və dərinləşdirir. | Ötən onillik ərzində Azərbaycan siyahıyaalma sorğuları, demoqrafik və tematik sorğular və inzibati reyestrlər (məsələn, ölüm və doğuşun qeydiyyatı sistemləri) vasitəsilə etibarlı məlumatların əldə olunmasında nəzərəçarpan irəliləyişə nail olmuşdur. Bununla belə, əsaslandırılmış, dəlillərə əsaslanan siyasətlərin hazırlanmasına kömək üçün, toplanmış məlumatların təhlili və istifadəsi ilə bağlı hələ çox iş görülməlidir. |
| **Məhsul 2.1.5. Dövlət qulluqçularına siyasətin işlənib hazırlanmasının, həyata keçirilməsinin və monitorinqinin müxtəlif aspektləri üzrə təlim keçmək üçün institusional potensialın gücləndirilməsi** | | | | | | | | | |
| BMTİP | Göstərici 2.2.1: Dövlət qulluqçuları üçün xüsusi təlim mərkəzinin mövcud olması | İlkin vəziyyət: Yoxdur | Hədəf: Təlim Mərkəzinin tam fəaliyyət göstərməsi (2020) | Donorların hesabatları | tam | Təlim Mərkəzinin tam fəaliyyət göstərməsi | "Azərbaycan Respublikasında dövlət qulluqçularının hazırlanmasına dəstək" layihəsinin qiymətləndirmə hesabatı<br><br>"Azərbaycan Respublikasında dövlət qulluqçularının hazırlanmasına dəstək" layihəsinin yekun nəqli hesabatı | Dövlət İdarəçilik Akademiyasında 500-dən yuxarı dövlət qulluqçusuna strateji idarəetmə, qərarların qəbul edilməsi, liderlik bacarıqları, monitorinq və qiymətləndirmə, DİM-lər və s. kimi çoxsaylı mövzuları əhatə etməklə müasir dövlət idarəçiliyi sahəsində təlim keçirilib. | |
| **Məhsul 2.1.6. Gender məsələlərinə həssaslıqla yanaşılan proqramların və siyasətlərin işlənib hazırlanması, həyata keçirilməsi və onların icrası üzərində monitorinqin aparılması üçün milli təşkilatları və sistemləri gücləndirmə istiqamətində tədbirlərin görülməsi** | | | | | | | | | |
| BMTİP | Göstərici 2.2.2: Cins üzrə dezaqreqasiya olunmuş göstəricilərdən və gender məsələlərinə həssaslıqla yanaşan yanaşmalardan istifadə edən dövlət proqramları, strategiyaları və planlarının sayı | İlkin vəziyyət: 0 | Hədəf: 4 (2020) | BMTİP hesabatları | qsmən | məlumat yoxdur | DİM-lərin monitorinqi_Yekun hesabat | BMTİP DİM-lər üzrə məlumatların, o cümlədən gender üzrə dezaqreqasiya olunmuş göstəricilərin işlənib hazırlanması üçün milli potensialın gücləndirilməsinə texniki dəstək göstərib. DİM göstəriciləri üzrə Milli İnformasiya Portalının konseptual çərçivəsi və formatı müəyyən edilib. Portalın 2018-ci ilin yanvar ayında rəsmi şəkildə təqdim olunması planlaşdırılır. | |
| **Məhsul 2.1.7. Əmək və sosial müdafiə siyasətlərinin həyata keçirilməsində daha böyük səmərəliliyə nail olmaq və məlumatların mövcudluğunu artırmaq üçün milli potensialın yaradılması** | | | | | | | | | |
| BMTİP, BƏT | 1) Vahid idarəçilik informasiya sisteminin (MİS) mövcud olması<br><br>2) Əhalinin həssas qruplarına dair yeni məlumat bazaları (əlilliyi olan insanlar, işsizlər) | 1) Yoxdur<br><br>2) Kağız üzərində və pərakəndə məlumatlar mövcuddur | 1) MİS-in tam şəkildə fəaliyyət göstərməsi (2020)<br><br>2) Məlumat bazalarının kompüterləşdirilməsi və məlumat mübadiləsinin mümkün olması (2020) | Donorların hesabatları | qsmən | Məlumat yoxdur | | BƏT və BMTİP Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə özünüməşğulluq proqramını, milli məşğulluq strategiyasını və potensialın inkişaf etdirilməsi işini genişləndirmək üçün Niyyət Məktubu imzalayıb. 7000-dən yuxarı ailənin bu sənəddən faydalanacağı gözlənilir. | |
| **Məhsul 2.1.8. İnteqrə edilmiş sərhəd idarəçiliyi siyasətlərinin həyata keçirilməsi üçün təşkilati potensialın mövcud olması** | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| BMTİP | Göstərici 2.4.1: İnteqrə edilmiş sərhəd idarəçiliyi üzrə strategiyanın mövcud olması<br><br>Göstərici 2.4.2: Ərzaq məhsullarının təhlükəsizlik standartlarına uyğunluğunun laboratoriyalarda yoxlanması imkanlarının çatdırıldığı səviyyə. | İlkin vəziyyət: Yoxdur<br><br>İlkin vəziyyət: 3 | Hədəf: Strategiyanın mövcud olması (2020)<br>Hədəf: 4 (2020) | Donorların hesabatları | **tam** | -Yaşıl sərhəddə əlaqələndirilmiş əməliyyatların təşkil olunması və həyata keçirilməsi yolu ilə Azərbaycan və Gürcüstanın sərhəd orqanlarının əməliyyat potensialı artırılıb; - Azərbaycanın Dövlət Gömrük Komitəsinin mərkəzi laboratoriyalarda yoxlanılacaq nümunələri (Sanitar və Fitosanitar Standartlara uyğun götürülmüş) səmərəli şəkildə götürməsinə və saxlamasına imkan verən və Aİ standartına cavab verən laborator nümunəgötürmə avadanlığı alınıb və quraşdırılıb;<br>Sərhəd Yoxlama məntəqəsində yeni nümunəgötürmə avadanlıqlarından istifadə üzrə təlim təşkil olunub;<br>Aİ-də sərhəd-buraxılış məntəqələrində Sanitar və Fitosanitar Standartlara uyğun ümumi nəzarət-yoxlama tədbirləri, Fitosanitar məsələlər, baytarlıq və ərzaq təhlükəsizliyi ilə bağlı nəzarət tədbirləri üzrə milli və ikitərəfli təlim proqramları təqdim olunub; | "Gürcüstan və Azərbaycan arasında quru sərhədin mühafizəsinin daha yaxşı əlaqələndirilməsi" layihəsinin icra hesabatı<br><br>"Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsinin yekun icra hesabatı | BMTİP, həmçinin, Gürcüstan və Azərbaycanın sərhəd orqanları arasında əlaqələndirmə mexanizmi və Sərhəd Nümayəndələri üzrə Saziş hazırlamışdır, hazırda təsdiq gözlənilir. Artıq sərhəd və gömrük orqanlarının 170 əməkdaşı sərhəd mühafizəsi ilə bağlı məsələlər və sanitar, fitosanitar, baytarlıq və ərzaq təhlükəsizliyi üzrə nəzarət tədbirləri ilə bağlı təlim keçmişdir.<br>Sanitar və Fitosanitar Standartlara uyğun qurğular və cihazlar mövcuddur. | |
| **Məhsul 2.1.9. Azərbaycan təşkilatlarının digər inkişaf etməkdə olan ölkələrə biliklərin aşılanması ilə bağlı xidmətlər göstərmək imkanına malik olması** | | | | | | | | | |
| BMTİP | Göstərici 2.5.1 Biliklə bağlı xidmətlərdən yararlanmış ölkələrin sayı | İlkin vəziyyət: 2 | Hədəf: 5 (20200 | | **qsmən** | 1 (2017) | | Özbəkistanın Maliyyə Nazirliyinin Büdcədənkənar Pensiya Fondu Azərbaycanın milli pensiya təminatı sahəsində apardığı uğurlu islahatlarına böyük maraq göstərmişdir.<br>BMTİP-in Özbəkistan nümayəndəliyi BMTİP-in Azərbaycan nümayəndəliyinə müraciət edərək, Özbəkistanın Maliyyə Nazirliyinin Büdcədənkənar Pensiya Fondunun nümayəndə heyəti üçün Azərbaycana tanışlıq səfərinin təşkil olunmasını xahiş etmişdir. Fondun İcraçı Direktorunun rəhbərliyi ilə, Fondun on nəfər rəhbər/aparıcı eksperti 5-12 oktyabr 2017-ci il tarixlərində Bakıda səfərdə olmuşdur. Onlar Azərbaycanın pensiya sistemi sahəsində təcrübəsi, həyata keçirilmiş islahatlar, Fondun gəlirlərinin və resurslarla bağlı məsrəflərinin proqnozlaşdırılmasında müasir ekonometrik modelləşdirmə alətlərinin tətbiqi ilə tanış olub. Pensiyaların və xidmətlərin əhatə dairəsinə və keyfiyyətinə, pensiyanın təsis edilməsində fərdiləşdirmə alətləri, ödəmə və əlaqələndirmə mexanizmlərinə xüsusi diqqət yetirilib | |
| **Nəticə 2.2. : 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi** | | | | | | | | | |
| | 1) İnsan hüquqları üzrə müqavilə qurumları tərəfindən verilərək yerinə yetirilmiş tövsiyələrin sayı<br>2) Hökumət, vətəndaş cəmiyyəti təşkilatları və BMT agentlikləri tərəfindən insan hüquqları üzrə müqavilə qurumlarına təqdim olunan məlumatların sayı<br>3) Xarici əməkçi miqranların işə qəbulu üzrə mövcud proseslərin beynəlxalq standartlara və normalara, o cümlədən Beynəlxalq Vahid Qəbul Sisteminə uyğunlaşdırılması. | 1) CRC 2012, UPR 2013, CMW 2013, CESCR 2013, CEDAW 2015 üzrə tövsiyələr qismən yerinə yetirilmişdir.<br>2) 0 (2016);<br>3) Uyğunlaşdırılmayıb; | 1) 2020-ci ilədək tövsiyələrin 30%-nin əsas etibarilə yerinə yetirilməsi.2) Hədəf: Müəyyənləşdirilməli (CEDAW 2017; UPR 2018; CRC 2018; CMW 2018; CESCR 2018)<br>3) Uyğunlaşdırılıb | 1)BMT-nin Ölkə üzrə İdarə Heyəti<br>2)BMT-nin Ölkə üzrə İdarə Heyəti<br>3)Beynəlxalq Miqrasiya Təşkilatı | | | | | |
| **Məhsul 2.2.1. Məhsul 2.2.1: Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən müstəqil şəkildə CRC, CEDAW və UPR üzrə tövsiyələrə uyğun olaraq uşaq hüquqlarının vəziyyətinin müstəqil monitoriniqinin aparılması** | | | | | | | | | |
| UNİCEF | Uşaq hüquqları üzrə milli monitorinq mexanizminin mövcud olması və tətbiq edilməsi. | Belə bir mexanizm yoxdur (2015) | Belə bir mexanizmin mövcud olması (2020) | | **çox az irəliləyiş müşahidə olunmuşdur** | Tərəfdaş qurumun xahişilə fəaliyyət 2018-ci ilə qədər təxirə salınsa da, Milli Preventiv Qrupun bu göstəriciyə töhfə verən fəaliyyətlərinə dəstək vermişik | Ombudsman | Uşaq hüquqlarını pozuntularını daha yaxşı aşkar etmək və onların qarşısını almaq üçün UNİCEF-in beynəlxalq ekspertləri tərəfindən təqdim olunan praktiki və nəzəri təlim, alətlər və metodologiyalar vasitəsilə Milli Preventiv Qrupun (MPQ) potensialı gücləndirilmişdir. Uşaq hüquqları ilə bağlı pozuntuları aşkar etmək üçün saxlama yerlərinin və uşaqlara qayğı müəssisələrinin monitorinqi Ombudsman aparatının Milli Preventiv Qrupu ilə birlikdə davam etdirilmişdir. Məlumatların daha yaxşı toplanması, təhlili və idarə olunması üçün UNİCEF-in texniki dəstəyilə, MPQ üçün İdarəçilik İnformasiya Sistemi (İİS) yaradılmışdır. Monitorinq səfərləri, qaynar xəttə edilən zənglər və uşaqların şikayətləri İİS sistemi vasitəsilə idarə olunur. Uşaq Hüquqları üzrə Komitəyə hesabat vermək üçün məsul olan bütün müvafiq hökumət orqanlarının potensialı beynəlxalq ekspertlərin texniki dəstəyi vasitəsilə gücləndirilmişdir. Ekspertlər hesabatların hazırlanması üçün alətlər və tövsiyələr vermiş və daha sonra hesabatların layihəsini gözdən keçirəcəklər. | MPQ spesifik olaraq uşaqlarla bağlı məsələlərlə məşğul olan əlavə kadrlar ehtiyac duyur. Hazırda MPQ-nin kiçik bir qrupu sadəcə uşaqların işləri ilə deyil, yetkin yaşlı insanların işləri ilə də məşğul olur. |
| UNİCEF | İşlərin idarə edilməsi və göndərişlər üzrə milli elektron sistemini fəaliyyət göstərməsi. | İşlərin idarə edilməsi sistemi yoxdur (2015) | İşlərin idarə edilməsi sisteminin mövcud olması (2018) | AQUPDK-un İşlərin idarə edilməsi sistemi | **qsmən** | Komitənin mərkəzlərindən birində hazırda İşlərin idarə edilməsi sistemi sınaqdan keçirilir | | UNİCEF-in dəstəyilə ilk dəfə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə və Uşaqlara Dəstək Mərkəzləri üçün İnkişafın Qiymətləndirilməsi Aləti (SİB-R) komponentinə malik olan İdarəetmə İnformasiya Sistemi (İİS) yaradılmışdır. İİS mərkəzlərdə qeydiyyata alınmış hər uşaq üzrə real vaxt rejimində irəliləyiş hesabatlarını təmin etməyə, uşaqların işlərini idarə etməyə və izləməyə, eləcə də onların vəziyyəti barədə hesabatlar hazırlamağa imkan verir. Hazırda İİS mərkəzlərdən birində sınaqdan keçirilir və daha sonra isə ölkədə olan 11 mərkəzin hamısına yayılacaq. | |
| UNİCEF | Ölkədə uşaq hüquqları sahəsində vəziyyətin monitorinqi üçün əsas və ikincili məlumatları təhlil etmək bacarıqları yaxşılaşdırılmış qeyri-dövlət müəssisələrinin sayı | 0 (2015) | 2 (2020) | Məhrumiyyətlə üzləşən uşaqlarla bağlı tədqiqatın hesabatı | **qsmən** | 1 | | UNİCEFin ölkə nümayəndəliyi məhrumiyyətlərlə üzləşən uşaqlar ilə bağlı tədqiqatın təhlilində DSK-a dəstək verəcək və bu, DSK-nın potensialını gücləndirəcək. Texniki tapşırıq elan olunub, məsləhətçi işə götürüldükdən sonra DSK-ya toplanmış məlumatların təhlilində kömək edəcək | |
| **Məhsul 2.2.2: BMTQAK-ın marağında olan şəxslərin (qaçqınlar, məcburi köçkünlər və vətəndaşlığı olmayan şəxslər) vəziyyətinin beynəlxalq standartlara və dövlətin beynəlxalq öhdəliklərinə uyğun olması və dövlət, qeyri-dövlət və beynəlxalq təşkilatlar tərəfindən bunun müstəqil şəkildə monitorinqinin aparılması.** | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| BMTQAK | BMTQAK və milli monitorinq mexanizmlərinin mövcud və müstəqil fəaliyyət göstərməsi. | BMTQAK öz mandatını tam və azad surətdə həyata keçirir, məhdud milli mexanizmlər mövcuddur (2016) | Milli monitorinq mexanizmlərinin tam fəaliyyət göstərməsi və dayanıqlı olması. | | tam | BMTQAK sərhədləri, saxlama yerlərini monitorinq edə bilir və milli sığınacaq prosedurlarına çıxış imkanı var. | BMTQAK ilə Azərbaycan hökuməti arasında rəsmi yazışmalar. "Şərqi Avropa və Cənubi Qafqazda Sığınacaq Sistemlərinin Keyfiyyət Təşəbbüsü" layihəsinin mətbuat üçün məlumatları Birbaşa monitorinqin nəticələri fərdi monitorinq formalarına qeyd olunub. | Qaçqınlarla bağlı qanunvericiliyə dəyişikliklər, o cümlədən əlavə müdafiə mexanizminin qəbulu üçün təşviqat yüksək səviyyəli məsləhətləşmələr vasitəsilə 2017-ci ildə intensivləşdirilmişdir. Nazirlər Kabineti hökumətin şöbələri ilə konsensusa nail olmaq üçün BMTQAK-ı hüquqi dəyişikliklər təqdim etməyə dəvət etmişdir.<br><br>BMTQAK sərhəd regionlara birgə monitorinq missiyası həyata keçirmiş və sığınacaqlara göndəriş proseduru üzrə ünvanlı təlimlər keçmişdir.<br><br>BMTQAK DMX-in binalarında olan sığınacaq fayllarına çıxış əldə etmiş və sığınacaq prosedurunun icrasını monitorinq etmişdir.<br><br>BMTQAK milli və regional təlimlər və sığınacaqlar üzrə milli sərhəd və hüquq-mühafizə orqanlarının sığınacaqlar və onlarla bağlı işlər üzrə ədliyyə prosedurlarına dair təcrübələrin mübadiləsi vasitəsilə potensialın gücləndirilməsinə yönələn tədbirlər həyata keçirilmişdir.<br><br>BMTQAK saxlama yerlərində olan sığınacaq axtaran şəxslərə və qaçqınlara çıxış əldə etmiş və onlarla uyğunluq meyarları, eləcə də qeydiyyatla bağlı müsahibələr apara bilmişdir. BMTQAK, həmçinin, DMX-nın Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsi ilə birgə saxlanma yerində olan sığınacaq axtaran şəxslərlə sığınacaqlarla bağlı müsahibələr apara bilmişdir.<br>**Tədbirlər barədə yenilənmiş məlumat::**<br>Hökumətin potensialı ölkədə vətəndaşlığı olmayan şəxslərlə bağlı insidentlərin müəyyən olunub aradan qaldırılması üçün artırılır: BMTQAK 2019-cu ildə keçiriləcək siyahıyaalmada vətəndaşlığı olmayan şəxslərin müəyyən edilməsi ilə bağlı seminar keçirmək üçün beynəlxalq məsləhətçi dəvət etmişdir. BMTQAK vətəndaşlığın olmayan şəxslərlə bağlı milli qanunvericilik və təcrübələrdəki boşluqları müəyyən etmək üçün 3 aylıq layihənin icrasına başlayıb. Təhlillər aparmaq və tövsiyələr hazırlamaq üçün milli məsləhətçi ilə müqavilə bağlanmışdır. Hesabatın ilkin layihəsi Nümayəndəlik tərəfindən gözdən keçirilir və sonrakı tədbirlər üçün Hökumətlə müzakirə olunacaq.<br>BMTQAK Hökumətin məcburi köçkünlərə geniş dəstəyini təqdir edir və qarşılanmayan ehtiyacların təmin olunmasını təşviq edir: 1. BMTQAK 2016-cı ilin aprel ayında Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında döyüşlərin şiddətlənməsi nəticəsində köçkün düşmüş məcburi köçkün ailələrinə nağd pul yardımı göstərmək üçün onları müəyyən edib. 2016-cı ilin iyul ayında 70 məcburi köçkün ailəsinin (313 fərddən ibarət) hər birinə 250 AZN (157 USD) məbləğində nağd pul yardımı edilmişdir. Həmin ilin noyabr ayında isə 72 ailənin (278 fərddən ibarət) hər birinə 400 AZN (241 USD) məbləğində yardım edilmişdir.<br>2. BMTQAK müqavilə əsasında cəlb etdiyi təşkilat vasitəsilə Bakı, Sumqayıt və Fizuli şəhərlərində 3768 məcburi köçkün ailəsini hüquqi yardım və məsləhətlə təmin etmişdir. Bundan əlavə, BMTQAK Cinsi və Gender əsaslı Zorakılıqla bağlı icra etdiyi layihə çərçivəsində Bakı, Mingəçevir, Gəncə və Goranboyda 3000 məcburi köçkün arasında maarifləndirmə işlərinin aparılması və dəstək şəbəkələrinin (dövlət orqanları və QHT-lər) yaradılmasını həyata keçirir.<br>3. Hər il "Fuji Optical" şirkətinin həyata keçirdiyi "Görməyə yardım" missiyası zamanı şirkətin heyəti 2900 məcburi köçkünün görmə qabiliyyətini müayinə etmiş və 2400 cüt eynək paylamışdır.<br>4. BMTQAK Cocuq Mərcanlı kəndinə qayıdan məcburi köçkünlərin ehtiyaclarını müəyyən etmək üçün onlar arasında Birgə Qiymətləndirmə həyata keçirmişdir. Qiymətləndirmənin nəticələri hökumətə təqdim olunacaq və bu ehtiyacların qarşılanması üçün təşviqat işləri görüləcək. | |
| **Məhsul 2.2.3. Birgə hesabat vermə və BMT-nin insan hüquqları üzrə qurumlarının tövsiyələrinin yerinə yetirilməsi üçün ümumi mexanizmin mövcud olması.** | | | | | | | | | |
| BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı | Təlim proqramı və tədris planının mövcud olması və milli iştirakçı tərəflərin təqdim etdiyi məlumatların sayında artım | Yoxdur | BMT-nin insan hüquqları üzrə mexanizmlərinin daha çox ictimai tanıdılması və onlara çıxışın artması (2020) | Xüsusi veb mövcud olan hesabatlar və məlumatlar. | tam | 2017-ci ilin oktyabrında BMT-nin Ölkə üzrə İdarə Heyəti və Azərbaycanın birgə məlumatı hazırlanıb və BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal (UPR) Mexanizminin 2018-ci ildə keçiriləcək 30-cu sessiyasında Azərbaycan üzrə icmalın 3-cü sikli üçün təqdim olunub. | BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının veb saytı, UPR üzrə xüsusi veb saytlar; illik fəaliyyət hesabatları | 2017-ci ilin oktyabrında BMT-nin Ölkə üzrə İdarə Heyəti və Azərbaycanın birgə məlumatı hazırlanıb və BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal (UDİ) Mexanizminin 2018-ci ildə keçiriləcək 30-cu sessiyasında Azərbaycan üzrə icmalın 3-cü sikli üçün təqdim olunub.<br><br>2017-ci ildə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı yerli vətəndaş cəmiyyəti təşkilatlarının və hüquqşünas icmasının üzvlərinin BMT-nin insan hüquqları alətləri və mexanizmləri barədə məlumatlılığını artırmaq və onları bu mexanizmlərdə iştirak etməyə stimullaşdırmaq üçün onlarla bir sıra fokus qrupu müzakirələri təşkil edib. Ümumilikdə, yerli vətəndaş təşkilatlarının və hüquqşünaslar icmasının 30 üzvü fokus qrupu müzakirələrində iştirak edib. Fokus qrupu müzakirələrinin iştirakçılarına həssas qrupların üzvlərinin, o cümlədən əlilliyi olan insanların, məcburi köçkün və qaçqınların, həssas qadın və uşaqların, yaşlı insanların və s. hüquqlarının qorunması və təşviqi sahəsində ixtisaslaşmış 8 yerli vətəndaş cəmiyyəti təşkilatının rəhbərləri daxil olmuşdur. Fokus qrupu müzakirələri vasitəsilə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı yerli vətəndaş cəmiyyəti təşkilatlarının üzvlərini və hüquqşünas icmasını BMT-nin insan hüquqları üzrə alətləri və mexanizmləri, xüsusilə BMT-nin "İqtisadi, sosial və mədəni hüquqları haqqında Beynəlxalq Pakt", "Əlilliyi olan insanların hüquqları haqqında" Konvensiya kimi sazişlər və müvafiq müqavilə orqanları ilə tanış etmişdir. BMT-nin müqavilə orqanlarının tövsiyə və qərarlarının daha yaxşı düşünülməsində vətəndaş cəmiyyətinin oynadığı mühüm rolu ön plana çəkən fokus qrupu müzkairələrində iştirakçılar Azərbaycan tərəfindən təsdiq olunmuş sazişlərin icrasında əldə olunmuş irəliləyişlə bağlı milli məlumatların təqdim olunmasında onların iştirakı üçün zəruri olan praktiki məlumatlar və tövsiyələrlə təmin olundular. Maliyyə ilə bağlı məhdudiyyətlər səbəbilə, təlim proqramı və tədris proqramının hazırlanması 2018-ci ilədək təxirə salınıb. | Şamil olunmur |
| **Məhsul 2.2.4. Həssas qruplar (xüsusilə əlilliyi olan insanlar) tərəfindən milli müdafiə sistemlərindən istifadənin, habelə onların öz hüquqları və pozuntuların effektiv şəkildə bərpa imkanları barədə məlumatlarının artırılması** | | | | | | | | | |
| BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı | Həssas qrupların üzvləri, xüsusilə əlilliyi olan insanlar və Azərbaycanın ucqar ərazilərində yaşayanlar üçün pulsuz hüquqi xidmətlərin mövcud olması | Yoxdur | Hədəf: həssas vəziyyətdə olan qruplar üçün hüquqi xidmətlərin mövcudluğunu və onların əlçatanlığını artırmaq (2020) | İşlərin idarə edilməsi və ərizəçilər üzrə reyestr sistemi | tam | İlkin vəziyyət göstəricisi 0 olmaqla, 121 ərizəçi, o cümlədən həssas təbəqədən olan 60 qadın və 61 kişi geniş spektrli hüquqi məsələlər üzrə pulsuz hüquqi xidmətlərdən istifadə etmişdir (121 ərizəçidən 43-ü əlilliyi olan insan, 78-i isə aztəminatlı şəxslər, qaçqın və məcburi köçkünlər, təqaüdçülər və işsiz şəxslər olub). | İllik fəaliyyət hesabatı; işlərin idarə edilməsi aləti və ərizəçilərin reyestr sistemi doldurulmuşdur; hüquqi xidmətlərin təmin edilməsi üzrə təhvil-təslim aktları; | 2017-ci ildə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının yaratdığı Resurs Mərkəzi həssas qrupların üzvlərinə, o cümlədən əlilliyi olan insanlara və Azərbaycanın ucqar ərazilərində yaşayan və ya hərəkətliliyi məhdud olan insanlara pulsuz hüquqi yardım xidmətləri təmin edib, onları öz hüquqları və pozuntuların effektiv şəkildə aradan qaldırılması üsulu barədə məlumatlandırıb. Bakıda pulsuz hüquqi xidmətlərin təmin olunmasından əlavə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı Azərbaycan Respublikasının Milli İnsan Hüquqları İnstitutunun (Ombudsman) regional ofisləri ilə əməkdaşlıq etməklə, həssas təbəqədən olan və regionlarda, o cümlədən Quba, Gəncə və Cəlilabad rayonlarında və ətraf rayonlarda yaşayan insanlara həmin regionlarda pulsuz hüquqi xidmətlər təmin etmişdir. Müraciət edən şəxslərin hüquqi problemlərini maksimum mümkün dərəcədə həllinə yönələn pulsuz hüquqi xidmətlər həssas qrupların öz sosial təminat hüquqlarından, əmək hüquqlarından, mülkiyyət və mənzil hüquqlarından, istehlak hüquqlarından və s. istifadə zamanı üzləşdikləri çətinliklərin aradan qaldırılmasına əhəmiyyətli dərəcədə töhfə vermişdir. Onun Nəticə 2.2-yə töhfəsinə gəldikdə isə, insan hüquqları sahəsində beynəlxalq standartlara uyğun olaraq, milli maraqlı tərəflər, xüsusilə həssas və əlverişsiz vəziyyətdə olan qruplar üçün milli hüquq müdafiə sistemlərindən istifadə insan hüquqları sahəsində beynəlxalq standartların əsas müddəalarından biridir. Əhalinin həssas qruplarının üzvlərinin ədliyyə sisteminə çıxışının genişləndirilməsi həm həssas qrupların insan hüquqlarının, həm də beynəlxalq hüquq müdafiə mexanizmlərinə əsasən götürülən öhdəliklərin yerinə yetirilməsi üçün vacibdir. | Şamil olunmur |
| **Məhsul 2.2.5: Yeniyetmələrə, gənclərə və zəif qruplara diqqət yetirilməklə, inteqrə edilmiş cinsi və reproduktiv sağlamlıq xidmətlərinin göstərilməsi üçün hüquqi və siyasi çərçivələrin gücləndirilməsi.** | | | | | | | | | |
| UNFPA | Ailə planlaşdırma xidmətləri üzrə yeni qəbul olunmuş protokollar üzrə institusional çərçivənin təkmilləşdirilməsi üçün dövlət və qeyri-dövlət maraqlı tərəflərin iştirakı ilə keçirilən təşviqat tədbirlərinin sayı | İlkin vəziyyət: 0 | Hədəf: 12 (2017) | UNFPA Proqramına dair hesabatlar | qismən | 10 | UNFPA-nın qeydləri, Ölkə Ofisinin illik hesabatları | UNFPA-nın "aşağıdan-yuxarı" prinsipi ilə həyata keçirilən fəaliyyətləri ölkədə ailə planlaşdırma konsepsiyasının fəaliyyətə daxil edilməsi üçün yüksək səviyyəli təşviqat tədbirlərini şərtləndirib. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin dəstəyilə ailə planlaşdırması üzrə protokollar işlənib hazırlanmışdır. UNFPA-nın ölkə nümayəndəliyi və Səhiyyə Nazirliyi 2017-ci il ərzində Azərbaycanda ailə planlaşdırma xidmətlərinin təşviqi üçün 12 maarifləndirmə kampaniyası təşkil etmişdir. Qeyd olunmuşdur ki, təhlükəsiz analıq və ailə planlaşdırması arasında əlaqəlilik aşkardır və ölkədə ana ölümü səviyyəsinin azaldılmasında əldə olunan nəzərəçarpan irəliləyişə baxmayaraq, ailə planlaşdırması proqramı ana ölümü səviyyəsinin daha da çox azaldılmasına dayanıqlı töhfə verə bilərdi. KİV nümayəndələri 2017-ci ildə keçirilən çoxsaylı tədbirlərdə iştirak edib. | Azərbaycan hökuməti ölkədə ailə planlaşdırılma məsələlərinə xüsusi diqqət yetirilməsini hələ də təxirə salır. Səbəblər aşağıdakılardır: ölkədə əhali sayının azalması barədə miflərlə bağlı olaraq, kontraseptiv vasitələrdən istifadənin siyasiləşdirilməsi; səlahiyyətli orqanların aborta maliyyə maraqlarının olması (şəxsin öz hesabına ödənilən pullar). İkinci səbəb isə daha açıqlayıcı xarakter daşıyır: səhiyyə xidməti təmin edən müəssisələr müştərilərinə uşaqlıqdaxili qurğu təklif etməklə onları 3-5 il müddətinə itirmək istəmirlər. Çünki eyni müştərinin il ərzində 2-3 dəfə abort üçün müraciət etməsi həkim üçün maliyyə marağı yaradır. |
| UNFPA | UNFPA-nın dəstəyilə beynəlxalq standartlarla uzlaşan, cinsiyyətlə bağlı yeni əhatəli milli tədris proqramının hazırlanması | İlkin vəziyyət: Yoxdur | Hədəf: Mövcud olması (2017) | UNFPA Proqramına dair hesabatlar | tam | Bəli | Təhsil Nazirliyinin qeydləri | 2017-ci il ərzində, UNFPA Təhsil Nazirliyi və İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə birlikdə cinsiyyət üzrə əhatəli planı orta məktəblərin tədris proqramları ilə uzlaşdırmaq istiqamətində fəaliyyətini davam etdirmişdir. Yeni tədris proqramında 6-9-cu siniflər üçün "Sağlam həyat tərzi" qeyri-icbari fənn kimi təklif olunub. Pilot məktəblər tədris proqramı ilə təmin olunub. Müəllimlər, valideynlər və icma rəhbərləri üçün təlim keçirilib. | Cinsiyyət üzrə əhatəli tədris proqramı vətəndaş cəmiyyətinin və dindar icmaların müəyyən müqaviməti ilə üzləşib Valideynlər və müəllimlər proqramın reproduktiv sağlamlıq konsepsiyasına qəti qarşı çıxıblar. Sonda proqramın adını dəyişərək "Sağlam həyat tərzi" adlandırmaq və onu qeyri-icbari fənn kimi təklif etmək qərara alınıb. |
| UNFPA | Böhranlar başlayan zaman MISP tətbiq etmək potensialına malik olan rayonların xüsusi çəkisi (%) | İlkin vəziyyət: 15% | Hədəf: 40% (2017) | UNFPA Proqramına dair hesabatlar | tam | 50% | Səhiyyə Nazirliyinin hesabatları | Minimum İlkin Xidmət Paketi (MİSP) Azərbaycanın bütün ərazisinin 50%-də tətbiq olunub. MİSP dəstləri ölkəyə çatdırılıb və təlimlər zamanı istifadə olunub. 2017-ci ilin mart ayında Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyi arasında üçtərəfli müqavilə imzalanıb. MİSP təlimi Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin ekspertləri tərəfindən keçirilib. | MİSP-in tətbiqi üçün sektorları əhatə edən güclü yanaşma tələb olunur. Rəhbərlik/himayəçiliklə bağlı olaraq əlaqələndirmə çətinlik yaratmışdır. Yekunda bu fəaliyyət üzrə əlaqələndirici orqan kimi Səhiyyə Nazirliyinin müəyyən olunması qərara alınmışdır. |
| **Məhsul 2.2.6: Gender bərabərliyinin və reproduktiv hüquqların təbliği üçün dəlillərə əsaslanan siyasətlərin hazırlanması və həyata keçirilməsi üçün milli təşkilati potensialların gücləndirilməsi.** | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| UNFPA | UNFPA-nın təbliğatla bağlı / texniki dəstəyi ilə, gender zəminində zorakılıq və zərərli təcrübələrə dair sorğuların sayı və gender bərabərliyi və cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə siyasətin işlənib hazırlanması üçün nəticələrin yayılması. | İlkin vəziyyət: 8 | Hədəf: 13 (+5 yeni 2016-2020)<br>+1 yeni (2017) | UNFPA Proqramına dair hesabatlar | tam | 1 | Əlaqəli müqavilə sənədləri, tədqiqat anketləri | Gender zorakılığının yayılma səviyyəsi və qadınların çətinliyin öhdəsindən gəlməsi ilə bağlı strategiyalar üzrə milli səviyyədə reprezentativ sorğu keçirilmişdir. Məlumatların toplanması ilin sonuna yaxın yekunlaşdırılmış, nəticələrin təhlili, eləcə də müvafiq təşviqat işi 2018-ci il üçün nəzərdə tutulur. Bu tədqiqat "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun qəbulundan (2010) sonra gender zorakılığının yayılma səviyyəsi barədə ilk araşdırmadır. | Gender zorakılığının qarşısının alınması və dəstək sahəsində strateji müdaxilə tədbirlərini dəstəkləmək üçün ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin maliyyələşməsinin nəzərəçarpacaq dərəcədə azalması Xüsusilə səhiyyə sektorunda uğur üçün ən vacib faktorlar birgə iştirak prosesi və bilik və vərdişlərin institusionallaşdırılmasıdır. Bu səylər irimiqyaslı təbliğat kampaniyaları ilə müşayiət olunmalıdır. Gender zorakılığı ilə bağlı etibarlı və reprezentativ məlumatların mövcudluğu məsələsinə də prioritet verilməlidir. |
| UNFPA | Gender zəminində zorakılığın qarşısının alınması, müdafiə və cavab tədbirlərini inteqrə edən protokolların və standartların institutsionallaşdırılması üçün dövlət və qeyri-dövlət iştirakçıları ilə keçirilən təbliğatla bağlı tədbirlərin sayı | İlkin vəziyyət: Yoxdur | Hədəf: Bəli (2017) | UNFPA Proqramına dair hesabatlar | tam | Bəli | Əlaqəli müqavilə sənədləri, media məhsulları/linklər | Təşviqat işləri əsasən gender bərabərliyi və gender zorakılığının qarşısının alınması və cavab tədbirləri ilə bağlı məsələlərə diqqət yetirmişdir. Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının hazırlanması üçün Hökumətə ekspert dəstəyi təmin olunmuşdur. Yenidən baxılmalı olan müddəaları müəyyən etmək üçün gender zorakılığı ilə bağlı milli qanunvericiliyin təhlili üçün beynəlxalq ekspert dəstəyi təmin edilib. Bir sıra tövsiyələr (əlaqədar qanunvericilik aktlarına dəyişiklik etmək üçün 16 spesifik tövsiyə və müdafiə məsələlərinə dair praktiki tədbirlərə dair 18 tövsiyə) hazırlanıb sonrakı tədbirlər üçün Hökumətə təqdim olunmuşdur. Bununla yanaşı, beynəlxalq və yerli hüquqi ekspertlər tərəfindən gender zorakılığının qarşısının alınması və cavab tədbirlərinə dair Milli Fəaliyyət Planı yenilənmiş və bu sahədə qurumlararası əlaqələndirmə və monitorinq mexanizmi üçün təlimatlar hazırlanmışdır. Hər iki sənəd sonrakı tədbirlər və təsdiq üçün rəsmi şəkildə Hökumətə təqdim olunmuşdur. | Sırf reproduktiv sağlamlıq və hüquqlar və gender əsaslı ayrı-seçkilik sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatlarının sayı çox məhduddur və onların ölkədə effektli təşviqat kampaniyası aparmaq potensialı yaxşı inkişaf etməyib.<br>Gender zorakılığına münasibətlə bağlı əngəllər də qalır. Bununla yanaşı, bu sahədə olan əsas maraqlı tərəflər, o cümlədən Hökumət və vətəndaş cəmiyyəti arasında müvafiq məsələlərlə bağlı ortaq mövqenin olmaması vəziyyəti çətinləşdirir. Azərbaycanda bir neçə illik nisbi stabillikdən sonra vətəndaş cəmiyyəti təşkilatlarının dayanıqlılığının nəzərəçarpan dərəcədə aşağı düşməsi QHT-lərin fəal iştirakını daha da çətinləşdirir. |
| UNFPA | İnsan hüquqları üzrə müqzvilə orqanlarının cinsi və reproduktiv sağlamlıq və hüquqlarla bağlı tövsiyələri və öhdəliklərinin icrasının monitorinqi üçün funksional izləmə və hesabatvermə sistemi | İlkin vəziyyət: Yoxdur | Hədəf: Bəli (2017) | UNFPA Proqramına dair hesabatlar | tam | bəli | Əlaqəli müqavilə sənədləri | İnsan hüquqları üzrə saziş orqanlarının cinsi və reproduktiv sağlamlıqla bağlı tövsiyələrinin icra vəziyyətini effektiv şəkildə izləmək və monitorinq etmək üçün dövlət orqanlarının və vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri üçün bir sıra təlimlər keçirilmişdir. | Vətəndaş cəmiyyəti təşkilatlarının fəal iştirakı vasitəsilə insan hüquqları dilinə xüsusi diqqət yetirməklə, cinsi və reproduktiv sağlamlıqla bağlı təşviqat və maarifləndirmə işlərinə daha çox diqqət yetirilməlidir. Bu təşəbbüsü dəstəkləmək üçün potensialın gücləndirilməsinə yönələn tədbirlər yerli QHT-lərin bu sahə üzrə daha yaxşı əlaqələndirilmiş fəaliyyətə rəhbərlik etmək potensiallarının artırılmasına yönəlməlidir. Nəzərdə saxlamaq lazımdır ki, hesabatlılıq insan hüquqlarına əsaslanan yanaşmaların hər bir mərhələsinin tərkib komponentidir. Bu yanaşma cinsi və reproduktiv sağlamlıqla bağlı siyasət və proqramlar barədə qərarların qəbulu, onların icrası və monitorinqinin bütün səviyyələrində əhalinin təsirə məruz qalan bütün qruplarının və vətəndaş cəmiyyəti təşkilatlarının əsaslı iştirakını ehtiva edir. |
| **Məhsul 2.2.7. İnsan alveri cinayətlərinin daha yaxşı təqibi və insan alveri qurbanlarının və potensial qurbanlarının hüquqlarının beynəlxalq təcrübələrə uyğun şəkildə qorunması üçün məhkəmələrin potensialının gücləndirilməsi** | | | | | | | | | |
| BMqT | Məhkəmə tərəfindən təqiblərin artması, insan alveri qurbanlarına münasibətdə məhkəmə tərəfindən daha yaxşı rəftar | İlkin vəziyyət: 171 (2015-ci ildə). | 5% artım (2018-ci ilədək) | Layihə hesabatları | qsmən | İşin bitmiş hissəsi 50% təşkil edir, qalan fəaliyyətlər davam edəcəkdir. | İclas protokolları, layihə hesabatı, tədbir hesabatları, davamiyyət vərəqəsi, təlim vəsaitləri, fotolar | Hökumət hakimlər və prokurorlar üçün insan alveri ilə mübarizə üzrə ixtisasartırmaya dair tədris proqramına münasibət bildirib. İşçi qrupun ixtisasartırma təliminin materiallarına dair birinci hökumətlərarası iclası keçirilib<br>Tədbirlər barədə yenilənmiş məlumat: İnsan alveri üzrə Elektron tədris platforması (Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən hazırlanmış) vasitəsilə (Ədliyyə Akademiyasının saytında yerləşir) Ədliyyə Akademiyası tərəfindən ədliyyə sistemi işçiləri üçün distant kursların hazırlanması və təqdim edilməsi potensialının artırılması. Elektron Tədris Platformasına video kurs yüklənmişdir. Bu video kurs distant təlim iştirakçıları üçün əlçatandır. Platformanın quraşdırılması ilə bağlı işlər yekunlaşmaq üzrədir və hazırda kurslar platformaya yüklənilir.<br>Regional Ağır Cinayət Məhkəmələrinin hakimləri üçün Təlimçilərin Təlimi üzrə Təkmil Proqramın işlənib hazırlanması və təlimlərin keçirilməsi: i) Hakimlər və prokurorlar üçün insan alverinə qarşı mübarizəyə dair masaüstü kitabçanın Ədliyyə Akademiyasının tədrisində tətbiqi, ii) Azərbaycan və ingilis dilində olan variantların hər birinin 200 nüsxədə dərc olunması, iii) Hökumət tərəfindən insan alveri ilə mübarizəyə dair qabaqcıl əyani vəsait çərçivəsinin təsdiqi<br>Ədliyyə Akademiyasında Beynəlxalq Miqrasiya Qanunvericiliyi (BMQ) Proqramının işlənib hazırlanması: BMQ üzrə tədris proqramının hazırlanması prosesi başlayıb<br>İnsan alveri qurbanlarının məhkəməyə çıxış imkanı və məhkəmə sisteminin insan alveri ilə mübarizədə rolu üzrə seminar: Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Ədliyyə Akademiyası və QHT-ləri təmsil edən 33 vəkil və hüquqşünasa insan alveri ilə mübarizə üzrə təlim keçirilmişdir. | Hökumət qurumlarından materiallara münasibət öyrənmək uzun çəkdi |
| BMqT | Sahələrarası əməkdaşlığı genişləndirmək üçün hakimlərin və məhkəmə təlim işçilərinin şəbəkəsinin fəaliyyət göstərməsi. | İlkin vəziyyət: Belə bir şəbəkə yoxdur. | Hədəf: Şəbəkənin təsis olunması (2018) | Layihə hesabatları | qsmən | İşin 30% həyata keçirilib | İclas protokolları, layihə hesabatı, tədbir hesabatları, davamiyyət vərəqəsi, təlim vəsaitləri, fotolar | Hökumət hakimlər və prokurorlar üçün insan alveri ilə mübarizə üzrə ixtisasartırmaya dair tədris proqramına münasibət bildirib. İşçi qrupun ixtisasartırma təliminin materiallarına dair birinci hökumətlərarası iclası keçirilib | |
| **Nəticə 2.3. 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək göstərilməsi** | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1) icbari tibbi sığortanın tətbiq olunması.<br>2) Qeyri-yoluxucu xəstəliklərlə bağlı vaxtsız ölüm səviyyəsi.<br>3) Əhali arasında yeni doğulanların cinslər üzrə nisbəti.<br>4) Kontraseptiv vasitələrdən istifadə səviyyəsi )<br>5) Gender zorakılığının (məişət zorakılığı) yayılma səviyyəsi.<br>6) Məktəbəqədər təhsil proqramları ilə əhatə olunan uşaqların xüsusi çəkisi (%)<br>6.1 Cəmi<br>6.2 Qızlar<br>6.3 Oğlanlar<br>6.4 Şəhər<br>6.5 Kənd<br>7) İnklüziv təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud olan uşaqların xüsusi çəkisi (%).<br>7.1 Cəmi<br>7.2 Qızlar<br>7.3 Oğlanlar<br>8) Həssas təbəqələrin (yoxsullar, çətin şəraitdə yaşayan uşaqlı ailələr, sağlamlıq imkanları məhdud olan uşaqlar və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar; yaşlılar; qaçqınlar və MK-lər, insan alveri qurbanları) sosial müdafiə xidmətləri ilə əhatə edilməsi<br>8.1 Məişət zorakılığının qurbanları üçün dəstək mərkəzləri<br>8.2 Sağlamlıq imkanları məhdud olan uşaqların sosial xidmətlərlə əhatə olunması:<br>8.3 ÜSY alan ailələrin xüsusi çəkisi (%)<br>8.4 Dövlət himayəsində olan uşaqlar üçün ailə qayğı xidmətləri<br>8.5 Yaşlı insanlar üçün sosial dəstək | 1) Tətbiq olunmur<br>2) 21 583;<br>3) 115.6 (2013);<br>4) Hər hansı üsul: 54.9%; Müasir üsul: 13.9% (Demoqrafik Səhiyyə Sorğusu 2011);<br>5) 15% (2011) (Qadınlara qarşı zorakılığın aradan qaldırılması barədə milli hesabat). 2011);<br>6.1)Cəmi: 13.3% (2014);<br>6.2) Qızlar:46.80%;<br>6.3) Oğlanlar: 53.2%;<br>6.4) Şəhər: 19.2%;<br>6.5) Kənd:7.5%22;<br>7.1) Cəmi: 2% (2013);<br>7.2) Qızlar:50%;<br>7.3) Oğlanlar: 50%;<br>8.1) 2<br>8.2 )1300;<br>8.3) 6% (01.09.2014);<br>8.4) 1<br>8.5) 2<br>9) 1 725 141<br>10) 42 920 | 1) Tətbiq olunur<br>2) 30-70 yaş qrupu üzrə 20% azalma<br>3)110 (2020)<br>4) İstənilən üsul: 65%; müasir üsul: 25% (DSS 2011<br>5)10%<br>6.1)Cəmi: 30%<br>6.2) Qızlar: 50%<br>6.3) Oğlanlar: 50%<br>6.4) Şəhər: 35%<br>6.5) Kənd: 15%<br>7.1)Cəmi: 30%<br>7.2) Qızlar: 50%<br>7.3) Oğlanlar: 50%<br>8.1) 5<br>8.2 ) 10 000<br>8.3) Texniki və nəzarət yardımı alan ailələrin sayında 20% azalma (hədəf 4.8%)<br>8.4) 5<br>8.5) 4<br>9) 15% azalma<br>10) 25% azalma | BMT-nin Ölkə üzrə İdarə Heyəti<br>BMT-nin Ölkə üzrə İdarə Heyəti<br>Beynəlxalq Miqrasiya Təşkilatı<br>Səhiyyə Nazirliyi<br>ÜST<br>Dövlət Statistika Komitəsi<br>UNFPA<br>UNFPA<br>"Təhsil Nazirliyi<br>Dövlət Statistika Komitəsi"<br>Təhsil Nazirliyi<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>Səhiyyə Nazirliyi | | | | | |
| **Məhsul 2.3.1. Keyfiyyətli, ədalətli və əlçatan müdafiə, təhsil, səhiyyə və qidalanma xidmətlərinin yetkin yaşlı əhaliyə, o cümlədən analara və yenidoğulmuşlara, uşaqlara, gənclərə və yeniyetmələrə, xüsusən də ən həssas qruplara və insan alveri qurbanlarına doğru genişləndirilməsi.** | | | | | | | | | |
| | | | | | | | | | |
| **UNİCEF/ÜST/BMqT** | İnklüziv təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud olan uşaqların xüsusi çəkisi (%) | 2% (2013) | 30% (2020) | Təhsil Nazirliyinin hesabatları | | | | Bu göstəricinin dəyişdirilməsi nəzərdə tutulub<br>ÜST:<br>ÜST tərəfindən digər BMT təşkilatları (məs.UNİCEF) ilə birlikdə milli immunizasiya sisteminin gücləndirilməsinə texniki dəstək göstərilmişdir.<br>Bu dəstəyin nəticəsi olaraq, Azərbaycan 2016-cı ildə məxmərək və qızılcanın aradan qaldırılmasına dair sertifikat almışdır. 2017-ci ildə fəaliyyətlərin monitorinqi üzrə milli sistemə də dəstək göstərilmişdir. Sıravi tibb işçilərinə peyvəndlərin təhlükəsizliyi və əks-göstərişlər barədə təlimlərin, eləcə də peyvəndlərin idarə edilməsi üzrə ən yaxşı təcrübələrin müəssisələrdə rəsmi şəkildə tətbiqinə dair seminarın keçirilməsinə texiki və maliyyə dəstəyi göstərilmişdir. Peyvəndlərin tətbiqinə dair standart əməliyyat protokolları hazırlanmış/yenilənmişdir.<br>ÜST qeyri-yoluxucu xəstəliklərə dair milli strategiyanın icrasına BMT-nin göstərdiyi dəstəyə rəhbərlik etməyə davam etmiş, tədbirlər planı 2015-ci ildə təsdiq olunmuşdur. 2017-ci ildə ÜST-nin maliyyə və texniki dəstəyi ilə Azərbaycanda Səhiyyə Nazirliyi ilə birlikdə qeyri-yoluxucu xəstəliklərin risk faktorları üzrə "STEP" metodologiyası əsasında sorğu (bütün ölkədə) keçirilib. Parlament tərəfindən yeni qəbul olunan "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun 1 yanvar 2018-ci ildən qüvvəyə minib. Milli İctimai Səhiyyə Mərkəzi ilə birlikdə birgə təlim və maarifləndirmə tədbirləri həyata keçirilib<br>Hesabat dövrü ərzində ana və uşaq sağlamlığı üzrə milli proqramın icrasına texniki və ekspert dəstəyi göstərilib. ÜST və UNFPA-nın dəstəyilə ölkə boyu keçirilən seminar və təlimlər vasitəsilə ana ölümlərinin qarşısının alınması üçün Kritik Vəziyyətlərin (doğuş zamanı ananın kritik vəziyyətdə olması) Təhlilinin tətbiqi Əsas milli ekspertlərin bu sahədə fərqlənən ölkəyə tanışlıq səfəri təşkil olunub. Yeni siyasət sənədləri hazırlanır<br>Azərbaycanın 2 rayonunda icbari tibbi sığortanın pilot şəkildə sınaqdan keçirilməsinə texniki dəstək göstərilib. ÜST tərəfindən işçilər üçün təşkil olunan beynəlxalq təlim sessiyaları vasitəsilə qurumun potensialının artırılması həyata keçirilib.<br>BMqT:göndərişlər olduqda və insan alveri qurbanlarının və həssas təbəqədən olan fərdlərin birbaşa müəyyən edilməsi əsasında birbaşa yardım göstərməyə davam edir | |
| UNİCEF | İnklüziv təhsil üzrə təqdim olunan tədris proqramlarının sayı | 0 (2015) | 3 (2020) | Təhsil Nazirliyinin hesabatları | **qsmən** | 1 | Təhsil Nazirliyi | Təhsil Nazirliyi tərəfindən Bakının 4 məktəbində inklüziv təhsil modeli tətbiq olunub. İl ərzində sağlamlıq imkanları məhdud olan 40 uşaq inklüziv şəraitdə təhsil alıb UNİCEF dörd məktəbdə inklüziv siniflərin müəllimlərinə davamlı öyüdçülük və peşəkar dəstək göstərib. Müəllimlərin tədrisöncəsi hazırlığı üzrə təlim proqramı işçi qrupu, o cümlədən UNİCEF-in texniki ekspertləri tərəfindən nəzərdən keçirilib. Xüsusi təhsil üzrə yeni tədris proqramı xüsusi təhsil üzrə bakalavriat və magistratura proqramlarında yalnız xüsusi deyil, həm də inklüziv təhsil məsələsini əhatə edir. 2017-ci ilin sonunda UNİCEF tərəfindən dəstək verilmiş inklüziv təhsil haqqında milli proqram Prezident tərəfindən elan olunmuşdur. | |
| UNİCEF | Məktəblərdə milli standartlara cavab verən sanitariya və gigiyena qurğularına çıxışı olan uşaqların xüsusi çəkisi (%) | 98% (2016). | Müəyyən edilməli (2020). | Təhsil Nazirliyinin hesabatları | Bu göstərici 2018-ci ildə yenidən nəzərdən keçiriləcə | Müəyyən edilməli (Tezliklə məktəblərdə həyata keçiriləcək SSG tədqiqatı zamanı müəyyən ediləcək) | Təhsil Nazirliyi | 167 məktəbdə Su, Sanitariya və Gigiyena (SSG) vəziyyəti barədə mənzərə ilə tanış olmaq, o cümlədən SSG göstəriciləri ilə bağlı cari vəziyyəti müəyyən etmək və hədəf məktəblərin coğrafi yerləşməsi, ölçüsü, resursların mövcudluğu, gigiyena və sanitariya ilə bağlı məlumatlılıq səviyyəsi, valideyn və icmaların iştirakı ilə bağlı ehtiyacların xəritələşdirilməsi üçün su, sanitariya və gigiyena ilə bağlı vəziyyətin təhlili aparılmışdır. Qiymətləndirmənin nəticələri məktəblərdə bütün səviyyələrdə SSG üzrə gələcəkdə proqramın tərtib olunması və təşviqini gücləndirəcəkdir. | |
| UNİCEF | Qidalanma ilə bağlı davranışlar üzrə "İnkişaf naminə əlaqə" strategiyası Səhiyyə Nazirliyi tərəfindən yayılması | Yoxdur | Mövcuddur (2017) | UNİCEF-in hesabatları | **qsmən** | Səhiyyə Nazirliyinin rəsmilərinin diqqəti qidalanma məsələsinə çəkilib. | Səhiyyə Nazirliyi | Səhiyyə Nazirliyi hazırda qidalanma ilə bağlı tədbirlər planı hazırlayır. UNİCEF-in rəhbərliyi ilə aparılan təbliğat işləri, o cümlədən unun zənginləşdirilməsi barədə dəyirmi masa və əlaqə tədbirləri vasitəsilə Nazirliyin və digər müvafiq dövlət orqanlarının yüksək səviyyəli rəsmilərinin diqqəti qidalanma məsələlərinə çəkilib. | |
| UNİCEF | Təsdiq olunmuş illik büdcəyə və keyfiyyət standartlarına malik olan, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial və hüquqi xidmətlərin sayı | 4 (2015) | 10 (2020) | Hazırlanmış standart | **qsmən** | Uşaqların Müdafiəsi Sistemində uşaqlarla və ailələrlə Sosial İş üzrə Təlimatlar və Yetkinlik Yaşına Çatmayanların Mühakiməsi Sistemində uşaqlarla və ailələrlə Sosial İş üzrə Təlimatların layihəsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və UNİCEF Uşaqların Müdafiəsi Sistemlərində uşaqlarla və ailələrlə Sosial İş üzrə Təlimatlar və Ədliyyə Sistemində uşaqlarla və ailələrlə Sosial İş üzrə Təlimatlar hazırlayıb. Bu üç texniki sənəd rəsmi təsdiq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və əlaqədar qurumlara təqdim olunacaq. | Qanunla ziddiyyətli hallarda olan və ya bu risklə üzləşən uşaqlar arasında zəifliklərin aradan qaldırılmasını təmin etmək üçün sosial iş sektoru ilə ədliyyə sektoru arasında, o cümlədən Nazirliklər arasında əlaqələri gücləndirmək zəruri olacaq. |
| UNİCEF | Hökumətin gender faktorunun təhlilini əks etdirən və xərclər bölgüsü müəyyən edilmiş Sosial Xidmətlər üzrə Strateji planı qəbul etməsi | Strateji plan yoxdur (2015) | Strateji planın müvafiq dövlət qurumlarına təqdim olunması və təsdiqlənməsi (2018) | Hesabat | **qsmən** | Sosial Xidmətlər Strategiyasının layihəsi hazırlanıb | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli QHT tərəfdaşlar və UNICEF uşaqlara yönələn və ədaləti diqqət mərkəzində saxlayan Sosial Xidmətlər Strategiyasının layihəsini hazırlayıb. Nazirlik və UNİCEF birlikdə bu strategiyanı gələn il müvafiq maraqlı tərəflərə təqdim edəcək və onun təsdiqi üçün təbliğat aparacaqdır. | Maliyyə məlumatlarının olmaması təklif olunan fəaliyyət planının xərclər üzrə bölgüsünü hazırlamağı çətinləşdirib. |
| UNİCEF | Tibbi heyətin körpə və azyaşlı uşaqların qidalanması ilə bağlı məsləhətlərin verilməsi üzrə təlim keçdiyi uşaq poliklinikalarının xüsusi çəkisi (%) | 0 | 60%<br>Hədəf 5% (2017) | UNİCEF-in hesabatları | **tam** | Heyətin 13% (polikliniklərin sayı üzrə proxy göstəricisi) (2020 hədəfinə qarşı) | Səhiyyə Nazirliyi | Tibb işçiləri üçün (əsasən pediatrlar) körpə və azyaşlı uşaqların qidalanması üzrə təlim paketi hazırlanmış və Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun tədris proqramına daxil edilmişdir. Ölkənin 3 rayonunda körpə və azyaşlı uşaqların qidalanması ilə bağlı 4 günlük səyyar təlimlər keçirilmiş, nəticədə ətraf rayonlardan olan 177 pediatr (poliklinikalarda çalışan pediatrların 13 faizə yaxını) iş başında təlim keçmişdir. | Bu təlim paketinin Davamlı Tibbi Təhsil Sisteminə daxil edilməsi bürokratik çətinliklərlə bağlı bəzi maneələrlə üzləşir. |
| UNİCEF | Qanazlığının azaldılması, o cümlədən müstəsna olaraq ana südü ilə qidalanma üzrə milli əlaqə planı hazırlanıb icra olunması | Yoxdur | Əlaqə planı mövcuddur və icra olunur (2017) | Strategiya və Tədbirlər planı sənədləri | **tam** | Müstəsna olaraq ana südü ilə qidalanma üzrə Əlaqə Strategiyası hazırlanıb və icra olunur | Səhiyyə Nazirliyi | Müstəsna olaraq ana südü ilə qidalanmanın təşviqinə yönələn əlaqə strategiyası "Bilik, Münasibət və Təcrübələr" metodologiyasına əsaslanan sürətli qiymətləndirmə əsasında hazırlanmışdır. Milli Ana südü ilə Qidalanma Həftəsi zamanı Səhiyyə Nazirliyi ilə birlikdə keçirilmiş irimiqyaslı əlaqə tədbirləri 500 000-ə yaxın insanı əhatə etmişdi.r | |
| UNİCEF | Buğda ununun zənginləşdirilməsinə icazə verən qanunvericilik normasının qəbulu | Qanunvericilik norması yoxdur | Qanunvericilik norması qəbul edilib (2020) | UNİCEF-in hesabatları | **qsmən** | İl ərzində nümayəndəlik müxtəlif kanallardan istifadə edərək unun zənginləşdirilməsini təbliğ etmişdir. Bütün müvafiq dövlət, qeyri-hökumət, kommersiya və beynəlxalq təşkilatların iştirakı ilə dəyirmi masa keçirilmişdir. | Səhiyyə Nazirliyi | UNİCEF "Unun zənginləşdirilməsi haqqında" qanun layihəsinin hazırlanmasında Səhiyyə Nazirliyinə dəstək göstərmiş, qanun layihəsi müvafiq maraqlı tərəflərin, o cümlədən dövlət orqanlarının rəsmilərinin, parlamentin üzvlərinin, elmi icmanın, yerli QHT-lərin, dəyirmançıların və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən dəyirmi masada təqdim olunmuşdur. Məsləhətləşmə qanazlığı və sinir borusu qüsurlarının aradan qaldırılmasının ən effektli üsulu kimi unun zənginləşdirilməsi üzrə milli proqramın konsepsiyasına əsas siyasətçilərin və maraqlı tərəflərin sadiqliyini gücləndirdi. Qanun layihəsi hazırda nəzərdən keçirilir və müzakirə edilmək üçün Parlamentə təqdim olunacaq. | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| UNİCEF | Doğum çəkisi aşağı və çox aşağı olan uşaqlar barədə statistik məlumatların toplanması | Məlumatlar beynəlxalq standartlara uyğun şəkildə toplanılmır (2015) | Məlumatlar beynəlxalq standartlara uyğun şəkildə toplanılır (2020) | İcmal hesabatı | **qsmən** | Hesabat tövsiyələrlə birgə təqdim olunmuşdur. | Səhiyyə Nazirliyi | | Doğum çəkisi aşağı və çox aşağı olan yenidoğulmuşlar üzrə məlumatların toplanması alətləri və metodologiyalarına baxış zamanı müəyyən olunmuşdur ki, doğum çəkisi aşağı və çox aşağı olan yenidoğulmuşların təhlili yalnız perinatal dövrdə mümkündür, bu dövrdən sonra bütün tibbi qeydlər çap formatında olur və bu da doğum evindən çıxdıqdan sonra uşaqların izlənməsini demək olar ki, mümkünsüz edir. UNİCEF-in ölkə nümayəndəliyi Səhiyyə İnformasiya Sistemlərinin təkmilləşdirilməsini və sistemin səhiyyənin müxtəlif səviyyələri arasında inteqrasiya edilməsini təbliğ etməyə davam edəcək. |
| UNİCEF | Uşaqların Sağlamlıq İmkanlarının Məhdudluğunun Erkən Aşkarlanması və Qarşısının alınması üzrə əhatəli Sistemin ölkə ərazisinə yayılması | Sistem mövcud deyil (2015) | Sistem mövcuddur (2020) | UNİCEF-in hesabatları | **qsmən** | Təlim kursu hazırlanıb, pilot şəkildə sınaqdan keçirilib və müəssisələrə inteqrasiya edilib | Səhiyyə Nazirliyi | Ankara Universitetinin mütəxəssislərinin köməyilə, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun baş təlimçiləri tərəfindən Uşaq İnkişafının Monitorqi (UİM) üzrə iki günlük təlim paketi hazırlanıb. Artıq 6 yerli baş təlimçi ümumi tibbi xidmət səviyyəsində pediatrlara bu təlimi keçmək üçün hazırlıqlıdır və keçə bilərlər. | |
| UNİCEF | Beynəlxalq standartlara uyğun olaraq Uşaqların Sağlamlıq İmkanlarının Məhdudluğunun Erkən Aşkarlanması və Qarşısının alınması üzrə Milli Qaydaları qəbul etmiş uşaq poliklinikalarının sayı | 0 | 60% (2020<br>10% (2017)) | UNİCEF-in hesabatları | **tam** | Heyətin 15% (polikliniklərin sayı üzrə proxy göstəricisi) | Səhiyyə Nazirliyi | Bakı şəhərində bir pilot təlim və regionlarda ətraf rayonlardan gələn pediatrların iştirakı ilə üç səyyar təlim təşkil olunmuşdur. Ümumilikdə 210 pediatr (poliklinikalarda çalışan pediatrların 15%-ə yaxını) 2017-ci ilin sonunadək Uşaq İnkişafının Monitorinqi üzrə təlim keçmişdir. | |
| UNICEF | İşlərin İdarə edilməs/göndəriş sistemi həssas ailələrə və uşaqlara dəstəkv verir | İşlərin İdarə edilməs/göndəriş sistemi mövced deyildir (2016) | İşlərin İdarə edilməsi üzrə yeni Konsepsiya Sənədi hazırlanmışdır(2017)<br><br>İşlərin İdarə edilməs/göndəriş sistemi işlək vəziyyətdədir (2020) | Rəsmi sənədlər | **tam** | İşlərin İdarə edilməsi üzrə Texniki Tapşırıq və Konsepsiya Sənədinin layihəsi hazırlanmış və hökümət tərəfdaşlarına təqdim edilmişdir | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | UNİCEF 2017-ci ildə İşlərin İdarə edilməsi üzrə Texniki Tapşırıq və Konsepsiya Sənədinin layihəsinin hazırlanmasına dəstək verib.<br>Yerli pilot sosial xidmətlər və göndəriş sistemi üçün hazırlanmış konseptual çərçivədə sosial iş mütəxəssislərinin, əsas hökumət strukturlarının və QHT-lərin təklifləri və fikirləri nəzərə alınmışdır. Göndəriş mexanizmi əsasən yerli icra hakimiyyəti orqanlarının uşaqların müdafiəsi xidmətlərində rolunun gücləndirilməsinə və sosial xidmətlərin təmin olunmasında əsas hökumət maraqlı tərəfləri (sosial müdafiə, təhsil, səhiyyə, əmək, gənclər, polis) arasında əlaqələndirmənin yaradılmasına yönəlir. UNİCEF 2018-ci ildə seçmə rayonlarda çərçivənin sınaqdan keçirilməsinə dəstək göstərəcək. | |
| UNİCEF | Ölkədə yetkinlik yaşına çatmayanların mühakiməsi üzrə fəaliyyət göstərən ixtisaslaşmış heyətlərin (hakimlərdən, prokurorlardan və hüquqşünaslardan ibarət) sayı | 1 (2014) | 4 (2020)<br>Hədəf 2 (2017) | Rəsmi sənədlər | **qsmən** | 1 | Ədliyyə Nazirliyi | Avropa İttifaqının (Aİ) və UNİCEF-in dəstəyilə 2017-ci ildə pulsuz hüquqi yardımın göstərilməsi davam etmiş, on rayonda 804 iş çərçivəsində 980 uşaq əhatə olunmuşdur. Aİ tərəfindən maliyyələşdirilən "Azərbaycanda dövlət və qeyri-dövlət iştirakçıları üçün milli potensialın yaradılması vasitəsilə uşaqların ədliyyəyə çıxışının təşviqi" layihəsi 2017-ci ildə başa çatdırılmışdır. Müstəqil məsləhətçi tərəfindən aparılmış summativ qiymətləndirmənin nəticələrinə əsasən, ümumilikdə nəticələr layihənin uyğunluöu, effektliliyi, səmərəliliyi və təsiri baxmından çox müsbət olub. Birgə təsdiq iclasında milli maraqlı tərəflərlə dayanıqlılıq məsələsi müzakirə edilmiş, həm Hökumət, həm də UNİCEF Sosial Xidmətlər Strategiyasının tərkib hissəsi kimi hazırda hazırlanmaqda olan minimum sosial xidmətlər paketinə hüquqi yardım xidmətlərinin daxil edilməsinə yönələn səylərini davam etdirmək öhdəliyi götürüb.<br>Dünya Bankının dəstəyilə, UNİCEF Yetkinlik Yaşına Çatmayanların Mühakiməsi üzrə Milli Strategiyanın layihəsinin hazırlanmasına dəstək vermiş, bu strategiya yekunlaşdırılıb Ədliyyə Nazirliyinə təqdim edilmişdir.<br>2017-ci ildə UNİCEF Bakı Ağır Cinayətlər Məhkəməsində uşaqlar üçün uyğun mühitə malik məhkəmə zalının və ixtisaslaşdırılmış qrupun işinin monitorinqini aparmış, yetkinlik yaşına çatmayanlara dair xidmətlər və prosedurların yaxşılaşdırılması ilə bağlı tövsiyələr vermişdir.<br>UNİCEF beynəlxalq ekspert tərəfindən əsas hökumət qurumlarının nümayəndələri üçün keçirilən 2 günlük təlim və Sloveniya Respublikasında həyata keçirilmiş fakt araşdırma missiyası vasitəsilə digər Avropa ölkələrinin probasiya və mediasiya xidmətləri ilə bağlı qabaqcıl təcrübələrin tətbiqinə texniki dəstək göstərib. | |
